Tanrı Türkə yar olsun!

№ 01-02 (27) 2017

BIRLIK

XOCALI SOYQIRIMI

"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."

Heydər Əliyev

Azərbaycan-Türkiyə əlaqələri: tarixi və müasir inkişaf mərhələləri

Tektaş Ağaoğlu: "Cümhuriyyət hər zaman padşahlıqdan daha doğru bir sistemdir"

Ermənilərin "səssiz monastırları"nda hazırlanan fitnələr

"Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri"

Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri" sərlövhəli məqaləsi verilib. AZƏRTAC-a istinadən məqaləni təqdim edirik.

* * *

Son illər ölkə həyatının bütün sahələrində reallaşdırılan məqsədyönlü tədbirlər öz uğurlu nəticələrini verib.

İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığın inkişafı işinə də xidmət edir. Bu baxımdan Azərbaycanın təşəbbüsü və liderliyi ilə icra olunan "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz dəyərli töhfəsini verəcək. Layihə çərçivəsində "Şahdəniz-2" qaz-kondensat yatağının işlənməsi üzrə işlərin 87 faizi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə işlərin 72 faizi, Trans-Anadolu Boru Kəmərinin (TANAP) inşası üzrə işlərin 60 faizi, Trans-Adriatik Boru Kəmərinin (TAP) inşası üzrə işlərin 30 faizi icra edilib. Qeyd etmək lazımdır ki, "Şahdəniz" yatağı təsdiq edilmiş qaz ehtiyatı ən azı 1,2 trilyon kubmetr olan dünyanın ən böyük qaz yataqlarından biridir.

Azərbaycanda tranzit potensialının reallaşdırılması istiqamətində də mühüm layihələrin icrasına başlamışıq. Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatmalıdır. Bu layihənin icrası Çindən Avropaya yüklərin çatdırılma müddətinin 25-30 gündən 12-15 günə endirilməsinə imkan verəcək. Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində isə ötən il Azərbaycan ərazisində bütün tikinti işləri başa çatdırılıb. Beləliklə, Azərbaycan çox mühüm nəqliyyat qovşağına çevrilməkdədir. Hazırda iqtisadi siyasətin prioritetləri iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafıdır.

Sənayenin inkişafı məqsədilə sənaye parklarının və zonalarının yaradılması işləri aparılmaqdadır. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq. Pambıq, tütün, fındıq, çay, barama və digər ixracyönümlü məhsulların istehsalı artırılacaq, bir neçə aqropark və iri fermer təsərrüfatlarının yaradılması davam etdiriləcək. İnformasiya sektorunun inkişafı məqsədilə xidmətlərin keyfiyyətinin, ölkənin tranzit informasiya dəhlizi potensialının artırılması davam etdiriləcək. Son zamanlar elektron vizaların verilməsi, "Tax free" sisteminin tətbiqi, Birinci Avropa Oyunları və Formula-1 kimi mötəbər tədbirlərin keçirilməsi ölkədə turizmin inkişafına əhəmiyyətli töhfə verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, əldə etdiyimiz real uğurlarla yanaşı, çağırışlarla da üzləşmişik. Qlobal iqtisadi böhran prosesləri Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərib, gəlirlər azalıb və ötən il ərzində milli valyuta 10,1 faiz ucuzlaşıb. Lakin adekvat addımlar ataraq biz bu çətinliklərin öhdəsindən uğurla gəlirik. Daha dayanıqlı inkişafa nail olmaq üçün "Strateji Yol Xəritəsi" təsdiqlənib, struktur, institusional, pulkredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar aparılır, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilir, bütün sahələrdə şəffaflıq təmin edilir. Misal üçün, ötən ilin 10 ayında ticarət dövriyyəsinin azalmasına baxmayaraq, gömrük rüsumlarının toplanan həcmi 53 faiz artıb.

Azərbaycanın gücü təkcə iqtisadiyyatla məhdudlaşmır: Azərbaycan çoxmillətli bir ölkədir. Əsrlər boyu burada müxtəlif etnik qruplar və dini icmaların nümayəndələri sülh, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşayıblar. Azərbaycanda tolerantlıq ruhu daim hökm sürüb və 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Ölkəmiz artıq sivilizasiyalar, dinlər və mədəniyyətlərarası dialoqa həsr olunmuş mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mühüm bir məkana çevrilib. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində uğurla təşkil olunması bunun yaxşı nümunəsi və dünya ölkələrinin Azərbaycandakı multikulturalizm mühitinə olan münasibətinin real ifadəsi idi. Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək lazımdır. Bu tarixi səfər zamanı Roma Katolik Kilsəsinin rəhbəri dünyaya çox açıq mesajlar göndərdi. Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi.

Ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan idman sahəsində də böyük uğurlar əldə edib. Paytaxtda və regionlarda ən müasir Olimpiya idman kompleksləri və digər idman infrastrukturu yaradılıb. Dövlət səviyyəsində idmana göstərilən qayğı və ölkədə ən müasir infrastrukturun yaradılması gənc nəslin idmana olan marağını böyük dərəcədə artırıb. İdmançılarımızın ən mühüm beynəlxalq idman tədbirlərində uğurlu iştirakı bu gün artıq yaxşı ənənəyə çevrilib və Azərbaycan idmançıları Rio Olimpiya Oyunlarında bunu bir daha sübut ediblər. İdmançılarımız 18 medal qazanaraq medalların sayına görə dünyada 14-cü, Avropada 7-ci, postsovet məkanında 2-ci, müsəlman ölkələri içərisində isə birinci yeri qazanıb.

Azərbaycan, həmçinin mötəbər idman tədbirlərinə ev sahibliyi edən dünyanın tanınmış ölkələrindən biridir. Ölkəmizdə 2015-ci ildə ilk Avropa Oyunları və Bakıda 2016-cı ildə dünyada 500 milyon insanın izlədiyi Formula-1 Qran-Pri yarışları keçirilib. Bu il yenidən beynəlxalq idman aləminin diqqəti Azərbaycanda olacaq. 2017-ci ildə ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçiriləcək. İdman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə verəcək bu tədbirlər həm də Azərbaycana gələn turistlərin sayını xeyli dərəcə artıracaq, bununla da ölkəmizdə turizm sektorunun inkişaf etdirilməsi işinə xidmət göstərəcək.

Mən əminəm ki, 2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq. Biz səmərəli iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Eyni zamanda, sosialyönümlü təşəbbüslərin maliyyələşdirilməsini artıracağıq. İqtisadiyyatın şaxələndirilməsi işi demək olar ki, başa çatmaqdadır. Hazırda ölkəmizin ümumi daxili məhsulunun 70 faizi qeyri-neft sektorunun payına düşür.

Bu gün bizim qarşımızda duran əsas məqsəd ixracın şaxələndirilməsidir. 2016-cı ildə atdığımız addımlar bu məqsədə nail olunması işinə xidmət edəcək. Azərbaycan artıq Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksinə görə 37-ci yerdədir (MDB ölkələri sırasında 1-ci yerdə) və biz bu uğuru daha da möhkəmləndirmək əzmindəyik.

Azərbaycan-Türkiyə əlaqələri:

tarixi və müasir inkişaf mərhələləri

Paytaxt Ankarada törədilən terror aktı səbəbindən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 2016-cı ilin 15 martında Azərbaycana nəzərdə tutulan səfəri bir ayda ikinci dəfə təxirə salındı. Lakin bunun qarşılığında Azərbaycan prezidenti planlaşdırılan Strateji Əməkdaşlıq Şurasının V iclasının Bakı əvəzinə Ankarada keçirilməsi barədə təşəbbüslə çıxış etdi və Türkiyəyə səfər etməyə qərar verdi. Bu o demək idi ki, Ərdoğanın səfərinin təxirə salınmasına gətirən Ankaradakı müdhiş və xain terror aktı Bakı-Ankara münasibətlərinin səviyyəsinə neqativ təsir etməyəcək. Tam tərsinə, iki qardaş ölkə arasında əlaqələr ənənəvi axarında - yüksələn xətlə davam edir. Prezident İlham Əliyevin düşmən xəyanətinin acısını yaşayan Türkiyəyə getməsi milyonların qəlbini riqqətə gətirdi. Ən böyük alqışı isə təbii ki, qardaş ölkənin dövlət başçısının dilindən eşitdik: "Millətimizin və ölkəmizin bu çətin günündə-Ankaranın mərkəzində, Kızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən çox ciddi terror aktı- terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm.

Tarixə bir nəzər...

Türk Cümhuriyyətinin qurucusu Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri kədərimizdir" möhtəşəm kəlamı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səsləndirdiyi "Bir millət-iki dövlət" ifadəsi müasir dövrdə Azərbaycan-Türkiyə münasibətlərin məzmununu və yönünü aydın göstərir. İki dövlət arasında münasibətlərin yeni və əsas mərhələsi 1991-ci ildə Sovetlər Birliyi dağıldıqdan sonra başlanmışdır. Türkiyə Azərbaycanın bərpa edilən dövlət müstəqilliyini tanıyan ilk ölkə olmuşdur. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinin bir hissəsini işğal etməsinə cavab olaraq rəsmi Ankaranın təcavüzkar dövlətlə sərhədlərini bağlaması zəruri bir addım olmaqla, Turkiyənin Azərbaycanın mövqeyini təkcə sözdə yox, həm də əməli işdə dəstəkləyən bir dövlət olduğunu ortaya qoymuşdur.

Tarixi və etnik köklərə bağlı olan bu təbii yaxınlaşma, ümumi maraqlar ətrafında səylərin birləşməsinə, gələcəyin möhkəm təməllər üzərində qurulmasına hududsuz imkanlar yaratmaqdadır. Eyni zamanda, yeni dünya nizamında ədalətin əsas meyar kimi qəbul edilməsinə sadiqliyini hər iki dövlət daim ortaya qoyur. Türkiyə və Azərbaycan arasındakı əlaqələrin dünyada analoqu olmayan müttəfiqlik səviyyəsinə yüksəlməsi ilk növbədə tarixi təmələ söykənir. 1918-ci ilin 28 mayında müsəlman Şərqində ilk demokratik dövlət kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili-xarici həmlələrdən müdafəsində və möhkəmlənməsində o zamankı Osmanlı Türkiyəsi yaxından iştirak etmişdir. I Dünya müharibəsindən, habelə Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən istifadə edən ermənilər bolşevik bayrağı altında Azərbaycanın bəzi bölgələrini, o cümlədən Bakını işğal etmişdilər. Belə bir murəkkəb şəraitdə müstəqilliyə yeni qovuşmuş, beynəlxalq aləm-

də hələ tanınmayan gənc dövlətin öz ərazi bütövlüyünü qorumaq və daxildəki erməni-bolşevik birləşmələrini zərərsizləşdirmək imkanları hələ yetərincə deyildi. O dövrdə Osmanlı hökuməti özünün ağır durumuna baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana göndərdi və onun rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Gəncədə, Yevlaxda, Göyçayda, Kürdəmirdə və digər bölgələrdə aparılan ağır döyüşlərdə eser-menşevik və daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil oldu. Bakının «Sentrokaspi diktaturası»ndan – menşevik-eser və daşnak qoşunlarından azad olunduğu 15 Sentyabr bu gun tariximizin ən şanlı səhifələrindəndir. Hərbi nazir Ənvər Paşa o vaxtlar Nuru Paşaya göndərdiyi teleqramda yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və islam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm".

Təəssüf ki, sovet dövründə Azərbaycan-Türkiyə münasibətlərinin təhrif edilmiş, hətta millət kimi varlığını itirmək təhlükəsi olduğu vaxtlarda Azərbaycan türklərinin Türkiyədən yardım istəməsi, Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam ordusu"nun xalqımıza göstərdiyi yardım işğal kimi qiymətləndirilmişdir. Azərbaycan-Türkiyə əlaqələrinin 1920-1922-ci illərini əhatə edən sənəd və materiallar sübut edir ki, müttəfiqliyin bu dövründə də Sovet Azərbaycanı ilə Türkiyə arasında diplomatik münasibətlər özünü təsdiq edir. O vaxt bolşevik-daşnak hərbi birləşmələrinin Azərbaycanda həyata keçirdikləri etnik təmizləmənin qarşısını almış Osmanlı dövləti I Dünya müharibəsində məğlub olmuş tərəf kimi çıxır və özü köməyə möhtac qalır. Ölkənin parçalanaraq Antanta ilə onun müttəfiqi olan dövlətlərin idarəsinə keçməsini qeyd-şərtsiz qəbul etmiş Osmanlı sultanı və onun tərəfdarlarından fərqli olaraq Mustafa Kamal

Paşanın ətrafında birləşmiş vətənpərvər qüvvələr Antanta orduları ilə mübarizəyə qalxır. Maksimum səfərbər edilmiş ölkədaxili hərbi-siyasi potensialın tükənməsinin qarşısını alınır və Mustafa Kamal paşa başda olmaqla vətənpərvər qüvvələr mübarizəni qələbə ilə başa vururlar. 26 aprel 1920-ci ildə TBMM adından Sovet Rusiyasına məktub göndərilir. Məktubda Sovet Rusiyasının antiimperialist qüvvələrlə mübarizəsinin dəstəkləndiyi, Türkiyənin də eyni cəbhədə olduğu bildirildikdən sonra, TBMM-nin antiimperialist qüvvələrlə mübarizədə türk xalqının yeganə təmsilçisi olduğunun tanınması və onlara hərbi yardımın göstərilməsi xahiş edilirdi. Sovet Rusiyası TBMM-nin bu müraciətini müsbət qarşılayır və lazım olan yardımı da göstərir. TBMM Rusiya və Azərbaycana öz səfirini göndərsə də, nə Rusiya, nə də Azərbaycan Ankaraya səfirlərini göndərməyə hələ tələsmirdilər. Yalnız Cənubi Qafqaz respublikalarının hamısında Sovet hakimiyyətinin qurulmasından və 16 mart 1921-ci ildə Moskvada Rusiya ilə Türkiyə arasında dostluq müqaviləsinin imzalanmasından sonra Azərbaycanın Türkiyədə diplomatik nümayəndəliyinin açılmasına qərar verilir. Sovet Rusiyası ilə Azərbaycan eyni siyasi və ideoloji cəbhəni təmsil etdiklərinə görə, Azərbaycanın Türkiyəyə təyin olunacaq səfirinin kimliyi barədə Leninə məlumat verilir və bu vəzifəyə İbrahim Əbilov təyin olunur. İbrahim Əbilov 15 oktyabr 1921-ci ildə etimadnaməsini TBMM-nin sədri və Ali baş komandan Mustafa Kamal paşaya təqdim edir. Azərbaycanın diplomatik nümayəndəliyi həmin gündən başlayaraq İbrahim Əbilovun vəfat etdiyi 23 fevral 1923-cü ilə qədər Türkiyədə fəaliyyət göstərir. İ.Əbilovun vəfatından sonra isə Azərbaycanın Türkiyəyə səfiri təyin olunmur və bu funksiyanı Azərbaycanın da daxil olduğu SSRİ-nin, yəni mərkəzi hökumətin nümayəndəsi yerinə yetirməyə başlayır. Atatürk dövründən sonra da SSRİ ilə münasibətlərində soyuqluq uzun illər davam etmişdir.

Qısaca xatırlatdıımız bu tarixi həqiqətlər göstərir ki, hələ 1918-ci ildə məhz Türkiyənin dəstəyi ilə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü təmin olunmuş, bolşeviklərin, daşnakların Bakı və ətraf rayonlarda ağalığına son qoyulmuşdur. 70 illik sovet hakimiyyəti illərində bu tarix gizlədilmiş, yanlış təqdim olunmuşdur. Lakin Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını heç vaxt unutmamış, onu qəlbində dilsiz bir sevgi ilə yaşatmışdır.

Dərin köklərə bağlı bu günümüz

Azərbaycan ötən əsrin sonlarında dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyə ilə münasibətlərin inki-

şafı üçün geniş siyasi və hüquqi imkanlar yarandı. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıtdıqdan sonra Türkiyə Cümhuriyyəti ilə münasibətlərin inkişafına xüsusi önəm verdi. Bu birlik, təsadufi deyil ki, regionda sülhün, təhlükəsizliyin qarantı kimi dəyərləndirilir. Türkiyə və Azərbaycan böyük enerji layihələrinin həyata keçirilməsində strateji ortaqlıq nümayiş etdirərək, ümumilikdə regionun, eyni zamanda, dünyanın iqtisadi imkanlarının genişlənməsinə mühüm zəmin yaradır. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin gerçəkləşməsi də Türkiyə və Azərbaycan dövlətinin siyasi iradəsinin nəticəsidir. Bu birliyin möhkəmlənməsində ulu öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Regionda təhlükəsizliyin təminatında, bütün münaqişələrin sülh yolu ilə həllində maraqlı olan Türkiyə və Azərbaycanın dünyanın ən nüfuzlu təşkilatlarında eyni mövqedən çıxış edərək, beynəlxalq ictimaiyyəti ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe nümayiş etdirməyə çağırması, ikili siyasətin bu gün yaratdığı problemləri aradan qaldırmağa çalışması hər iki ölkənin ortaq maraqlarından irəli gəlir. Rəsmi Ankara daim Azərbaycanın yanında olduğunu bəyan edir. Azərbaycan və Türkiyə iki dövlət olsa da, ümümi hədəfləri birdir.

Azərbaycanla Türkiyə arasında mədəni-humanitar əlaqələr də yüksələn xətlə inkişaf edir. Elm və təhsil sahəsində əməkdaşlıq, tələbə mübadilələri, incəsənət xadimlərinin qarşılıqlı səfərləri, birgə mədəni tədbirlər ardıcıl olaraq həyata keçirilir. Mədəniyyət sahəsində əməkdaşlıq həm də TÜRKSOY çərçivəsində inkişaf etdirilir.

Azərbayca və Türkiyə arasında otən dövrdə 140-dan çox saziş, müqavilə, birgə bəyannamə və protokollar imzalanmışdır. İqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində qardaş ölkə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Azərbaycanın hazırda dünyanın 150 ölkəsi ilə ticarət əlaqələrini vardır və Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. 2001-ci il martın 12-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalanmışdır. 2006-cı ildə Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəməri işə salınmış və bununla iki ölkənin iştirak etdiyi beynəlxalq transkontinental layihə həyata keçirilmişdir. 2007-ci ilin yanvar ayında Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Azərbaycanın "Petkim"də, "Star Rafinery"də, elektrik stansiyası kimi layihələrdə kapital qoyuluşu var. Daha sonra TANAP layihəsi gəlir. Bu layihə Türkiyə və Azərbaycan üçün vacib layihədir. "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti "Şahdəniz" yatağında bp-dən sonra ikinci ən böyük sərmayəçidir. Bu, Türkiyənin Azərbaycan ilə hər sahədə olduğu kimi, enerji sahəsində də ortaq uğurlarının parlaq göstəricisidir.

Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin edəcəkdir. Bakı-Tbilisi-Qars çox böyük bir layihədir və bu gün reallığa

çevrilməkdədir. Bir zamanlar Bakı-Tbilisi-Ceyhan da əlçatmaz bir xəyal idi. Bu layihə Azərbaycan və Türkiyə arasında yeni əməkdaşlıq imkanları yaradacaq. Odur ki, görüşlərdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ilə nəqliyyat, ticarət sahəsində Azərbaycanın, Türkiyənin, Gürcüstanın, ümumilikdə regionun və digər coğrafiyaların faydalanmaq imkanları müzakirə olundu.

Azərbaycan və Türkiyə prezidentləri, hökumət nümayəndələri, dövlət təmsilçiləri bir-biri ilə çox yaxın əməkdaşlıq ruhunda, xalqlarımıza xidmət və bölgə üçün iş görmək düşüncəsi ilə fəaliyyət göstərirlər. Bu, çox mühüm məsələdir. Azərbaycan və Türkiyə əlaqələrinin yüksək səviyyəyə çatdığını ortaya qoyan onlarca faktlar və nümunələr günbə-gün artmaqdadır. Şübhəsiz ki, burada dövlət nümayəndələrinin üzərinə xüsusilə böyük məsuliyyət düşür. Amma xalqlarımızdan gələn birlik iradəsi, qardaşlıq hissləri ən yüksək səviyyədə siyasi iradə ilə möhkəmləndirilib və qarşıya mühüm hədəflər qoyulub.

Zaman sınağa çəkəndə bir olduq...

Tarixin müxtəlif dönəmlərində həmişə bəzi güclər Azərbaycan ilə Türkiyə arasında nifaq salmağa calışmışlar. "Sürix protokolları"- Cənubi Qafqazda yeni geosiyasi xəritə yaratmaq, işğalçı Ermənistanın blokadadan çıxması məqsədini ortaya qoyan protokol Azərbaycan-Türkiyə münasibətlərinin ruhuna zidd prinsipləri daşımaqla bərabər, iki ölkə arasındakı muttəfiqlik təməllərinin sarsılmasına hesablanmışdı. Amma Türkiyə özünün və ən yaxın tərəfdaşının milli maraqlarını zərbə altına qoymamaq üçün çevik diplomatik etməklə növbəti dəfə dünyaya sarsılmaz qardaşlıq əlaqələrinin əbədiliyini sübut etdi. Ankara birmənalı şəkildə bəyan etdi ki, qardaş ölkə Azərbaycanın ərazi bütövlüyü bərpa olunmadan, Ermənistanın işğalçı siyasətinə və əsassız ərazi iddialarına son qoyulmadan sərhədlərin açılması baş tuta bilməz.

Bundan başqa, Qərbin və onun tərəfdaşlarının təxribat xarakterli addımları da Bakı-Ankara munasibətlərini sarsıda bilmədi. Subut olundu ki, Azərbaycan-Türkiyə qardaşlığı kimi ali dəyərlərə söykənən möhkəm birliyi heç nə sıradan çıxara bilməz. Dil, din, mədəniyyət faktorunu kənara qoysaq belə, siyasi-strateji mənada hər iki ölkə bir-biri üçün zəruri tərəfdaşlığa böyuk önəm verir. Türkiyə üçün Cənubi Qafqazın lokomotivi olan Azərbaycan bölgəyə girişdir və

orada möhkəmlənməyin başlıca təminatçıdır. Buna görə də Azərbaycan-Türkiyə işbirliyi xüsusi önəm kəsb edir.

Şərqlə Qərbin qovuşağında yerləşən Azərbaycan önəmli tranzit məntəqə kimi əvəzedilməzdir. Bu, istər müxtəlif enerji layihələrinin reallaşdırılması, istərsə də regional əməkdaşlıqlar zamanı özünü daha qabarıq göstərir. Daha önəmlisi, istər BMT çərçivəsində, istər çoxtərəfli münasibətlər formatında, istərsə də qlobal miqyaslı digər münasibətlər fonunda Bakı və Ankara mütəmadi qaydada bir-birilərini dəstəkləməkdədirlər. Türkiyə də Azərbaycan üçün zəruri strateji önəmə malik tərəfdaşdır. 2015-ci ildə qondarma "erməni soyqırımı"nın 100 illiyi ərəfəsində Türkiyə-Ermənistan münasibətlərinin bərpası istiqamətində addımlar atılacağına dair bəzi iddiaların ortaya qoyulmasına cavab olaraq Türkiyə yenədə Azərbaycanla birlik nümayiş etdirdi.

Strateji müttəfiq ölkələr müxtəlif beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir, ortaq maraqlardan çıxış edirlər. Türkiyə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə edir. "Dağlıq Qarabağ münaqişəsi Türkiyə və Azərbaycanın qanayan yarasıdır." Bunu müsahibəsində Türkiyənin Azərbaycana yeni təyin edilmiş səfiri Erkan Özoral deyir. Səfir qeyd edib ki, Dağlıq Qarabağ problemi artıq öz ədalətli həllını tapmalıdır. Uzun illərdir ATƏT-in Minsk qrupu çərçivəsində problemin həlli və münaqişənin nizamlanması istiqamətində addımlar atmağa səy göstərilir. Lakin çox təəssüf ki, Türkiyənin də dəstəklədiyi danışıqlar prosesi bu günə qədər müsbət nəticə verməyib. Ümid edirik ki, bu müzakirələr artıq konstruktiv keyfiyyət qazanacaq və məsələnin həlli istiqamətində konkret addımlar atılacaq.

Rəsmi Bakı isə öz növbəsində uydurma "erməni soyqırımı"nın ifşa olunmasında rəsmi Ankara ilə birgə addımlar atır. Xatırlatmaq lazımdır ki, 2009-cu ilin fevralında rəsmi Ankaranın Ermənistanla sərhədləri açacağı ilə bağlı yayılan məlumatların istər Türkiyədə, istərsə də Azərbaycanda müxtəlif səviyyələrdə narazılıqla qarşılanması, ciddi müzakirəyə çevrilməsi iki dost, qardaş ölkə arasındakı münasibətlərin əlahiddə xarakterindən irəli gəlirdi. Lakin siyasətdə nə qədər çətin, mürəkkəb situasiyalar olsa belə, müəyyən mənəvi-əxlaqi dəyərlər, milli maraqlar sonda sözünü deyir. Zəngin dövlətçilik təcrübəsinə,

böyuk iqtisadi, siyasi və hərbi potensiala malik Türkiyə bu dəfə də yayılan əsassız məlumatlara cavab olaraq, sonda milli maraqlarını müdafiə etmək, müstəqil siyasət yetirmək niyyətində olduğunu sübuta yetirdi.

Hələ 2010-cu ilin aprelində bədnam erməni lobbisinin təsiri altında Amerika Konqresində qondarma «erməni soyqırımı» məsələsinin ciddiliklə gündəmə gəlməsi rəsmi Ankaranı xarici siyasətdə ümumtürk birliyi xəttini gücləndirməyə sövq etdi. Türkiyə hökuməti terrorçu PKK təşkilatına qarşı mübarizədə müttəfiq saydığı Qərb dövlətlərindən gözlədiyi siyasi və mənəvi dəstəyi məhz Şərqdə - tarixi tellərlə bağlı olduğu türkdilli dövlətlərdən ala biləcəyini yaxşı başa düşür. Rəsmi Bakı bununla yanaşı, həm də qondarma "erməni soyqırımı"nın ABŞ Konqresinin Nümayəndələr Palatasının xarici əlaqələr komitəsində tanınması, habelə İsrail hərbi dəniz qüvvələrinin "Azadlıq" donanmasına hücumu kimi məsələlərdə Türkiyənin haqlı mövqeyini müdafiə etmişdir.

Türkiyənin adekvat addımlarını da xüsusi vurğulamaq lazımdır. Qarsda «erməni-turk dostluğu»na ucaldılmış bədnam abidənin uçurulması, Ermənistanla şərti olaraq imzalanmış "Sürix protokolları"nın təsdiqlənməməsi ortaq maraqlara sədaqətin əyani göstəricisidir. Daha bir önəmli fakt isə 2015-ci ildə 24 apreldə Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın qərarı ilə Çanaqqala döyüşünün 100-cü ildönümünün təntənəli bayramı bütün türk dünyasının birliyinin nümunəsi olmaqla erməni iddalarına da gözlənilməz zərbə idi.

"Azərbaycan 15 iyul çevriliş cəhdindən sonra Türkiyəyə yardım əlini uzadan ilk ölkələrdən oldu",- bunu da Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib. Səfir onu da əlavə edərək qeyd edib ki, Azərbaycan xalqı çevriliş günü türk xalqı ilə eyni hissləri paylaşıb. 15 iyul dövlət çevrilişi cəhdindən dərhal sonra Azərbaycan siyasətçilərinin və ziyalılarının türk xalqına dəstəyi KİV-lərdə geniş müzakirələr yaratdı. Bu yazılarda əzmlə bildirilirdi ki, orta əsrlərdən işlək və sabit irerxiya əsasında təkmilləşən və təkmilləşdikcə də modernləşən türk dövlətciliyi növbəti sınaqdan uğurla çıxdı. Türk xalqının demokratiya ənənələrinə və insan haqqlarına sadiqliyi Türkiyəyə düşmən qüvvələrin uzun illər ərzində hazırladıqları və həyata keçirməyə cəhd etdikləri məkrli planın qarşısı alındı.

* * *

İki qardaş dövlətin rəsmi mövqeyinə gəldikdə isə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin gerçəkləşmiş rəsmi görüşləri də müəyyən mənada ümumtürk birliyinə qarşı yönəlmiş təhdidlərə, qısqanc yanaşmalara layiqli cavab reaksiyası kimi qəbul oluna bilər. Ölkələrimiz arasında çoxyönlu əlaqələr tarixi-siyasi zəmin üzərində inkişaf etməklə, bütövlükdə regionun siyasi taleyinin və gələcək inkişaf perspektivlərinin müəyyənləşməsində mühüm rol oynayır. Yeri gəlmişkən bir faktı da söyləmək yerinə düşər ki, 2000-ci illərin əvvəllərindən Rəcəb Tayyib Ərdoğanın Türkiyədə hakimiyyətə gəlməsi ilə bu əlaqələr daha da inkişaf edib. İqtisadi əlaqələrin həcmi artıb, enerji layihələri ortaya çıxıb. TANAP layihəsi də məhz Ərdoğanın hakimiyyəti dövründə imzalandı. Azərbaycan Türkiyəyə böyük yatırımlar qoydu. Bu il böyük nəqliyyat layihəsi olan Bakı-Tiflis-Qars dəmiryolu layihəsi işə düşəcək. Birmənalı demək olar ki, bu gün Qara dəniz-Xəzərətrafı bölgədə Türkiyə və Azərbaycanın iştirakı olmadan hər hansı layihəni gerçəkləşdirmək mümkün deyildir. Bu həm də Türkiyə və Azərbaycan birliyinin bariz nümunəsinin möhtəşəm təntənəsidir.

Namiq Əhmədov

Azərbaycan Türkünün antropoloji etnogenezi

müqayisəli yanaşama

Adıgözəl Məmmədov
Araşdırmaçı-yazar,
Psixoloji Portretologiya və Siyasi Analizlər Mərkəzinin rəhbəri

Antropoloji materiallar tarixlə əlaqədar bir çox sualların, xüsusilə də millətlərin və onları təmsil edən rəhbərlərin etnogenetikası ilə bağlı məsələlərin həllində vacib rol oynayır.Bundan başqa, etnoqrafik və arxeoloji materiallarda, həmişə antropoloji fərqlilik göstərən qrupların keçmişində və yaxud bu günündə milli kolorit fərqliliyi də aşkarlanır. Beləliklə, antropoloji materialların tədqiqi tarixdə liderlərin milli xüsusiyyətlərini başa düşməyə kömək edə bilər. Bu cür xüsusiyyətləri anlamaq üçün antropologiyanın əhəmiyyəti böyükdür, çünki hər bir liderin gen tarixi onun antropoloji əlamətlərində nəzərə çarpır.

Antropoloji materialların tarixi mənbə kimi istifadəsinə bəzi misallar gətirək. Madaqaskar əhalisi dil və mədəniyyətinə görə Afrika xalqlarından kəskin surətdə fərqlənir, onların dili İndoneziya xalqlarının, xüsusilə də Sumatra adasında yaşayan battakların dili və mədəniyyətinə oxşardır. Yerli əhalinin antropoloji tipi də onların Malay arxipelaqı adasından köçmələri barədə xəbər verir. Bu misal artıq etnoqrafiya və dilçilik sahələrinin sübut etdiyi bir hadisənin antropologiya məlumatları tərəfindən təsdiqi barədir. Madaqaskardakı bəzi bölgələrdəki neqroid tipli əhali həm də İndoneziya dillərində danışır və yalnız barələrində olan antropologiya məlumatları onların soy köklərinin Afrika materikində axtarılmalı olduğunu düşünməyə imkan verir.

Türk köçəri tayfalarının Cənubi Ukrayna ərazisində görünmələri fiziki tipdə açıq-aşkar dəyişikliklərin əmələ gəlməsi ilə müşayiət olunmuşdur ki, bunu XV əsrə aid edilən Xerson yaxınlığında Tyaqinkada Tatar məzarlığında tapılmış qalıqlar da sübut edir. Ananian mədəniyyətinə aid edilən Luqovski məzar-lığında aparılmış tədqiqatlar ananianlarda monqoloid xüsusiyyətlərinin mövcudluğunu göstərdi, bu isə həmin mədəniyyətə malik əhalinin Uralyanı (Trofimova) meşəlik bölgəsi ilə



əlaqələri barədə xəbər verir. Bu vəziyyət öz sübutunu arxeloji materiallarda tapdı.

Digər tərəfdən, antropoloji analiz bəzi hallarda kütləvi köçlər barədə olan fərziyyə və ehtimalları inkar edir. Beləliklə, monqoloid xüsusiyyətlərin türkdilli azərbaycanlılarda tamamilə olmaması türk dilinin Zaqafqaziyada bu bölgəyə monqoloid irqli insanların böyük qruplarla köçü ilə bağlı meydana çıxması barədəki ehtimallardan əl çəkməyə vadar edir. Bu gün mövcud olan bəşəriyyət özlüyündə bioloji nöqteyi-nəzərdən irq adlanan silsilə qruplara bölünmüş Homosapiens L. növünə məxsusdur. Beləliklə də, irqlər Homosapiens növünün tərkibinə daxil olan qisimlərdir.

"Raso" - irq termininin mənası müxtəlif cür izah olunur: ərəbcə "ras" "baş" sözündən olub "başlanğıc", "mənşə" kimi götürülür, italyancadan "razza-rasa" tayfa kimi

mənalandırılır. La "race" sözü, demək olar ki, bu gün istifadə olun-duğu mənaya yaxındır, biz onu Fransua Bernyedə -1684-cü ildə nəşr olunmuş, insan irqləri barədə ilk kitablardan birinin müəllifində tapırıq. Almanlar bu sözü fransızlardan mənimsədilər, hətta uzun müddət fransız transkripsiyası olan "race" şəklində saxladılar və yalnız XIX əsrin ikinci yarısında onu alman dilinə uyğunlaşdırılmış "rassezi" ilə əvəz etdilər.

İrqlər bir-birindən fiziki əlamətlərinə görə fərqlənirlər - göz, saç, dəri rənginə görə, saçların forması ilə, sifət cizgiləri ilə, kəllə quruluşu ilə və s. Əlbəttə, bu əlamətlər insanın həyat fəaliyyəti üçün elə də böyük əhəmiyyətə malik deyillər. Yalnız bu, bizə bölgədə əsas əhali kütləsindən kəskin fərqlənən tipin mövcudluğu, ya əsas əhalinin, ya da azlıq təşkil edən əhalinin əcdadlarının həmin bölgəyə köçü barədə əminliklə danışmağa imkan verir. Millət və irq kimi tamamilə fərqli anlayışları ciddi şəkildə ayıra bilmək vacibdir.

İnsanları millət daxilində birləşdirən onların dilləri, bölgələri, iqtisadi həyatları, psixoloji quruluşlarıdır. Millətdən fərqli olaraq irq müəyyən bir arealla bağlı olan insanların mənşə eyniliyində, fiziki tiplərinin eyniliyində kütlələşməsidir. Məsələn, "fransız irqi", "alman irqi", "yapon irqi", "ingilis irqi", "italyan irqi" kimi ifadələr yanlışdır.

Bunu növbəti misallarla təsdiq etmək mümkündür. Beləliklə, şimali italiyalılar cənubi İtaliya əhalisinə nisbətdə hündürboylu, daha çox başı qısa (braxikefal), daha az qarasaçlı və qaragözlüdürlər.Müəyyən edilmişdir ki, antropoloji baxımdan Fransanın əhalisi müxtəlif tərkiblidir, şimali fransızlar daha hündürboylu, açıqsaçlı və aydıngözlüdürlər, ofermiyalı fransızların isə baş göstəriciləri perıqorlu və provanslı həmyerlilərinə nisbətdə daha iridir. İngiltərənin şərq qraflıqlarının əhalisi Uels əhalisinə nisbətdə daha işıqlı piqmentlərə sahibdirlər və daha ucaboydurlar.

Polyak antropoloqlarının dəqiq və sistemli tədqiqatları sayəsində Polşa Avropa ölkələri içərisində antropoloji cəhətdən ən yaxşı tədqiq olunmuş ölkə sayıla bilər. Aşkar olunmuşdur ki, Polşanın qərb regionlarının əhalisi şərqdəkilərlə müqayisədə daha hündürboylu və alagözlüdürlər, saçları daha açıq rənglidir və leptori buruna malikdirlər. Polşada boy 163-168 sm. arası dəyişir, gözlərin rənginin açıqlığı 32-63, burun göstəricisi isə 64-68 arasında dəyişir. (Yan Midlyarskiy. 1952).

İrq və dil arasında vacib əhəmiyyət daşıyan daxili əlaqənin olmaması bütün aydınlığı ilə bir çox hallarda özünü göstərir. İstənilən irqin nümayəndəsi hansı ölkədə ömrünün ilk çağlarından yaşayıb böyüyürsə, doğma dili həmin ölkənin dili olacaqdır. Bir tətəfdən dil, digər tərəfdən irq uyğunsuzluqlarının müşahidə edildiyi çoxlu misallar gətirmək mümkündür. Məsələn, türkdilli xalqlar içərisində biz azərbaycanlıların cənubi avropoid irqinə mənsub olduğumuzu, yakutların əksinə, monqoloid irqi təmsil etdiyini, çuvaşlarda isə ural tipinin cizgilərini görə bilərik. Misal üçün, tarixdə soyadları türk mənşəli olan bir çox məşhur rus knyazlari, zadəganları vardır. Bu, slavyan-türk etnoslarının nə dərəcədə sıx qarışdığını bizə deyir. Əgər nəzərə alsaq ki, Qafqazın, İranın, Kıçık və Orta Asiyanın, Rusiyanın böyük vilayətlərinin iri əhali kütlələri türkdilli xalqlardırlar, onda slavyan və türk xalqlarının qarşılıqlı əlaqəsinin tədqiqinin aktual əhəmiyyəti atır. Sovet İttifaqının süqutundan sonra bu ərazidə beş müstəqil türkdilli dövlət yarandı (Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, və Azərbaycan). Türk xalqları da digər millətlər kimi qloballaş-madan qaça bilməzlər. Bu ərazilərin siyasi və mədəni inkişafa, demokratiya proseslərinə təsiri barədə biz yalnız ümumi fikirlər deyə bilərik. Biz bu təsirləri bütün ayrıntılarda izləyə bilmərik, lakin heç şübhəsiz, ərazi xüsusiyyətləri daxil olmaqla, orada yaşayan xalqın və onun tarixinin arasında bir bağlılıq vardır. Buna görə də avropalı tarixçilər yüzillərlə bütün avropa dünyasını əlində saxlamış döyüşkən türk xalqlarının gəldiyi şərqə nəzər salmaya bilməzlər. Qədim dövrlərdən bəri türklərin köçəri tayfaları dözümlü dövlət quruluşları yaradaraq nəinki öz qonşuları ilə - çinlilərlə tez-tez baş verən döyüşlərdə güclərini sınayırdılar, eləcə də müəyyən dünyagörüşləri və özünəməxsus yazıları formalaşmışdı.

Tam qətiyyətlə söyləmək olar ki, Baykal və Qara dəniz arası böyük ərazi slavyan və türk millətlərinin həyat səhnələri olub və eləcə də qalmaqdadır. Uzun müddət ərzində bu

xalqların beşiyi olan regionda hər bir fərddə döyüşkənlik və elə dünyəvi xüsusiyyətlər formalaşmışdır ki, indinin özündə türk və slavyan xalqlarının dəfələrlə ari, sami və digər millətlərlə qarışmalarına baxmayaraq, bu xüsusiyyətlər hələ də onlarda qalmaqdadır.

Türklərin böyük əksəriyyəti İslamı qəbul edib. Hələ İslamın qəbulunadək onlar artıq çinlilərdən gerb halında hilal simvolunu qəbul etmişdilər. Bu müddət ərzində onlar səma kultuna və buddizmə etiqad etməkdəydilər. İsanın doğul-masından təqribən 50 il qabaq Türk tayfalarının Çindəki dövləti (Türk tayfalarında Hunğ Nu) iki yerə -şimala və cənuba bölündü. Cənubdakı əhalini çinlilər assimilə etdilər, şimaldakı dövlətləri isə Sibirin Tunqus tayfasının sürəkli axınları nəticəsində çökdü. Artıq eramızın 84-cü ilində hunların bir qismi Aral dənizinin qərbindəki çöllərə üz tutub, Çi-Cinin başçılığı altında Tyan Şan ətəklərində yerləşən Vu-Sen (Usun) dövlətini işğal etdilər. Burada onu da qeyd etmək lazımdır ki, yeni türk tayfaları tutduqları ərazilərə öz mədəniyyət və dinlərini -buddizmi gətirirdilər. Bu türk tayfalarının xüsusiyyətləri və adətləri haqda bizə məlum olan hər şey altay-monqol tayfalarının cizgiləri ilə üst-üstə düşür. Eyni şeyi onların fiziki əlamətləri haqqında da demək olar. Onlar böyük yumru kəllə və batıq, xırda gözləri ilə seçilirdilər.

Məhz bu ərəfələrdə Qafqaz millətləri Buddizm etiqadı ilə Kuşan imperiyasının sayəsində tanış olurlar. Fərqli türk rəhbərlərinin Qərb mədəniyyətinə yönəlməsinə baxmayaraq, indiyədək buddizmin təsirləri bu xalqlar üzərində görünməkdədir. Bu, müqəddəs məkanlara münasibətdə və etiqadda hələ də özünü göstərməkdədir. Türklər bu günəcən mövcud olan əsas dünyəvi dinləri özlərində cəmləmişlər. Baxmayaraq ki, onların böyük qismi İslama etiqad edir, bəziləri hələ də digər dinlərə etiqad etməkdədirlər. Məsələn, cuvaşlar, qaqauzlar, xiristian, tuvinlər buddist, karaimlər iudistdir və s.

Qafqazı və Azərbaycan Respublikasını təşkil edən Şimali Azərbaycan əhalisinin böyük əksəriyyəti İslama etiqad edir. Əgər biz bir anlıq bu xalqların etnogenezinə nəzər salsaq, onda Azərbaycanda və Şimali Qafqazda yaşayıb müxtəlif dinlərə etiqad edən bu xalqların yaranmasında iştirak etmiş saysız millətlər və tayfalarla qarşılaşmış olarıq. Biz onlardan totemizmə inanan kütiləri, xristian albanları, iudaizm dinində olan xəzəriləri və atəşpərəst midıyalıları qeyd edə bilərik. Bütün bunlar bir daha sübut edir ki, hər bir millətin



formalaşmasında coxsaylı tayfalar iştirak etmişdir və bu tayfaların da dərin mənəvi-əxlaqi ənənələri mövcud olmuşdur.

Əgər Azərbaycanın tarixinə kutilərin dövründən başlayaraq nəzər yetirsək, bizə aydın olar ki, onlar son dərəcə yüksək mədəniyyətə sahib olublar. Onlar Volqanın sol sahillərindən başlayaraq Urala, mərkəzi Asiyaya, Sibirə, düz Yakutiyayacan bir çox yeni torpaqlarda məskunlaşmışdılar. Aşağıda adıçəkilən toponimlər kutilərin qitədə hərəkət istiqamətlərini, öz adlarında "küt" adını daşıyaraq nişan verirlər. Məsələn: 1. Surqut, 2. Qırmızı-kut -Saratov vilayətində şəhər, 3. Krasnokutst - Qazaxıstanın Pavlodar rayonunda şəhər, 4. Urqut - Özbəkistanın Səmərqənd vilayətində şəhər, 5. İrkutsk - Sibirdə şəhər, 6. Urkut - çay, 7. Ustkut - İrkutsk vilayətində şəhər, 8. Kutülük - Buryat muxtariyyətində şəhər, 9. Yakutsk - əvvəlki Yakutiya, indiki Saxanın paytaxtı, 10. Surkut - Xantı-Mansı Muxtar Vilayətində şəhər.

Bu tayfalar totemizmə etiqad edərkən yerli əhali içərisində simbioz yaşamaq nümunəsi göstərirdilər. Bu xalqların öz mənbələrini kutilərdən götürdüklərini nəzərə alsaq, onda onların düşüncə tərzlərinin müəyyən bir formasını da irsən kutilərdən aldıqları məlum olar.

Bütün bu faktlar dilin hansısa səbəbdən irqdən asılı olmamasına dəlalət edir, ancaq bununla belə, tez-tez qarşıya çıxan hansısa irq və dil qrupları arasındakı tarixi əlaqələrin yaranmasını qətiyyən inkar etmir. Əgər, məsələn, buryatlar antropoloji tipləri, mədəniyyətləri və dilləri ilə ruslardan fərqlənirlərsə, bu, heç də onların dilinin monqoloid irqinə aid olması demək deyil. Bu, tarixi əlaqələrin müxtəlif formalarının tədqiqi, ümumiləşdirmələr sırasının qurulmasına imkan yaradır:

1. Dil və mədəniyyət antropoloji tiplərin yerdəyişməsindən ayrılıqda da yayıla bilər, lakin antropoloji tiplər özləri ilə müəyyən dil və mədəniyyət daşımadan yayılmırlar.

2. Antropoloji məlumatlar xalqın hansı etnik təbəqələrdən ibarət olduğunun müəyyənləşdirilməsində vacib rol oynamağa qadirdirlər.

3. Kütlənin, demək olar ki, eyni antropoloji tərkibə aid olub fərqli dillərdə danışan qruplara ayrılması halları vardır və çox yayğındır.

4. Etnogenezin analizində tarixi-etnoqrafik ərazilər üzrə sinifləndirmə, təsərrüfat mədəniyyəti üzrə siniflendirmələrə nisbətdə daha artıq əhəmiyyət daşıyır.

6. Antropoloji tiplərin sərhəddi təsərrüfat mədəniyyəti və ya dil qruplarının yayılma sərhədləri ilə müqayisədə tarixi-etnoqrafik ərazilərin sərhədləri ilə daha çox üst-üstə düşür.

Qırmızı imperiyanın QARA ƏMƏLLƏRİ

(1905-ci il 9 Yanvar "Qanlı bazaar" günü və 1990-cı il 20 Yanvar "Qanlı şənbə" günü)

Deyirlər, tarix təkrar olunur. Hər bir dövrün müəyyən inkişaf mərhələsində müxtəlif ölkələrdə baş verən ictimai-siyasi xarakterli hadisələr nə vaxtsa onu doğuran mühit və şərait yarandıqda yenidən təkrarlanır. Lakin həmin hadisələr arasında cox fərqli cəhətlər də özünü göstərir.

Müqayisə üçün çox da uzaq olmayan keçmişə nəzər salmağımız fikrimizə aydınlıq gətirə bilər. Sovetlər dönəmində orta məktəbdə oxuyarkən, "SSRİ tarixi" dərsliyində belə bir mövzu var idi: "9 yanvar qanlı bazaar günü". Burada belə yazılmışdı: Çar hökuməti zamanında Rusiyada haqsızlıq, ədalətsizlik, hüquqsuzluq, zülm və istibdad hökm sürürdü. Hakim sinfin qəddarlığı, çar məmurlarının özbaşınalığı, aclıq, səfalət və xəstəliklər minlərlə insanın həyatına son qoyurdu, savadsızlıq, nadanlıq və cəhalət ölkəni başdan-başa bürümüşdü. Müharibələr, üsyanlar ölkəni taqətdən salmış, həyat, demık olar ki, iflic vəziyyətə düşmüşdü.

Hökumətdən, onun mürtəce suyasətindən, müharibələrin ağır nəticələrindən, həyat və məişətin dözülməzliyindən cana doyan xalq kütlələrinin mütləqiyyətə qarşı nifrəti və qəzəbi getdikcə artır, üsyanlar baş verir, azadlıq və demokratiya uğrunda mübarizə hərəkatına çevrilirdi.

1905-ci il birinci rus inqilabı, Rus-yapon müharibəsində Rusiyanın məğlubiyyəti, genişlənən inqilabi azadlıq hərəkatı mütləqiyyətin süqutunu tezləşdirdi. Bundan qorxuya düşən çarizm hakimiyyətini saxlamaq üçün ən dəhşətli tədbirlərə əl atmaqdan çəkinmirdi. Hər gün minlərlə günahsız insanın qanı axıdılır, yüzlərlə adam edam olunur və güllələnirdi. Bütün cəza tədbirlərinin nəticəsiz qaldığını görən çar o zaman xalqı qorxutmaq üçün daha dəhşətli bir tədbirə əl atdı:1905-ci il yanvar ayının 9-da bazaar günü keşiş Qaponun yalançı vədi əsasında Peterburq meydanına axışan və çara inanan on minlərlə insan - qoca, cavan, böyük, kiçik, xəstə, sağlam və xırda uşaqlar böyüklərə qoşularaq çardan mərhəmət gözləməyə başladılar. Onlar Allaha dualar oxuyurdular.

Elə bu zaman keşiş Qaponun əmri ilə meydanı hər tərəfdən mühasirəyə almış çar ordusunun silahlı dəstələri əliyalın, silahsız insanları gülləbaran etməyə başladılar. Meydan qan gölünə döndü. Heç bir insanlığa sığmayan bu hadisə "9 yanvar qanlı Bazar günü" adı ilə tarixin səhifələrinə düşdü.

Bəs güllәbaran edilən insanların günahı nə idi? - Zülm və istismarın olmadığı azad bir cəmiyyətdə, ədalət və haqqın hökm sürdüyü bir quruluşda yaşamaq , sərbəst nəfəs almaq istəyi! Bu, Tanrının öz bəndələrinə bəxş etdiyi ən böyük hüquqdur. Bu hüququ onun əlindən almağa heç kimin ixtiyarı yoxdur!

O zaman sovet tarixçiləri həmin hadisələri şagirdlərə və tələbələrə bəlağət və fəsahətlə təbliğ edirdilər. Məqsəd də bu idi: qoy hamı bilsin ki, sovet höluməti, Kommunist partiyası nə qədər humanist, nə qədər insanpərvərdir, ədalət və haqqın keşikçisi, sülhün, demokratiyanın və azadlığın müdafiəçisidir, onun dayağıdır. Sovet ordusu sovet xalqlarının qoruyucusu və mənafelərinin təminatçısıdır.

Lakin tarix irəlilədikcə, illər bir-birini əvəz etdikcə, məlum oldu ki, bu, qara maskaya bürünmüş yalançı və saxta bir siyasət, xalqın başını qarışdırmaq, gözündən pərdə asmaq üçün təşkil olunmuş bir oyun imiş. Baş verən müxtəlif məzmunlu hadisələr nəticəsində əllərindəki qırmızı bayrağın və üzlərindəki qara maskanın rəngləri solmağa, altında gizlədilmiş sirlər aydın görünməyə başladı. Məsələn, Leninin "Xalqların öz müqəddəratını təyin etməsi və lazım gələrsə, ayrılaraq müstəqil dövlət yaratmaq hüququna malik olması" haqqındakı bəyanatına bolşevik-

rin münasibəti bunu aydın göstərdi. İnqilabdan sonrakı illərdə sovet hökuməti bu bəyanatdan üz döndərdi və qeyd etdi ki, onun həyata keçirilməsi gələcəkdə ən ağır nəticələr doğura bilər.

Həmin fakt sovet hökumətinin və Kommunist partiyasının yeritdiyi siyasətin maskalanmış, hiyləgər bir siyasət olduğunu göstərən ilk əlamət idi. Lakin biz buna əhəmiyyət vermədik. Axı bu, təkcə bizə aid deyildi, aid olsaydı da, heç nə edə bilməzdik! Ona görə də sovet hökumətinin daxili və xarici siyasətini "bəyəndik", onu canımızla, qanımızla qoruyacağımıza and da içdik!

Təsəvvürümüzə belə gətirə bilməzdik ki, sovet hökuməti, Kommunist partiyası tərkibindəki respublikalara ikili standartla yanaşa bilər, birinə doğma, digərinə ögey münasibət göstərər. Düzdür, böyüdükcə, ağlımız kəsdikcə hadisələrin mahiyyətini az-çox anlamağa başlayırdıq, dərk etmək isə qadağan idi. Qadağaya riayət etməyənləri çox uzaqlara – gedər-gəlməz səfərlərə yola salırdılar.

1948 və 1988-ci illərdə sovet hökuməti və kommunist partiyasının yeritdiyi ikili siyasətinin ağır nəticələrinin şahidi olduq. Ermənilər özünə doğma, azərbaycanlıları ögey hesab edən qırmızı sovet imperiyası, nəhayət, öz çirkin simasını açıb göstərdi. Bir milyondan çox azərbaycanlı zorla, silah gücünə doğma ata-baba yurdlarından deportasiya edildi, qovuldu, torpaqlarımızın, doğma yurdumuzun 20 faizi ermənilərə verildi.

Azərbaycan xalqı artıq bu ikiüzlü və hiyləgər siyasətlə barışa bilmədi. Sovet hökuməti və onun partiyasının mürtəce siyasətinə öz etiraz səsini ucaltdı, sovet hökumətini, onun dayağı olan yerli rəhbərləri bu iyrənc təhqiredici siyasətə son qoymağa çağırdı. İmperiya isə bu çağırışı başqa cür qarşıladı. Çar Nikolay və onun sevimli keşişi Qaponun üsulundan istifadə etməyi çıxış yolu kimi seçdi.

1990-cı il yanvar ayının 20-də şənbə günü sovet hökuməti xüsusi təlim görmüş və əksəriyyəti erməni millətindən olan ordunu gizli şəkildə Bakıya yeritdi. İçki və narkotik maddənin təsirindən beyinləri dumanlanmış, başdan- ayağa qədər silahlanmış quduz əsgərlər heç nəyə, heç kimə fərq qoymadan dinc əhalini güllələbaran etməyə başladılar. Qarşılarına çıxan hər şeyi tankların altına salır, güllələyir, yerlə yeksan edirdilər.

Müstəqil Ağayev
AMEA Fəlsəfə İnstitutu, "Fəlsəfə və ictimai fikir tarixi" şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru.

Yüzlərlə insan, o cümlədən qocalar, ahıllar, körpə uşaqlar al qana boyandılar. Küçələrdə qanlı gölməçələr əmələ gəldi. Yaralıları yerləşdirmək üçün xəstəxanalarda yer çatışmırdı. İnsanlar vahimə icərisində nə edəcəklərini bilmirdilər. Onlar inanmırdılar ki, bu hadisələri törədən sovet ordusu, sovet hökumətidir.

Bu qanlı olaylar əyani şəklidə göstərdi ki, tarix və tarixi hadisələr təkrar olunur…1905-ci il 9 yanvar qanlı bazar günündə baş vermiş hadisələr 1990-cı il 20 yanvar qanlı şənbə günündə təkrar olundu. O zaman ölkəni çar Nikolay, 1990-cı ildə isə Nikolayın davamçısı, soykökü bir olan Qorbaçov və onun kimilər idarə edirdilər.

Özünü humanist, sülhün və demokratiyanın dayağı və təminatçısı kimi qələmə verən sovet hökumətinin, qırmızı imperiyanın və onun kommunist partiyasının maskalanmış siyasəti, iyrənc siması həmin gün ifşa olundu.

The Times
OFFERS THE
"ENCYCLOPÆDIA BRITANNICA"
ONE GUINEA,

"THE TIMES" "ƏKİNÇİ" ƏLAQƏLƏRİ ARAŞDIRMALAR TƏLƏB EDİR

1876-cı il iyulun 22-də xalqımızın həyatında misli görünməmiş hadisə baş vedi: ziyalılarımızın çoxdankı arzusu həyata keçdi, Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin birinci nömrəsi çapdan çıxdı. Əlbəttə, birinci olmaq cətindir. Qəzetin redaktoru həm nəşrin yaradılması uğrunda apardığı mübarizə zamanı, həm də nəşri dövründə çox böyük çətinliklərlə üzləşməli olurdu. Bu çətinliklər müxtəlif istiqamətli idi. Qəzet həm informasiya toplanmasında, həm səhifələnib cap edilməsində, həm də materialların oxunub redaktə edilməsində çətinliklərlə rastlaşırdı.

Moskva Universitetinin məzunu olması, Avropa ölkələrinin tarixini və mədəniyyətini yaxşı bilməsi "Əkinçi"nin nəşrində H.B.Zərdabiyə yardımçı olurdu, müxtəlif ölkələrin qəzetlərinin materiallarına əsaslanması onun beynəlxalq məsələlərin işıqlandırılmasında köməyinə gəlirdi. Qəzetin işıq üzü qörmüş 56 nömrəsində rus, ingilis, fransız dilli mətbuat orqanlarından gen-bol istifadə edilmişdir. Bu materialların böyük əksəriyyətində ən mühüm beynəlxalq həyat məsələləri işıqlandırılmışdır.

H.B.Zərdabinin böyük maraq göstərdiyi xarici mətbuat orqanlarından ən birincisi Böyük Britaniyanın "The Times" qəzeti olmuşdur. Maraqlıdır ki, "Əkinçi" öz problemlərindən danışarkən həmin qəzeti müsbət nümünə kimi göstərmişdir. Nəşrin 1876-cı il 6 dekabr tarixli sayında "Daxiliyyə" şöbəsində verilmiş materialda deyilir: **"Bizim müsəlman tayfasının ingilis tayfasından nə gədər geri qaldığını "Əkinçi" qəzetinə və London şəhərində çap olunan "Tayms" qəzetinə baxmaq ilə bilmək olur".**

"The Times" qəzeti XIX əsrdə İngiltərə jurnalistikasının lideri idi. Onun şan-şöhrəti Londondan bütün dünyaya yayılmışdı. Qəzetin birinci nömrəsində deyilirdi ki, bu nəşr dövrünün ən müxtəlif məlumatlarını dəqiq qeydə alan salnamə olmalıdır.

Əsası 1785-ci ildə qoyulmuş "The Times" 1803-cü ildən müstəqil mətbuat orqanına çevrildi və hökümətdən aslılığa son qoydu. Hökümət isə qəzetə Avropadan və digər məkanlardan informasiya gətirən gəmiləri ləngitmək barədə əmr verdi. Bununla bağlı nəşrin baş redaktoru Con Valter izahat istədi. Ona bildirdilər ki, qəzet istiqamətini dəyişdirərsə, əmr geri götürülə bilər. Qəzetin sahibi sövdələşmədən imtina etdi və işi yaxşılaşdırmaq məqsədilə gəmilər, poçt arabaları aldı, kuryerlər dəstəsi yaratdı, İngiltərə və Hindistan arasında əlaqələrin intensivliyini təmin etdi.

"The Times" XIX əsrin axırlarınadək beynəlxalq həyat məsələlərinin işıqlandırılmasında liderliyi əlində saxladı. Bu mətbu orqan həm ölkə daxilində, həm də xaricdə geniş müxbirlər şəbəkəsi olan yeganə gündəlik ingilis qəzeti idi. Nəşrin tirajı sürətlə artırdı. 1815-ci ildə tirajı 5.000 nüsxə olan qəzet 1854-cü ildə 50.000 nüsxə tirajla çap olunurdu.

Parlamentdə stenoqrafların sayı artırılmışdı. Qəzet parlamentdə apa-

rılan müzakirələrin xülasəsini əvvəllər 8-10 sütunda verirdisə, bu rəqəm 1-ə endirilmişdi. Maraqlıdır ki, bu yeniliyi Londonun digər qəzetləri də tətbiq etməyə başlamışdılar. Şübhəsiz, həmin üsul oxucu vaxtına qənaət olunmasını və materialın daha tez oxunmasını təmin edirdi.

Valterlər sülaləsi öz ətrafına istedadlı adamlar toplamışdı. İki alman – Köniq və Bauer 1814-cü ildə qəzetin emalatxanalarında buxarla işləyən çap maşını hazırlamışdılar. "The Times"ın 1814-cü il 29 noyabr tarixli nömrəsi yeni maşında çap olunmuşdu. Bu maşın saatda 1.000 nüsxə, bir az sonra 5.000 nüsxə, müəyyən təkmilləşdirmə apardıqdan sonra isə 10.000 nüsxə qəzet çap etməyə imkan verirdi. Əllə işlədilən dəzğahda isə saatda yalnız 215 nüsxə çap etmək mümkün olurdu.

1817-ci ildə qəzetin baş redaktoru vəzifəsinə Tomas Barns gətirildi. İngiltərənin qəzet maqnatı Nortkliff onu "The Times"ın ən yaxşı redaktoru kimi səciyyələndirirdi. Barns ölümünün son günlərinədək, yəni 1841-ci ilə gədər sevimli qəzetinə rəhbərlik etmişdir.

Onun varisi Con Dileyn oldu. 1879-cu ilə qədər baş redaktor olan Con Dileyn nəşrin bütün tirajı çap olunmamış evə getməzdi. "Əkinçi" dünyaya göz açarkən "The Times" 91 yaşına yaxınlaşırdı. Qəzet dünyanın ən nüfuzlu mətbuat orqanı kimi şöhrət qazanmışdı. "Əkinçi"nin bu qəzetə maraq göstərməsi, onun barəsində öz səhifələrində söz açması, çap etdiyi materiallardan istifadə etməsi "The Times"ın dünya şöhrətli mətbuat orqanı olması ilə əlaqədar idi.

İngiltərə parlamentinin üzvü Bulver Litton çıxışlarından birində demişdi: **"XIX əsr İngiltərə sivilizasiyası haqqında hər hansı sübutu gələcək əsrlərə ötürmək mənə həvalə edilsə idi, nə donanmalarımızı, nə dəmir yollarımızı, nə ictimai binalarımızı, nə də sizinlə birlikdə iclas keçirmək şərəfinə nail olduğumuz əzəmətli parlament binamızı seçərdim. Mənə "The Times"ın adi nömrələrindən biri kifayət edərdi".**

Həmid VƏLİYEV
BDU Beynəlxalq jurnalistika kafedrasının müdiri, professor, Gürcüstan SSR-in əməkdar jurnalisti



ABŞ prezidenti Avraam Linkoln **"The Times"ı "dördüncü" hakimiyyət hesab etməklə yanaşı, dünyada ən böyük qüvvələrdən biri kimi dəyərləndirirdi. Kraliça Viktoriya məktublarından birində "The Times" qəzetinin cəmiyyətin həyatına təsirinin cox güclü olmasından söhbət açırdı.**

Bütün bu faktları göstərdikdən sonra "Əkinçi"nin "The Times"a tez-tez müraciət etməsinin səbəbi aydınlaşır. Bu qəzet haqqında "Əkinçi"də çap olunan yazı çox ehtimal ki, qəzet barəsində Həsən bəy Zərdabinin bildiklərinin cüzi bir hissəsi idi.

"Əkinçi"nin yazdığına görə, "The Times" dörd səhifə həcmində hər gün çıxır, hər vilayətdə müxbiri olması təzə xəbərlərin toplanıb çap edilməsinə imkan verir, tirajın oxuculara dəmiryol qatarları vasitəsilə həmin gün çatdırılması təmin edilir, hətta bu işin sürətləndirilməsi üçün yeni tədbirlər görülməsi nəzərdə tutulurdu. Çap işinin sürətləndirilməsi sahəsində görülən tədbirlərdən danışan H.B.Zərdabi qəzetin elanlardan hər gün 200 manatdan çox vəsait götürdüyünü qeyd edir, "The Times"ın 100.000 nəfərdən çox müştərisinin olduğunu göstərirdi.

H.B.Zərdabi "Əkinçi" barəsində danışarkən yazırdı ki, **həmin "qəzet 300 müştəriyə həsrət çəkir və bir də ingilis məmləkətində "Tayms"dan**

savayı çox qəzet var ki hər gündə, ya da gündə iki dəfə çap olunur və onların hər birini çap edən özünün qəzet çap etmək ixtiyarını 200 min manata satmaz, amma bizim bir "Əkinçi" qəzetimiz var və əgər onu çap etmək ixtiyarını satmağa dursaq, nə ki ona bir qəpik verən olmaz, hətta onu cəbrən də boynuna götürən tapılmaz. Buna səbəb odur ki, ingilis əhli dünya işində mahir və hər elmdən xəbərdar olduğuna səy edir ki, pul qazanıb, nə ki, bu dünyada çox ləzzət ilə zindəganlıq etsin, hətta axirəti gözləyib, məktəbxana və kilsə tikdirib, qeyriləri xristian etməkdən ötrü icmalar bina edir və bu səbəbə onlar kamallı və xeyirli sözün qədrini bilir ki, onlardan ol qədər qəzet oxuyan var".

"Əkinçi"nin 1876-cı il 1 yanvar tarixli nömrəsində"The Times" qəzeti ilə bağlı verilmiş xəbərə xüsusi diqqət yetirmək lazımdır: "Altı ay yoxdur ki, bizim "Əkinçi"qəzeti çap olunur, amma ingilisin paytaxtı London şəhərində onun çap olunmağı məlumdur. **Oradan bir kitabın bir fəslinin türk dilində olan tərcüməsini bizə göndəriblər ki, onun qələtini düzəldək, əl həqq bu çox ziyadə gözüaçıqlıq istər. London şəhərində bir neçə yüz qəzet çap olunur. Onunla belə kişilər dünyanın ucunda bizim qəzet kimi kiçik qəzet çap olunmağını eşidib istəyirlər ondan da nəfbərdar olsunlar, amma bizim adamın çoxu nə ki, buçağadək bizim qəzeti oxumayıblar, bəlkə bəzi kəslər onun bina olunmasının xəbərini də eşitməyiblər"** (*fərqləndirmə bizimdir-H.V.).*



Qəzetin səhifələrində bu cür xəbərlər çoxdur. Lakin bizi maraqlandıran başqa bir məsələdir. H.B.Zərdabi "Əkinçi" qəzetinin Londonda da tanındığından iftixar hissi duyur və ona redaktə etmək üçün türk dilində yazı göndərildiyini nəzərə çatdırır. Məhz bu xəbər bir sıra məqamlara aydınlıq gətirməyi tələb edir.

"Əkinçi" Azərbaycan jurnalistikası tarixində, cəsarətlə demək olar ki, ən çox tədqiq edilmiş mətbuat orqanıdır. Qəzetin həyat və fəaliyyəti həm çar hakimiyyəti dövründə, həm Sovetlər birliyi dönəmində, həm də müstəqillik illərində geniş öyrənilmişdir. Qəzetin materiallarının tam mətninin 1979-cu ildə kiril əlifbası, XXI əsrin əvvəllərində isə latın əlifbası ilə çap edilməsi tədqiqat işinin daha səmərəli aparılmasına, mənbələrdən daha dəqiq istifadə edilməsinə şərait yaratmışdır. Bununla belə, bizə elə gəlir ki, bəzi məsələlərə, xüsusilə beynəlxalq həyat, o cümlədən beynəlxalq jurnalistika ilə bağlı materiallara diqqət yetirmək, bir sıra suallara cavab vermək tələb olunur. Ortalığa çoxlu suallar çıxır: "Londondan "Əkinçi"yə göndərilmiş türk dilində material hansı kitabın fəsli olmuşdur?" "Nəyə görə tərcüməni İstanbula deyil, məhz Bakıya, "Əkinçi"nin redaksiyasına göndərmişdilər?" Şübhəsiz, bu suallara cavab vermək lazımdır. "Əkinçi"nin arxivinə yenidən baxmaq, həmin materialın məzmunu ilə tanış olmaq, haradan göndərildiyini müəyyənləşdirmək lazımdır. Bizə elə gəlir ki, materialın "Əkinçi"nin redaksiyasına göndərilməsi səbəbsiz deyildi.

XIX əsrin 60-cı illərinin axırları və 70-ci illərinin əvvəllərində Londonda türk mühacir mətbuatı, əvvəlcə "Müxbir", sonra "Hürriyət",daha sonra isə "İnqilab" və "Ulus" qəzetləri çıxırdı. Bu mətbuat orqanlarında dövrünün məşhur türk jurnalistləri Namiq Kamal, Əli Suavi, Ziya Paşa və başqaları çalışırdılar. Çox ehtimal ki, bu qəzetlərin "The Times" qəzeti ilə əlaqələri vardı. Eyni zamanda "Yeni osmanlılar" mühacir mətbuatının nüsxələrini Türkiyəyə gizli yolla göndərirdilər. Ehtimal etmək

olar ki, "Əkinçi"yə göndərilən türkcə tərcümə "Yeni osmanlılar"ın ruhuna uyğun olmuşdur, onların fikrincə, elə bir materialı Türkiyəyə göndərmək həmin yazının məhvi demək olardı və buna görə də Bakını etibarlı şəhər kimi görüb oraya göndərilməsini məsləhət bilmişdilər. Bəlkədə "The Times"da H.B.Zərdabini tanıyırdılar və Türkiyədə konstitusiya qəbul olunmasını və parlamentli monarxiya yaradılmasını istəyən "Yeni osmanlılar" "Əkinçi"nin redaktorunu özləri üçün ən etibarlı şəxs hesab edirdilər.

Həsən bəy Zərdabinin "The Times" qəzetinə hüsn-rəğbət bəsləməsi səbəbsiz deyildi. Başlıca səbəb o idi ki, həmin qəzet dövrünün ən məlumatlı mətbuat orqanı sayılırdı və bəzən bir sıra məsələlər barəsində hökumətdən daha çox məlumatlı olması ilə seçilirdi. Məsələn, qəzet Vaterloo yaxınlığında Napoleon qoşunlarının məğlub olması haqqında xəbəri ilk dəfə yaymışdı. Halbuki hökumətdə belə bir məlumat yox idi. Bundan əlavə, "The Times"ın yaydığı xəbərlərin dəqiqliyinə heç kəsin şübhəsi olmurdu. "Əkinçi" öz oxucularını Rusiya-Türkiyə münasibətləri, Balkanlarda vəziyyət və Osmanlı imperiyası ilə bağlı bir sıra məsələlər barəsində "The Times"ın verdiyi məlumatlarla tanış etməklə əhalidə daha doğru rəy formalaşdırmaq istəyirdi, çünki dövrünün digər mətbuat orqanları, o cümlədən rus qəzetləri beynəlxalq məsələlər barəsində qərəzli yazılar verirdilər. Senzuranın tüğyan etdiyi bir zamanda həmin yazılardan başqa cür istifadə etmək mümkün deyildi. Mümkün olan yalnız "The Times" qəzetinin xəbərlərinə istinad etmək idi.

Yuxarıda dediyimiz kimi, "Əkinçi" "The Times"dan bəhrələnirdi. Bunun isə əsas səbəbi barəsində fikirlərimiz burada öz əksini tapmışdır. Yalnız onu əlavə etmək lazımdır ki, Böyük Britaniya mətbuatı XIX əsrdə çox böyük nüfuza malik idi, millətin həyatına güclü təsir göstərə bilirdi. Bütün Avropa onun səsinə qulaq asırdı. İngiltərə qəzetlərinin, xüsusilə də "The Times"ın böyük nüfuz sahibi olmasının başlıca səbəblərindən biri ölkədə mətbuat azadlığının mövcudluğu idi. Hələ 1689-cu ildə qəbul olunmuş "Hüquqlar Billi"ndə hər bir ingilisə öz fikrini şifahi və yazılı şəkildə ifadə etmək hüququ verilmişdi. 1694-cü ildə isə senzura ləğv edilmişdi. Bütün bunlar İngiltərə mətbuatının verilən hüquqlardan gen-bol istifadə etməsi ilə nəticələnirdi. XIX əsr İngiltərə mətbuatını okeana bənzətsək, "Tayms" bu okeanın mayakı olardı. Maraqlıdır ki, "Əkinçi" bu mayakı görür, onun işığından bəhrələnməyə çalışırdı. "Əkinçi" fəaliyyətdə olduğu dövrdə "The Times"ın baş redaktoru vəzifəsində Con Dileyn çalışırdı. O da H.B.Zərdabi kimi mətbəədə gecələyir, qəzet çap olunmamış iş yerini tərk etmirdi.1841-1879-cu illərdə, yəni 38 il bu mətbuat orqanına rəhbərlik etmiş bu şəxsin dünyanın bir çox qəzet redaktorları ilə bilavasitə tanış olduğunu söyləmək mümkündür. Belə redaktorlardan biri də yəqin ki, H.B. Zərdabi idi. Beləliklə, ilk mətbuat orqanımızla bağlı araş-

dırmalarımızı davam etdirməli, arxivlərə (lazım gəlsə,"The Times"in arxivinə də)yenidən baş vurmalı, "Əkinçi''-"The Times'' əlaqələrinə aydınlıq gətirməklə XİX əsrin 70-ci illərində Azərbaycan-Böyük Britaniya münasibətləri tarixinin öyrənilməsində yeni səhifə açmalıyıq.

JUSTICE FOR KHOJALY

www.justiceforkhojaly.org

Tragedy has No Borders:
the Khojaly Massacre Remembered

Khojaly on February 25-26, 1992, the lives of innocent men, women and children were cut short; lost to the senseless brutality of criminal war.

When I write my pieces for the Jewish Journal, I always think first, how would my new friends and my adopted Jewish family in the United States feel when reading this. My first thoughts always focus on a desire to share our joint faith, our joint passion for Jewish life and the power of individualism, freedom and safety for the Jews around the world.

Every February, like so many of my Azerbaijani countrymen and women, I am haunted by the events of 1992 when our world was turned upside down as the foreign- backed Armenian army and special forces brutally massacred 613 Azerbaijani civilians including up to 300 women, children and elderly in the town of Khojaly located in Azerbaijan's Karabakh region. But as a Jew there is a special lens I bring to this experience. The Jewish people have centuries of persecution, decades of human tragedy in different parts of the world. This unique perspective also provides a way to look at the possibility for hope that people can change and hope that such events will never happen again.

The Khojaly Massacre of 1992 is for me and my country, extremely personal. It is hard to meet a person

who was living in those years, not very long ago at all, that does not know a survivor, or a victim, or one of the nearly 1 million refugees expelled from their homes and lands as a result of the military invasion of Azerbaijan's territory by Armenia.

When 20% of our country was brutally seized by invading Armenian forces, the world was flipped upside down. Reason had no place in this tragedy.

As a country, we were not unfamiliar to conflict; no, we had survived close to a century under the tyranny of the Soviet Union. But this particular level of brutality was, in 1992, practically unthinkable. What happened in Khojaly was as a snapshot of madness taken out of photobook associated with the Holocaust. No life was precious on February 25 and 26 of 1992, when the most vulnerable civilians; women, grandmothers, infants, or anyone within the range of an invading soldiers' bullet or blade, was murdered. The entire town was wiped out, and even their cemeteries were destroyed. There is an eerie similarity to the events in Germany of the late 1930's when Jews were whisked away in the middle of the night or during WWII when entire villages were wiped out without any care for human life.

This year is the 24th anniversary of those tragic days, of the Khojaly Massacre, which took place in a time when most of us were already very sure that attempted genocide would be impossible again, or at least anywhere in Europe.

In our Azerbaijani Jewish communities, we remember Khojaly with sorrowful awe.

So many of Jews are personally touched by the Holocaust, and by the promise we hold to our hearts that it can never, never again happen.

Yet today many Jewish communities across the world are confronted by the increasing hatred that comes to them from so many corners. In Azerbaijan, Jews are safe, well regarded and protected. Our nation has been injured over many centuries by the hatred of brutally violent invasions, and yet, no matter the strife coming from outside, be it Bolshevik or Armenian or terrorist brutality, the values of our togetherness have survived those inhumanities.

This week, so many will come together to mourn the victims of our brothers and sisters of the town of Khojaly, to honor their lives and to cry out for the sake of those who cannot speak for themselves. Even in the painful remembering of tragedy, we push forward with the light of what is possible for peace.

Khojaly was a tragedy felt from corner to corner; shared by an entire nation, and by people of every faith. What is most incredibly deep in the history of Khojaly is this message of connection to me as a Jew and also as a member of the world community. Even the darkness of the Khojaly Massacre can be softened, by the potential for light that exists within the act of remembering, and sharing in that memory as an act of peace itself.

So during these difficult days, I not only mourn, but I am thinking of my brothers and sisters in the United States that have relatives that struggle with their pasts. We can honor the memory of the victims, survivors and heroes of Khojaly, and with them together, remember the memory of those from every unjust and criminal war.

Ermənilərin "səssiz monastırları"nda hazırlanan fitnələr

Ermənilərin etdikləri əməllər, törətdikləri qətliamlar barəsində illərdir ki, istər Türkiyə, istərsə də Azərbaycan alimləri ortalığa minlərlə sənəd, sübutlar qoyublar. Təəssüf ki, dünyada haqq-ədalətdən dəm vuranlar bu faktları hələ də görmək istəmirlər...

Bu baxımdan Sədi Koçaşın **"Tarixdə ermənilər və Türk-erməni münasibətləri"** kitabında olan faktlar olduqca maraq doğurur. Bu mənbədə ermənilərin törətdikləri əməllər haqqında bir sıra xarici ölkə təmsilçilərinin yazıları və münasibətləri var. Özü də o mənbələr ki, onların təmsil etdikləri dövlətlər hər zaman ermənilər müdafiə ediblər.

Bunlardan biri **"Nyu-York Herald"** qəzetinin müxbiri Sidney Uitmenin **"Türkish Memories, 1914"** adlı əsəridir. Həmin əsərin bir hissəndə deyilir:

"Trabzonda bir yəhudi mənə demişdi:

- Əgər bu hərəkətlərin birisi Rusiyada olsaydı, bir tək erməni sağ buraxılmazdı. Rusiyada ermənilər əsgərliyə götürülürlər, məmləkətlərindən çox uzaqlarda əsgəri qulluqda olurlar. Məktubları senzuradan keçirilir. Türkiyədə isə xoşbəxt həyat sürürlər. Dövlətlənirlər. Əsgərliyə getmirlər. Məktəbləri sərbəstdir. Milli tarixlərini öyrənirlər. Düşmənçilik təlqin edirlər.

Xülasə, Avropanın yarısı qədər ərazidə yayılmış bir milyonluq erməni xalqının bir millət halında toplanmasına imkan varmı?

Türkiyədəki xarici konsulluqların ətrafındakılar ermənilərdir. Onlar nə desələr, konsullar öz elçiliklərinə onu da yazırlar. Bu konsulluqlar Rusiyada, Almaniyada olsaydılar, elçilərinə belə şeylər yazardılarmı? Burada yaza bilmələrinin səbəbi xristian konsulluqlarının olduqları üçündür. Erməni komitəçiləri sakit fermer, sənətkar və hambalları qızışdırırlar. Türklərin xristianlığa aqressiv münasibət göstərmələrindən bəhs edirlər. Halbuki Trabzondan Ərzruma qədər yollar, qəsəbələr monastrlarla, xristian məbədlərlə doludur. Erməni məktəbləri, kilsələri Rusiyadakından qat-qat artıq sərbəstdirlər".

Osmanlıda ermənilərin ayaqlanması və yaşadığı dövlətə qarşı xəyanətkar yol tutmalarının başlıca səbəbi xarici qüvvələrin əllərində oyuncağa çevrilən ermənilər və onların cəmiyyətləri olmuşdu. Həmin cəmiyyətlər xaricdən yönəldilən təbliğat və yardımların hesabına Türkiyə ermənilərini dövlətə qarşı qaldıran komitələrin əsasını qoydular. Elə bu komitələrin fitnəsi ilə də yaşadıqları dövlətin içini oymağa başladılar. Hətta bir az da irəli gedib üsyanlara başladılar. Bu üsyanları da onların din xadimləri idarə edirmiş. **Rus generalı Mayevski** bu barədə yazır:

"Erməni ruhani başçılarının din xüsusunda fəaliyyətləri, səyləri yox kimidir. Bunun müqabilində milli fikirlərin inkişafı xüsusunda həddən çox əmək sərf etmişlər. Yüz illərdən bəri belə fikirlər əsrarlı monastrların səssiz divarları içində artmış və inkişaf etmiş, buralarda dini ayinlər əvəzinə xristian-müsəlman düşmənçiliyi təlqin etmişlər. Bu müddətdə dini təəssüb əvəzinə düşmənçilik hissləri tərbiyə edilmişdir".

Hətta bütün bu cəhətlər ermənilərin özlərinin yazdıqları əsərlərdə də etiraf edilir. Mikael Ovanesyan1906-cı ildə Tiflisdə erməni dilində çap olunmuş **"Daşnaksutyun və**

müxalifləri" adlı əsərində yazır:

"Ruslar kimi müdhiş bir canavara qarşı çıxmaq çətindir. Türkiyə fəaliyyət üçün daha əlverişlidir".

S.Qabirelyan isə 1905-ci ildə Bostonda çap etdirdiyi "Erməni böhranı və yenidən doğulma" adlı əsərində "Xatırlanmalıdır ki, erməni məsələsinin yaranmasından bəri vilayətlərdə və mərkəzdə keçirilən nümayişlər daim Qafqaz ermənilər tərəfindən keçirilmişdir. İnqilab vədləri və dərsləri üçün Rusiya ermənilərinə borcluyuq. Rusiya Osmanlıya qalib gəldiyindən, Rusiya ermənilər Osmanlını saya salmır, onlarla hesablaşmırlar. Halbuki Türkiyə ermənilər Osmanlı hökumətinin qüdrətinə bələd idilər. Lakin qafqazlı ermənilər, yuxarıda qeyd etdiyimiz psixoloji vasitələrdən istifadə edərək inqilabı fəal məcraya yönəltdilər" – deyə qeyd edir.

Trabzondakı ingilis konsulu 1895-ci ildə İstanbuldakı səfirləri **Flipp Kurye**yə göndərdiyi raportunda isə ermənilərin xarici əlaqələrindən bəhs edir:

"Hnçak liderləri Türkiyənin xaricindən idarə edilirdilər. Belə ki, özləri tamamilə təhlükəsiz şəraitdə olduqları halda, Türkiyədəki ideya yoldaşlarının həyatını təsəvvüredilməz hala çatdırmışdılar.

Məqsədləri müsəlmanları xristianlara qarşı təhrik etmək, qırğınlar törətməklə məmləkəti dəhşətli vəziyyətə çatdırmaq idi. Bütün dünya bilməlidir ki, bu təşkilat anarxiya xarakterlidir. Hər bir vasitə ilə hərc-mərclik yaratmaq və Ermənistanın yalnız islahatını deyil, istiqlalını da təmin etməyə çalışmaqdadırlar".

İstanbulda **Robert kollecinin (Amerika kolleci)** müdiri doktor Qurus Hamlın 1893-cü ildə Bostonda nəşr olunan **"Konqresçilər"** jurnalına göndərdiyi məktubda vəziyyətlə əlaqədar aşağıdakıları yazır:

"Bir erməni inqilab partiyası Türkiyə imperatorluğunun bəzi yerlərində bütün xristian missionerlərinin fəaliyyətinə böyük pisliklər etməkdə və iztirablara səbəb olmaqdadır...

Çox mədəni və ingilis dilində erməni dili qədər sürətlə və düzgün danışan bir erməni, rusların Anadoluya girərək oranı işğal etmələri üçün imkanlar hazırladıqlarını dedi. Bunun necə olacağını soruşduğum zaman, bütün Türkiyə imperatorluğunda təşkil edilmiş dəstələrin (silahlı quldur dəstələri) türkləri və kürdləri öldürmək üçün fürsət gözlədiklərini bildirdi. Bunlar kəndləri yandıracaq, sonra dağlara çıxacaqlar. O zaman müsəlmanlar qalxaraq müdafiəsiz ermənilərə hücum edəcəklər. Rusiya, insanlıq və xristian mədəniyyətini müdafiə etmək üçün Türkiyəyə girəcək və Anadolunu işğal edəcək... Bu hərəkətin erməni adını dünyaya nifrətlə xatırladacağını ona anlatmağa çalışdım. Cavab olaraq "bunu mütləq edəcəyik" dedi".



Hələ də erməni köçkünlüyündən və qırğınından bəhs edən bu insanlıq düşmənlərinin dünyanı aldatmaq üçün bu fədakarlıqlarının səbəbi nədir? Görəsən bu gün də tarixin ibrət dolu səhifələrindən dərs almayan və bu insanlığın üzqarası olan ermənileri dəstəkləyən dövlətlər niyə haqsız əməllərindən əl çəkmirlər?! Onlar etiraf etmək istəməsələr də, fakt faktlığında qalır. Belə faktlardan birini də **ingilis konsulu Uilyams**ın ermənilərin iç üzünü açan yazısıdır. Uliyams yazır:

"Bütün bu hallara sərsəm ermənilər səbəb oldular. Bu ağılsız təhrikdən özlərinə bir fayda olmayacağını dəfələrlə izah etdim.

Müsəlmanların səbrlərini son həddə qədər təhrik etdilər. Amma artıq ümidləri qalmadı. Qəzetlərdə erməni məsələsinə aid yazılanlar yalandır. Üsyan edən erməni başçıları arasında Amerika, Rusiya, Bolqarıstan təbəələri var. Cəmi 600 nəfərə qədərdirlər. Rus tüfəngləri ilə təchiz edilmişlər. Tamamilə günahsız öldürülən türklərə aid əlimdə sənədlər var. Türklər yalnız Anadoludakı müsəlmanların deyil, digər millətlərin də ən yaxşılarıdırlar. Rus və Avropa qəzetlərinin iftiralarına layiq deyildirlər..."

İngilis konsulunun tək b**u yazısı "er**məni soyqırımı" yalanını altüst edir. Yetər ki, ermənilərə yal verən bu dövlətlər ədalətli olsunlar. Amma heç inanılası deyil...

Hər zaman rusların qapazaltısı olan bu riyakar ermənilər, Osmanlıda rahat və firavan yaşayıblar. Qəribə burasıdır ki, fürsət düşən kimi onlara yaşam üçün şərait yaradan dövləti içəridən alovlandırmağa başlayıblar. Özü də onları saya salmayan rusların təhriki ilə. Fikrimizin təsdiqi üçün Daşnaksütyun komitəsinin nəşr etdirdiyi bəyənnaməyə diqqət edək:

"İllərdən bəri arası kəsilməyən erməni inqilablarına səhnə olan Qafqaz bu

gün zülmkar despotun müdhiş qüvvəsi altında inildəməkdədir. Ermənilərin ən gözəl, seçilmiş nəsli iki ildir rus çarının həbsxanalarında əzab çəkib çürüyür... Müəllim, şair, tacir, sənətkar, məmur və işçi, komitəçi, adi vətəndaş hamısı həbsxanaların divarları arasında inildəyirlər".

Daşnaksutyundan daha bir nəfər Rusiyadakı ermənilərin ağır vəziyyətdə olduğu barəsində öz əsərində yazır:

"Osmanlı dövlətinin həbsxanalarında siyasi məhbus yoxdur. Rusiyada isə elə bir həbsxana yoxdur ki, boş olsun. Qafqaz erməni daşnakları həbsdən, işgəncədən, Sibirdən qurtulmaq üçün İstanbula, Osmanlı ölkəsinə pənah gətirirlər".

Amerikalı mis**sioner** Qrilman **tərəfin**dən "Nyu-York Tayms" qəzetində 23 oktyabr 1909-cu ildə **dərc edi**lmiş və erməni qəzeti "Qoşnak"da təkrar çap olunan yazısında isə deyilir:

"Adana və Mersində sərsəri hisslərlə hərəkət edən bir sıra ermənin qədim xalq şərqiləri oxuyaraq gəzdikləri doğrudur. Təcrübəsiz və gənc yepiskop Muşeğin Adana düzənliyində kəndlərdə gəzərək ermənilərə az yemək yemələrini, geyim və əşyalarını satıb silah almalarını tövsiyə etdiyini, başına tac qoyaraq şəkil çəkdirdiyini və hər silah üçün müəyyən məbləğ pul alaraq Adana sahillərinə silah çıxartdığı da həqiqətdir. 200 silahlı ermənin müsəlmanları öldürməyə and içdikləri də doğrudur".

Amerikadan gələn erməni könüllüsünün 1914-cü ilin 20 noyabrında atasına yazdığı məktub olduqca maraqlıdır. Tək bu məktub ye**tərlidir ki, 1**00 ildir bəzi dövlətlərin bağırdığı "erməni soyqırımı" iddiaları tarixin zibilliklərinə atılsın. Görün beyni zəhərlənmiş gənc erməni atasına nə yazır:

"Sevimli atam! Bu son məktubumdur. Belə ki, mən də artıq erməni milləti qarşısında vəzifəmi yerinə yetirmək və türkün başını əzmək üçün erməni könüllülərinə yardıma gedirəm. Türk və almandan intiqam almaq üçün Rusiya, İngiltərə və Fransa qəti qərar vermişlər. Ermənilər xoşbəxt və müstəqil olacaqlar. Əmin olun, xilasımız çox yaxındır". Oğlunuz Petros Arutyunyan".

Bu da bütün dünya qarşısında özlərini "ziyalı", "mədəni", "yazıq", türklər tərəfindən qırılıb əzilmiş kimi göstərən ermənilər və onların əməllərinin nəticəsi. Burada qeyd olunanlar onların törətdiklərinin hələ çox az bir hissəsidir. Ancaq elə bunlar da ermənilərin nə qədər qəddar, hiyləgər və digər dövlətlərin qulu olduğunu açıqca ortaya qoyur. Amma nə olsun... Ədalət ki, yerini almayıb!!!

Rusiya arxivlərində erməni vəhşilikləri

Yuxarıda daşnakların törətdikləri qətliamlar haqqında xarici ölkə təmsilçilərinin mövqe və fikirlərinə yer verdik. Xaricilər öz yazılarında gözləri ilə gördüklərini qələmə alıb mənsub olduğu ölkələrin qəzetlərində bu barədə yazıblar. Ancaq aradan bir əsrə yaxın vaxt keçməsinə baxmayaraq başda erməni yanlıları olmaqla, ermənilərin özləri də həmin tarixi faktları qəbul etmək istəmirlər. Niyə?! Çünki həmin beynəlxalq güclər ermənіləri hər zaman öz məqsədləri üçün istifadə ediblər, bu gün də həmin "istifadə etmə" texnologiyası dəyirman daşı kimi fırlanmaqdadır...

Ancaq nə edəsən ki, tarix heç nəyin üstünü örtmür. Aradan müəyyən müddət keçsə də, həmin faktlar gün üzünə çıxır və kimin nə əməl sahibi olduğu da ortaya tökülür. Bir sözlə, arxivlərdə daşnakların istər Osmanlı, istərsə də Azərbaycan türklərinə qarşı həyata keçirdikləri qətliamlarla bağlı faktlar kifayət qədərdir.

Elə ermənilərin üzdə olan rəhbərləri tərəfindən daşnakların XX əsrin əvvəllərində etdiyi vəhşiliklərə haqq qazandıran bir sıra çıxışlar və yazıları da əlahəz**rət fakt**larla təsbit olunur. Belə sənədlər içərisində türkiyəli araşdırmaçı Mehmet Perincəyin Rusiya dövlət arxivlərindən üzə çıxardığı materiallar xüsusi maraq doğurur. Biz də oxuyub, incələdiyimiz həmin arxiv materiallarına ayrı-ayrılıqda heç bir şərh vermədən, faktları müəllif düşüncələri içərisində əritmədən, necə varsa eləcə - olduğu kimi oxucuların ixtiyarına buraxırıq.

Beləliklə, faktlar olduğu kimi...

Daşnaksütyunun orqanı olan "Orizon" qəzetində 1912-ci ildə nəşr edilən məqalədə deyilir: "Türk dövlətinin səlahiyyətliləri və iqtidar sahibləri bilsinlər ki, nə bir türk, nə də bir Türk dövləti bundan sonra erməni üçün heç bir dəyər daşımır. Varlıqlarını qorumaq üçün başqa yollar düşünsünlər..."

("Orizon" N-196, 1912-ci il. Yazan K.N.Karamyan, Polojenie Zapadnıy Armyan, "Armyanskiy Vopros"i Mejdunarodnaya Diplomatiya v Poslednıy Çetverti XIX veka i naçala XX veka, s. 81, Yerevanski qosudardtennıy universitet, Erivan, 1972.)

* * *

1915-ci ilin fevralında Tiflisdəki bütün Ermənistan milli konqresində

Daşnaksütyun hərbi qanadının təmsilçisinin çıxışından: "Məlum olduğu kimi, rus hökuməti müharibənin başlanğıcında Türkiyə ermənilərini silahlandırmaq və müharibə vaxtı ölkə daxilində qiyam qaldırmaq üçün hazır hala gətirmək məqsədilə hazırlıq xərci olaraq 242.900 rubl verdi. Könüllü birliyimiz Türk ordusunun müdafiə xəttini keçib qiyamçılarla birləşərək ön və arxa cəbhələrdə anarxiya yaradaraq rus ordularının keçməsini təmin edəcək."

(B.A.Boryan, Armeniya, Mejdunarodnaya Diplomatiya i SSSR, c.1, s.360, Qosudarstvennoe İzdatelstvo, Moskva-Leninqrad, 1929.)

* * *

A.A. Lalayanın "Daşnaksütyun Partiyasının İnqilabda rolu" məqaləsindən:

"Daşnaksütyunun diktatorluğu dönəmində (1918-1920) qeyri-erməni əhalisinə qarşı qanunsuzluqlar baş verirdi. Daşnaksütyunun "fikri" erməni torpaqlarında yaşayan azərbaycanlıları və kürdləri məhv edərək ölkəni "ermənileşdirməkdi". İki il yarımlıq hökmranlıqları dövründə daşnaksütyun Ermənistanda yaşayan azərbaycanlıları öldürüb yağmalayaraq, kənd və qəsəbələrə od vurub yandırdılar. 1918-1919-cu illərdə daşnak hökuməti "dövlətin tələblərini yerinə yetirmədilər" bəhanəsi ilə azərbaycanlı və kürd kəndlərinin insanlarını bombaladı (həmçinin erməni kəndlərini də bombaladı). 1920-ci ildə isə ermənilər fəhlə və kəndlilərinin may qiyamının yatırdılmasından sonra daşnaksütyun "müsəlmanlar bizim düşmənimizdir" şüarı altında azərbaycanlı və kürd kəndlərini bombalayaraq sadə insanları məhv etdi."

(A.A.Lalayan, "Kontrrevolyutsionnaya rol partii daşnaksutyun", istoriçeskie Zapiski, N. 2, s. 101, 1928.)

* * *

T.Haçikoğlyanın Sovet Ermənistanı Qızıl Ordu atıcı diviziyasının 10-cu il dönümü münasibətli ilə Qızıl Ordu tərəfindən nəşr edilən kitabçasından:

"Şərəfsiz daşnak "cümhuriyyəti"nin qısa dövründə Azərbaycan, Gürcüstan və Türkiyə ilə aparılan döyüşlərdə daşnakların qanlı əlləri ilə minlərlə türkü məhv etdikləri, kəndlərini yandırıb külə çevirdikləri Zəngəzur, Şərur, Dərələyəz, Meğri, Ağbaba, Zəngibasar, Böyük Vedidəki türk kəndlərində yaşanan vəhşiliklər, qətliamlar, soyğunçuluqlar

hələ də yaddaşlardan silinməyib. Əsgərlərdə yaltaqlıq, keyfiyyətsizlik, çalıb-çapmaq, başqasının hesabına yaşama, günahsız və çarəsiz insanları öldürmə psixologiyası kök atmışdı."

(T.Haçikoğlyan, 10 let Armyanskoy Streklovoy Divizii, s. 4-6, iz datelstvo Polit Uprav. KKA, Tiflis, 1930)

* * *

Daşnak zabitinin 1920-ci ildə Bəyazit bölgəsindən yazdığı hesabatda isə deyilir:

"Basar-Keçərdəki Türk əhalisini bir-birindən ayırmadan məhv etdim. Bəzən güllələr heyf olmasın deyə bu köpəklərin döyüşdən sonra sağ qalanlarını bir yerə yığıb quyuların içinə dolduraraq ağır qayalarla əzmək lazım gəlir. Mən də elə etdim. Bütün kişiləri, qadınları, uşaqları toplayıb quyulara doldurdum və sonra da qaya parçaları ilə əzərək həyatlarına son verdim."

(A.A.Lalayan, "Kontrrevolyutsionnaya Rol Partii Daşnaksutyun", İstoriçeskie Zapiski, No. 2, s. 101, 1928; A.A.Lalayan, "Kontrrevolyutsionnıy "Daşnaktsutyun" İmperialistiçeskaya Voyna 1914-1918 qq.", Revolyutsionnıy Vostok, No.2-3, s. 92 vd, 1936.)

* * *

...Daşnak komandiri qərargahlarına göndərdiyi 14 noyabr 1920-ci il tarixli raportunda (Daşnak hökumətinin ordu komandiri tərəfindən fərarilik edən əsgərləri axtarmağa Eçmiədzin qəzasından Gümrü kəndlərinə getmək üçün bir zabit göndərirlər. Bu raport da daşnak komandiri tərəfindən zabitin ifadələrinə əsasən hazırlanıb) deyilir:

"Gümrü bölgəsinin ermənileri daşnak zabitini düşmən kimi qarşılamış və hətta bir neçə dəfə onu türklərə təslim etməyə çalışıblar. Bir çox kənddə xalq etiraz edir və əsgərlərə düşmən gözü ilə baxırlar. Bəzi kəndlərdə qırmızı bayraqlar asılıb. Zabit M., kənddə Selçan ermənilərindən ibarət atlılarla gedərkən Türk süvari dəstəsi ilə qarşılaşıb. Burada türklər duz-çörəklə qarşılanırlar. Kənddə qadınlar yemək bişirmək üçün qazanlar asmışdılar. Zabit onlardan yeməyi kimlər üçün hazırladığını soruşduqda ona belə cavab veriblər: "Təbii ki, türklər üçün, sizin üçün deyil."

(Ermənistan SSRİ Mərkəzi Dövlət Arxivi, fond 68/200, dosya 867, səhifə 278. Tərcümə edən A.M.Elçibekyan, Velikaya Oktyabrskaya Sotsialistiçeskaya Revolyutsiya i pobeda Sovetskoy Vlasti v Armenii, s. 209, İzdatelstvo An Armyanskoy SSR, Erivan, 1957.)

Rəşad Sahil

Birinci dünya müharibəsində Cənubi Qafqazda Gizli Müsəlman Komitələri

Tükriyəyə dəstək

Apardığımız araşdırmalar, arxivlərdə saxlanılan saysız-hesabsız sənədlər göstərir ki, Rusiyanın Qafqazda hökmranlığı dövründə daima özünün polis və məxfi orqanları vasitəsilə bölgədə türkçülük və islamçılıq üzərində ciddi nəzarət qoymuş, Osmanlı imperatorluğundan Azərbaycana gələn şəxslər ciddi nəzarətə alınmış, daima izlənmişdir. Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda siyasi ideologiyasının əsasını ruslaşdırma, rus xalqı ilə qovuşma xətti təşkil edirdi. Əslində bu, müsəlmanları türkçülüyün və islamın mərkəzi olan Osmanlı imperatorluğu ilə yaxınlaşmağa qoymamaq, onları idarəçilik orqanlarından uzaqlaşdırmaq inamsızlıq faktı idi.

Birinci dünya müharibəsinə Türkiyənin qoşulmasından sonra, Cənubi Qafqazın mərkəzi şəhərlərində, müharibədə Türkiyəyə dəstək verilməsi məqsədilə gizli müsəlman komitələri yaranmağa başladı. Qısa zaman ərzində bu komitələr geniş dairədə fəaliyyət göstərirdilər. Gizli müsəlman komitələrinin fəaliyyəti ilə bağlı çar hökuməti və Qafqaz canışinliyi müvafiq orqanlardan daim məxfi məlumatlar dolu sənədlər alırdı. Rusiya hökumətinin Ərdəbildə yerləşən vitse-konsulunun Astara agentliyinin 01 may 1915-ci il tarixli 176 saylı məlumatında yazılır: "...bu ilin 5-10 aprel tarixləri arası öyrəndim ki, Bakıda türk-alman siyasətinə xidmət edən gizli komitə mövcuddur". Agentliyin verdiyi məlumatlarda bildirilir ki, komitə Persiya (İran) inqilabı üçün çalışan müxtəlif adamlardan təşkil olunmuşdur. Burada əsas məqsəd olaraq rus əsgərləinin Təbrizdə qəddarlığı haqqında yalan məlumatların çatdırılması qeyd olunur. Rusiya hökumətinin Ərdəbildə yerləşən konsulluğundan verilən məxfi məlumatda bildirilirdi ki, Bakıda fəaliyyət göstərən gizli müsəlman komitələri digər yaşayış yerlərində də müsəlman əhalisinin savadlı təbəqəsinə, üzərində "ay-ulduz" olan alman tüfəngləri verirdi. Bu alqı-satqı ilə həyata keçirilirdi. Belə ki, həmin müsəlmanlar komitəyə yardım olaraq 100 rubl ödəyirdilər, əvəzində isə patronla birlikdə

tüfəng alırdılar. Agentliyin gizli məlumatında yazılır: "Komitə (Bakıda fəaliyyət göstərən güzli müsəlman komitəsi-N.M.) belə bir inam yayır ki, tezliklə türklər müharibədə qələbə qazanacaqlar və Qafqazın yerli əhalisi Türkiyəyə birləşəcək. Onlar Rusiya əleyhinə üsyan hazırlayırlar."

Bakıda və eləcə də digər yaşayış yerlərində fəaliyyət göstərən gizli müsəlman komitələri sözün əsl mənasında rus hakimiyyəti üçün ciddi təhlükə mənbəyinə çevrilmişdir. Polis və xüsusi orqanlara yerlərdən silahların yığışdırılmasına dair xüsusi göstəriş verilmiş, Qafqazın bütün bölgələrində bu istiqamətdə qüvvələr səfərbər olunmuşdur.

İrəvan quberniyası Zəngəzur qəza rəisininin 20 yanvar 1915-ci il tarixli 7 saylı "tam məxfi" məktubunda yazılır: "Türkiyə ilə hərbi əməliyyatlar başladığı vaxtda mən pristava müraciət etdim ki, hər zaman Türkiyəyə böyük simpatiya bəsləyən yerli kürdlərdən və sünnü tatarlardan silahların yığılmasına ciddi diqqət yetirsin. Qısa zaman ərzində aparılan əməliyyat nəticəsində Zəngəzur qəzası üzrə məlum olan silah və patronlar yığılmışdır.

Birinci dünya müharibəsində Türkiyəyə dəstək məqsədilə Cəbubi Qafqazın mərkəzi şəhərlərindən olan Bakıda fəaliyyət göstərən gizli müsəlman komitələri hökumət tərəfindən güclü təqib olunurdu. Bakı quberniyası Jandarm idarəsi rəisinin köməkçisinin 12 may 1915-ci il tarixli 299 saylı "məxfi" məktubunda yazılır: "...sizin mənə xüsusi tapşırığınızla bir çox məlumatlar tam yoxlanılmışdır. Həmin məktubda Bakı quberniyasında fəaliyyət göstərən "Fars milli demokratları" gizli dərnəyi və onun üzvləri barədə məlumat verilir. Məktubda yoxlanılan məlumatların aşağıdakılardan ibarət olduğu qeyd olunur:

"Fars milli demokratları" gizli dərnəyi - Bu dərnək Cənubi Qafqaz hüdudlarında türk çıxışlarından sonra Astara-farsda (İran Astarasında – N.M.) yaradılmağa başlamış və ruslar tərəfindən Ərdəbil işğal olunduqdan sonra tam formalaşmışdır. "Fars milli demokratları" gizli dərnəyi fars həkimi Seyid Məhəmməd Xan və fars teleqraf məmuru Fərəməz Xan Bəşəratəs Sultanın rəhbərliyi ilə yaradılmışdır. Dərnəyin tərkibinə daxil idi: Mirzə Tağı Xan - Astara fars gömrüyində xəzinədar; Mirzə Paşa - həmin gömrükdə mühasib (hazırda Maliyyə Müfəttişi Kastorananın sərəncamı ilə Ərdəbilə köçürülmüşdür), Hacı Seyid Mehdi Cəlalov – fars Ərdəbil yollarında nəzarətçi; Şahzadə Hüseyn Mirzə, həmin gömrükdə statist; Seyid Əbdül Həsən – həmin gömrükdə mühasib köməkçisi; Cəlal Xan – Fars poçt kontorunun rəisi; Mirzə Kafir Ələsgər oğlu – "Кретингер и Глаз" firmasının nümayəndəsi, Astara-farsda yaşayır. Bakı quberniyası Jandarm idarəsi rəisinin köməkçisinin məktubunda, "Fars milli demokratları" gizli dərnəyi üzvlərinin müsəlman əhalisi arasında güclü təbliğat apardıqları qeyd olunurdu.

Türkiyəyə dəstək məqsədilə yaradılmış gizli müsəlman komitələri rus hökuməti üçün sözün əsl mənasında qorxulu kabusa çevrilmişdir. Təhlükənin qarşısını almaq məqsədilə hökumət tərəfindən ən ciddi ölçülər götürülür, komitə üzvləri daima təqib olunur və bir çox hallarda isə panislamist adı ilə cinayət məsuliyyətinə cəlb edilir, həbs olunurdular.

Gizli müsəlman komitələri tərəfindən aparılan təbliğat son dərəcə mütəşəkkil forma almışdır. Çarın Qafqazda çanişinin Qafqaz Hərbi Dairə üzrə Xüsusi Bölməsinin Bakı

Nüşabə Məmmədova
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi, Tarix üzrə fəlsəfə doktoru

Qradinaçalnikinə yazdığı 29 aprel 1915-ci il tarixli 1913 saylı "Tam məxfi. Təcili" məktubunda Canişinliyin Xüsusi Bölməsinin agentlikdən aldığı məlumatlar öz əksini tapır. Həmin məlumatda bildirilirdi ki, Bakı və Yelizavetpol şəhərlərində əhali arasında türkçülük təbliğatı gücləndirilməkdədir. Həmçinin qeyd olunur ki, müharibənin başlanğıcında bu təbliğatın heç bir uğurlu əhəmiyyəti olmasa da, hazırda bu böyük bir təhlükəyə çevrilməkdədir. Qafqaz çanişinin Hərbi Dairə üzrə Xüsusi Bölməsinin verdiyi məlumatda bildirilirdi ki, "...ordu Ştablarında Cənubi Qafqazdan

olan türk tərəfdarları Tehran ilə yazışmalar aparır, türk konsullarına bizim ordunun fəaliyyəti barədə məlumatlar verirlər. Bütün bu məlumatlar poçtla adi məktublarla alınır və bu ifadələr tatar (Azərbaycan-N.M.) qəzetlərində nəşr olunur... Ümumiyyətlə, Bakı şəhər sakinləri bizim ordunun Qafqazda vəziyyəti barədə məlumatlar toplayır və Biləcəri dayanacağı vasitəsilə ötürürlər." Qafqazın müsəlman əhalisi, o cümlədən azərbaycanlılar müharibədə Türkiyəyə dəstək verməklə, əslində imperiyanın əsarətindən azad olmaq, öz istiqlaliyyətini əldə etmək mübarizəsini həyata keçirirdi.

Hökumət tərəfindən gizli yazışmaların qarşısını almaq məqsədilə bütün sahələrdə, xüsusilə poçt-teleqraf sahəsində nəzarəti gücləndirildi. Bakıda Hərbi senzuranın Bakı qradonaçalnikinə yazdığı may 1915-ci il "Gizli" məktubunda yazılır: "...1914-cü il avqustun 27-dən Bakı poçt-teleqraf kontoruna daxil olan bütün beynəlxalq məktublaşma Bakı hərbi senzurasının nəzarəti altındadır. Persiyadan (İrandan-N.M.) məktublar daxil olduğu kimi, Persiyaya da fars, tatar və türk dillərində poçt göndərilmələri vardır." Poçt-teleqraf kontoruna daxil olan bütün beynəlxalq məktublaşmalar seçilmiş senzorlar tərəfindən yoxlanılırdı. Həmin senzorlar seçilir, onların dil bilmələri ilə yanaşı, siyasi kimliyi də yoxlanılırdı. Bakı Hərbi Senzurasının "Gizli" məktubunda qeyd olunur ki, daxil olan və göndərilən bütün məktublara iki hərbi senzor tərəfindən baxılır: "...İmamverdibəyov – təcrübəlidir, tam etibarlı məmurdur, fars, tatar və türk dillərini çox gözəl bilir, İ.A.Məlikov – Persiyada uzun illər xidmət edib, fars dilini çox gözəl bilir."

Digər mənbələrdə, Azərbaycanda mövcud ictimai-siyasi durum, Türkiyə ilə yazışmalarla əlaqələndirilirdi. Hökumət tərəfindən bu sahədə senzura olduqca gücləndirilmişdir. Məxfi yazışmalarda Türkiyəyə meylliliyin yeganə səbəbi olaraq qeyd edilir ki, Rusiyaya qarşı təbliğat İrandan alman və türk ağentləri tərəfindən həyata keçirilirdi.

Bakıda azərbaycan dilində nəşr olunan bütün mətbu orqanları Hərbi Senzura tərəfindən yoxlanılırdı. Bu yoxlamalar Senzura tərəfindən seçilmiş azərbaycanlı olmayıb, ancaq Azərbaycan dilini mükəmməl bilən iki ziyalı şəxs tərəfindən baxılırdı.

Dövlət və hökumət orqanları arasında məxfi yazışmalarda Azərbaycanın görkəmli ziyalılarından olan Dadaş Bünyadzadənin adı çəkilir. Bakı Hərbi Senzurasının məktubunda yazılır: ."..O, (Dadaş Bünyadzadə-N.M.) çox gənc, ciddidir. Türkiyə uğurlarına kömək məqsədilə, Rusiya əleyhinə məlumatların yayılmasına dəstək olur. Dadaş Bünyadzadənin redaktoru olduğu və həftədə bir dəfə dərc olunan "Tuti" satirik jurnalı Hərbi Senzuranın nəzarəti altında idi.

Yaranmış vəziyyət Azərbaycan ərazisində gizli siyasi komitələrin apardığı təbliğatla əlaqələndirilirdi. Yelizavetpol qubernatoru dəftərxanasının Qafqaz canişini xüsusi idarəsinə yazdığı 04 may 1915-ci il 1143 saylı "tam məxfi" məktubunda yazılırdı: "...türkçülük təbliğatı burada yaşayan əhali arasında aparılır. Bu həm müharibəyə qədər, həm də indi mövcuddur...Türkiyə mənafeyinə uyğun siyasət tərəfdarları Türkiyənin əzəmətinə inanırlar..." Dövlət məmuru Türkiyəyə nifrət hislərini bu cür ifadə edirdi: "...Türkiyə darmadağın olacaq...Dağıdılmış Türkiyə ərazisində ermənilər müvəffəqiyyət qazanacaqlar." Lakin Türkiyənin məğlubiyyətinə bəslənən ümidlər boşa çıxdı. Çanaqqala zəfəri İttifaq Dövlətlərinin Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı ərzaq və hərbi ticarət yolu açmaq istəyini məhv etdi. Cənubu Qafqazda, o cümlədən Azərbaycanda gizli müsəlman komitələrinin, siyasi təşkilatlarının Rusiya əleyhinə, müharibədə Türkiyəni dəstəkləyən təbliğatı, əslində öz azdlığı, müstəqilliyi uğrunda apardığı mübarizə idi və bu mübarizə Şərqdə ilk demokratik dövlətin - Azərbaycan Demokratik Respublikasının yaranmasına nəticələndi.

Mehmet Akif Ersoy və İslamlıq

Türk-Turan Düşüncə sistemi və islamlıq fəlsəfəsi

Ömrü boyunca müəyyən bir milli-dini və əxlaqi prinsiplərlə yaşayan Türkiyənin tanınmış mütəfəkkirlərindən Mehmet Akif Ersoyun həyatında İslam dinin ayrıca bir yeri olmuşdur. İlk dini bilgiləri nəqşbəndi təriqətinə mənsub olan atası Tahir Əfəndidən alan mütəfəkkir şerilərinin böyük əksəriyyətini dini və əxlaqi məsələlərə həsr etmişdir. Ersoy hesab edirdi ki, iki şey müqəddəsdir: din və dil: «Din bütün ülvi duyğuları, düşüncələri insana təlqin edər. Bu duyğuların, düşüncələrin mümkün olduğu qədər təbliğ vasitəsi olan da dildir». Ümumiyyətlə, onun dünyagörüşündə dinin mahiyyəti dil, əxlaq, vətənsevərlik və elmlə bütövləşirdi.

Ersoyun fikrincə, İslam dini-müsəlmanlıq birləşdirici mahiyyət daşıyır. Onun əksi olaraq milliyyətçilik və irqçilik bölücülük xüsusiyyətinə malkidir. Bu mənada İslam milyonlarla, milyardlarla insanları birləşdirə bildiyi halda, milliyyətçilik onları ayrı-ayrı hissələrə parçalayır. Bu isə, müsəlman millətlərinin birləşməsinə əngəl olur və çıxılması mümkün olmayan bir dalana sürükləyir. Ona görə, «müsəlmanam» deyən hər bir millət ayrı seçikliyə yol vermədən Allahın yolunda bərabərcə yürüməlidir. Necə ki, Osmanlı imperatorluğu dövründə milliyyət və millət yox idi, sadəcə islamiyyət vardı. Ersoy yazırdı:

Hanı milliyyətin İslam idi… Qövmiyyət nə!
Sarılıb sımsıkı dursaydın milliyyətinə.
«Arnavatluk» nə demək? Varmı şəriəttə yeri?
Küfr olur, başqa deyil, kavmını sürmək ilәri!
Ərəbin Türkə, Lazın Çərkəzə yaxud Kürdə,
Əcəmin çinliyə rüçhanımı varmış? Nərdə!

Müsəlmanlıqda «ənasır»mı olurmuş? Nə gəzər!
Fikri qövmiyyəti təlqin ediyor Peyğəmbər.

Tanınmış aydın Mehmet bey hesab edirdi ki, bu dünyada müsəlmanlıq var ikən nə türklüyün, nə farslığın, nə də ərəbliyin bir mənası yoxdur. Hətta, onların hər biri gələcəkdə aradan qalxacaqdır. Ancaq müsəlmanlıq



dünya durduqca var olacaqdır. Çünki müsəlmanlıq milliyyətdən üstün bir məfkurədir. Bu məfkurəyə görə, türk və ərəb, digər müsəlmanlar bir-birindən ayrı yaşaya bilməz. Ersoy yazırdı:

Artıq ey milləti mərhumə, sabah oldu oyan!
Sana az gəldi əzanlar, diyə ötsünmü bu can?
Nə Ərəblik, nə də Türklük qalacaq aç gözünü!
Dinlə Peyğəmbəri zişanın ilahi sözünü!
Türk Ərəbsiz yaşamaz. Kim ki yaşar dər, dəlidir!
Ərəbin, Türk isə həm sağ gözü, həm sağ əlidir.

Bu mənada, türk-islam mütəfəkkiri İslam dünyasının birliyini və bərabərliyini müsəlmanlıq məfkurəsində görürdü. Ancaq tanınmış şair özü də etiraf edirdi ki, müsəlmanlıq bir çıxış yolu ikən həqiqi müsəlmanların sayı azdır. Ersoy yazırdı:

Müsəlmanlıq nərdə! Bizdən keçmiş insanlık belə…
Aləm aldatmaqsa məqsəd, aldanan yok, nafilə!
Neçə həqiqi müsəlman gördümsə, həp məkbərdədir;
Müsəlmanlıq, bilməm amma, qaliba göklərdədir!

Onun fikrincə, müsəlmanlar hər bir xeyri axirətdən - obiri dünyadan gözləməməlidirlər. Müsəlmanlardan kimlərsə hesab edirlərsə ki, bu dünyada yaşamağın heç bir mənası yoxdur, yanılırlar. Çünki insanlar bu dünyaya yalnız o biri dünyaya getimək məqsdəi ilə gəlmirlər. Bir sözlə, bu dünyada yaşamağın da öz mənası və mahiyyəti vardır. Ən əsası odur ki, bu dünya bütün insanlar üçün bir imtahan meydanıdır:

Bu aləm imtahan meydanıdır ərvah üçün madam,
Demək: İnsan deyilsin eyləməzsən durmayıb ikdam.
Nədən keçsin səfalətlərlə, haybetlərlə ezmanın?
Nədən əzmin sürəksiz, yoxmudur Allaha imanın?
Çalış, dünyada insan ol, əlindəykən hənüz dünya;
Obir dünyada insanlıq deyilmiş yağma, gördün ya!
Dilindən axirət heç düşmüyor ey müsəlman, lakin,
Onun haqqında atıl bir həvəs məhsulu idrakın!

Mehmet Akifin fikrincə, müsəlmanlığın dirçəlişində elm və əxlaq mühüm yer tuta bilər. Çünki müsəlmanlar İslam əxlaqından uzaq düşdükləri üçün birliklərini mühafizə edə bilməmişlər. Belə ki, müsəlman əxlaqından danışa-danışa ona əməl etmədik. Ona görə, müsəlman əxlaqında zülmə və haqsızlığa qarşı çıxmaq da mühüm yer tutur. Eyni zamanda, müsəlman əxlaqını pozan şeylər arasında qüvvət qarşısında məddahlıq və yalan danışmaqdır:

Müsəlmanlıq bizdən əvvəl böylə zillət görmədi!
Halimiz bir inhalil etmiş vücudun halidir;
Ruhi izmihlalimiz əxlaqın izmihlalidir.
Sadə bir sözdür fəqət hikmətlərin ən mücməli:
Bir halas imkanı var: Əxlaqımız yüksəlməli.
Yoxsa, çox qorxunc olur katmərləşib hüsranımız…
Çünki həm dünya gedər, həm din, əgər yapmazsanız.

Ona görə də, Türkiyə mütəfəkkiri müsəlmanları oyanmağa və birləşməyə çağırırdı. O yazırdı ki, artıq

müsəlmanların indiyə qədər yatmaları kifayətdir, ölüm yuxusundan oyanmalı və vətənlərini qorumalıdırlar:

Baxsana kim boynu bükük ağlayan?
Haqqı həyatın sənin ey müsəlman!
Qurtar o biçarəyi Allah üçün,
Artıq ölüm uykularından oyan!
Bunca zaman uyudun, kanmadın;
Çəkmədiyin kalmadı, uslanmadın (ağıllanmadın).
Çiynədilər yurdunu başdan başa,
Sən yenə bir kərrə qımıldanmadın!

Bu baxımdan M.Akif bəy müsəlmanlığı yeganə birləşdirici amil kimi görür, onun parçalanmasına qarşı çıxırdı. O hesab edirdi ki, dünənə qədər müsəlmanlıq məfkurəsi ətrafında birləşənlərin bu gün ayrılmağa üz tutmaları İslam dinin mahiyyətinə də ziddir. Çünki İslamda «müsəlmanlar qardaşdırlar» prinsipi əsas xətlərdən biridir. Türkiyə mütəfəkkiri yazırdı ki, həqiqi müsəlmanlıq müsəlmanların ən başlıca vəziəsidir:

Şəhamət dini, qeyrət dini ancaq müsəlmanlıqdır;
Həqiqi müsəlmanlıq ən böyük bir qəhrəmanlıqdır.
Cəbanət, məskənət, dünyada sığmaz ruhi-İslama.
Kitabullahı işhad eylədim- gördüm ya- davama.
Görürsən, hiss edirsən varsa vicdanınla imanın:
Nə müdhiş bir hamasət çarpıyor köksündə Quranın!

İslam dininin böyük bir əxlaq və elm mənası kəsb etməsinə baxmayaraq, Osmanlı imperatorluğu daxilində müsəlmanlıq məfkurəsinin arxa plana keçirilərək digər ideyaların, xüsusilə millətçiliyin (türkçülyün, ərəbçiliyin, farsıçılığın, arnavutçuluğun və s.) önə keçməsini qəbul edə bilməyən Ersoy yazırdı ki, bu müsəlmanlığı zəiflədir və müsəlman olmayan milətlərin yanında gücsüz edir:

Müsələmanlıq sizi qayət sıkı, qayət sağlam,
Bağlamaq lazım ikən, anlamadım, anlayamam,
Ayrılıq hissi nasil girdi sizin beyninizə?
Fikri kavmiyyəti şeytanmı sokan zehninizə?
Bir-birindən mütəfərrik bu qədər akvamı,
Aynı milliyyətin altında tutan İslamı,
Təməlindən yıxacaq zəlzələ, kavmiyyəttir.
Bunu bir lahza unutmak əbədi haybettir…

Türkiyənin tanınmış ziyalısı yazırdı ki, Allah bütün insanları bir ailənin üzvləri kimi yaratmışdır. Ona görə də, aryılıq fikrini aradan qaldırmaq lazımdır. Əgər ba ayrılıq fikirləri aradan qalxmazsa, əcnəbilər müsəlman ölkələrinin sahibi olacaqlar. Halbuki bir millətin öz içində təfriqə olmayanda, başqaları onun içinə girə bilməzlər:

Bizi bir ailə əfradı yaratmış Yaradan;
Qaldırın ayrılıq əsbabını artıq aradan.
Siz bu davada ikən yoxsa, iyazən-billah,
Əcnəbilər olacaq sahibi mülkün nagah…
Bu da qayətlə təbii, koşanındır meydan;
Yaşamaq haqqını qüvvətiylə vermiş Yaradan.
Müsəlman, fikra bəlasıylə zəbun bir kavmı,
Mədəni Avropa üç loxma edib yutmazmı?

Bu mənada, Ersoy yalnız milliyyətçiliyi deyil, həddən artıq qərbləşməyi, avropalaşmağı da müsəlmanlıq məfkurəsinə zidd saymışdır. Bu mənada onun fikrincə, Avopa heyranlığı, Qərb ideallığı müsəlman millətləri üçün bir çıxış yolu ola bilməz. Doğrudur, o, ümumilikdə Qərb mədəniyyətini və ədəbiyyatını inkar etmirdi. Sadəcə, Qərb dəyərlərini ideallaşdırmağın və avropalıları təqlid etməyin qatı əleyhdarı idi. Xüsusilə, Qərb dəyərlərinə, o cümlədən aropalaşdırılmaya və ruslaşdırılmaya uyaraq ailə dəyərlərinin aradan qaldırılmasını türk-müsəlman aydını qəbul edilməz sayırdı:

Bir səlamət yolu varmış… O da nəymiş? Mutlak,
Dini kökdən qazımaq. Sonra əvət, ruslaşmak!
O zaman iş bitəcəkmiş… O zaman qızlarımız
Şu tutundukları qayət qaba, pək mənasız
Örtüdən sıyırılaraq… Sonra da erkəklərdən,
Analıq elmini təhsil edəcəkmiş… Zatən,
Müsəlmanlar o səbəbdən bu səfalətdə imiş!..
Din üçün, millət üçün iş görəcək alçağa bak;
Dini pamal edəcək, milləti ruslaşdıracak!

Bu gün avropalaşdırılmağa sürüklənən Şərq mədəniyyəti, o cümlədən İslam-Türk mədəniyyəti vaxtilə dünyaya bir örnək olmuşdur. Halbuki o zamanlar da elm və mədəniyyətdən uzaq olan Qərb idi. Ancaq sonralar avropalılar öz üzərlərində işləyərək yeni bir mərhələyə qədəm qoydular. Hətta, Qərb mədəniyyəti Şərq dünyasına örnək olacaq bir duruma gəldi. Ancaq Ersoyun fikrincə, Şərq dünyası öz əzəmətini bərpa etmək üçün üzünü Qərb mədəniyyətinə deyil, keçmişinə tutmalı və onu dirçəltməlidir:

Cihanın Qərbi vahşət-zar ikən, Şərqində Karanklar,
Hərəmlər, Səddi-Çinlər, Takı-Kisralar, Havernaklar,
İrəmlər, Suri-Babillər səma-peyma deyilmiydi?
O mazilər, İlahi, bir yıkık rüyamıdır şimdi?
Nə yapsın, naümid olsunmu Şərqin intibahından,
Pərişan ruhumuz, haib dönərkən bargahından?

Gördüyümüz kimi, Türkiyənin tanınmış mütəfəkkiri Mehmet Akif Ersoyun dünyagörüşünün əsasını «İslam birliyi», müsəlmanlıq məfkurəsi təşkil etmişdir. Müsəlmanlıq ideyasını istənilən ideyaya, o cümlədən millətçiliyə qarşı qoyan bu mütəfəkkir hesab etmişdir ki, bütün dünyadakı insanların kökü və mahiyyəti birdir. Çünki Yaradan onları bir ailənin üzvləri kimi yaratmışdır. Müsəlmanların birliyinin əsasında da Allahın birliyi ilə yanaşı, elm və əxlaq mühüm rol oynayır. Müsəlmanların elm və əxlaqca yüksəldikcə, onlar üçün milliyyətilik deyil, müsəlmanlıq məfkurəsi mühüm əhəmiyyət kəsb edir. Müsəlman ölkələrinin qurtuluşu da, məhz «İslam birliyi» məfkurəsi ilə bağlıdır. Bununla da, Ersoy müsəlmanlıq məfkurəsini şeirdə yaşadan ən böyük islam-türk mütəfəkkiri olmuşdur.

Dos., Dr. Faiq Ələkbərov
AMEA Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi

Türk Dünyası Bələdiyyələr Birliyi türk dünyasına nələr vəd edir?

Sovet rejiminin dağılması nəticəsində 5 Türk dövləti (Azərbaycan, Qazaxstan, Türkmənistan, Özbəkstan və Qırğızstan) müstəqilliyini elan edib müstəqil dövlətlərin sırasında yerini almış oldu. Rejiminin dağılması ilə yetmiş il türk xalqlarının yeganə təmsilçisi rolunu oynamış müstəqil Türkiyə dövləti və SSRİ-nin sərhədlərindən kənarda yaşayan digər türk qardaşlarından ayrı düşmüş 5 türk dövləti üçün yeni bir səhifə açılmış oldu. Türk dövlətlərinin başçıları siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin güclənməsinə xidmət edən sistemli fəaliyyətin əsasını qoymaqla əbədi qardaşlıq bağlarının möhkmlənməsinə zəmin yaratmış oldular.

Bu gün beynəlxalq hüquq normalarına əsasən dövlət kimi tanınan 6 müstəqil Türk dövləti olsa da beynəlxalq aləmdə de-yure tanınmayan Şimali Kipr Türk Cumhuriyyəti ilə birlikdə 7 türk dövləti mövcuddur. Son 25 ildən bu yana türk dövlətləri arasında inteqrasiya və əməkdaşlığın möhkəmlənməsi istiqamətində müxtəlif beynəlxalq birliklər qurulmuş və müqavilələr imzalanmışdır. Bu beynəlxalq birliklərdən biri də Türk Dünyası Bələdiyyələr Birliyidir.

Birlik 12 noyabr 2003-cü ildə yaradılmışdır. Hazırda 28 ölkədən 1103 bələdiyyənin üzvü olduğu birlik nüfuzlu beynəlxalq təşkilatların sırasında yer almaqdadır. Üzvlərinin mənsub olduqları ölkələrin sayı və yerləşdikləri geniş coğrafiya deməyə əsas verir ki, birliyin əhatə dairəsi təkcə Türk dövlətlərilə məhdudlaşmır. Birliyin fəaliyyəti eyni zamanda dünyanın müxtəlif guşələrində kompakt şəkildə yaşamaqda olan türk toplumlarının bələdiyyələrini də əhatə etməkdədir.

Türk Dünyası Bələdiyyələr Birliyinin yaranmasında hansı zərurətlər rol oynayıb və bu birlik türk dünyasına nələr vəd edir? İlk öncə qeyd etməliyəm ki, dünyanın müxtəlif coğrafiyalarında yaşayan Türk xalqları arasında qardaşlıq müasibətlərinin möhkəmlənməsi və iqtisadi əlaqələrinin qurulması baxımdan təşkilat önəmli rol oynamaqdadır. Yarandığı dövrdən bu günə qədərki fəaliyyətini araşdırarkən məlum olur ki, təşkilat türk dünyasının inteqrasiyası və qarşılıqlı əlaqələrin qurulması istiqamətində uğurlu layihələr həyata keçirmişdir.

Buraya ümum türk tarixi və ayrı ayrı türk dövlətlərinin tarixi ilə əlaqədar kitabların nəşri, simpozumların keçirilməsi, türk dünyası bələdiyyələr birliyinin üzvü olan bələdiyələrarası qardaş şəhərlər layihəsi, təhsil sahəsində tədbirlər, mədəni tədbirlər, Türk Dünyası Bələdiyyələr Birliyinin adından müsəlman ölkələrində ehtiyacı olan insanlara yardımların edilməsi və s. tədbirlər daxildir.

Birlik türk toplumları arasında mövcud olan ortaq mədəni dəyərləri və mirası nəzərə alaraq, qardaşlıq, birlik, yardımlaşmaq münasibətlərinin möhkəmlənməsi və yerli özünüidarəetmə sahəsində təcrübələrin öyrənilməsi məqsədiylə yaradılmış beynəlxalq təşkilatdır.

Baş ofisi İstanbulda yerləşən təşkilatın ali məqsədi türk dünyasının inteqrasiyasına nail olmaqdır. İyirmi səkkiz ölkənin bələdiyyələrini özündə cəmləyə bilmiş təşkilatın təsir dairəsi genişləndikcə əhəmiyyəti artmaqda və türk dünyasının inteqrasiyasında önəmli rol oynayan təşkilat halını almaqdadır. Türk Dünyası Bələdiyyələr Birliyinin nizamnaməsinə əsasən inteqrasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir.

1. *Tarixi və mədəni mirası qorumaq.*
2. *İqtisadi, texniki, sosial və mədəni sahələr əsas tutulmaqla əlaqələrin inkişaf etdirilməsi.*
3. *Şəhər və qəsəbələrdə yerli özünüidaər etmə sahəsində yaranmış çətinliklərin aradan qaldırılması və həlli yollarını müəyyənləşdirərək birlikdə həll edilməsinə çalışmaq.*
4. *Şəhər və qəsəbələrdə idarəetmə təcrübəsi və yerli adət-ənənələrin formalaşması mövzusunda daha müasir modelləri araşdıraraq inkişaf etdirmək və bu istiqamədəki fəaliyyətləri dəstəkləmək.*

Dünyada gedən qloballaşma prosesinin müsbət nəticəsi olaraq inkişaf etmiş dövlətlərin elmi, mədəni, texniki naliyyətləri öyrənilməkdə və tətbiq edilməkdədir. Qərb inkişaf modeli kimi qiymtləndirilən qloballaşama prosesində zahirən təhlükəli heçnə olmasa da iqtisadi cəhətcə inkişaf etmiş qərb dövlətləri qloballaşmadan öz siyasi maraqlarının təmin edilməsi məqsədiylə istifadə edirlər.

Onlar elmi və texniki təcrübə ilə bərabər çox zaman bütün imkan və resurslardan istifadə edərək kiçik dövlətlərə və xalqlara ümumbəşəri dəyər kimi öz mədəniyyətlərini ixrac etməkdədirlər. Nəticədə kiçik dövlətlər böyük dövlətlərin mədəniyyətini

mənimsəməyi müasirlik kimi qəbul edərkən yerli və milli mədəniyyətləri daha doğrusu milli kimlikləri tədricən yox olmaqdadır.

Baxmayaraq ki, türklər kiçik xalq deyil və dünya üzrə 300 milyona yaxın saya malikdirlər. Amma bu qloballaşma tendesiyası bütün dünya xalqları kimi türk toplumları və türk kimliyi üçün də ciddi təhlükədir. Türk xalqları daima milli və mənəvi dəyərlərə sadiq olmaqla yanaşı müasirliyə, elmə və inkişafa dəyər vermişlər. Tarixən bir çox elmi kəşflər və yeniliklər türklərin adi ilə bağlıdır. Türklər keçmişləri ilə öyünsələr də, keçmişdə qapılıb qalmayan və zamanın tələbi ilə uyğunlaşmağa çalışan mədəni xalqların cərgəsindədirlər.

Buna görə də bu gün türk dövlətlərinin beynəlxalq aləmə inteqrasiyası, əldə etdikləri iqtisadi nəaliyyətləri və inkişafları sevindirici hal olsa da kənar mədəniyyətlərin təsirindən qorunmaq üçün müvafiq tədbirlər görülməlidir. Yad təsirlərdən qorunmaq istiqamətində görüləcək tədbirlərdən ən mühümü eyni dil, irq və ortaq mədəni keçmişə malik olan türk toplumlarının öz aralarında əlaqələrini möhkəmləndirmək və inteqrasiyanı gücləndirməkdir. Qarşısına Türk toplumlarının inteqrasiyasını ali məqsəd kimi qoymuş Türk Dünyası Bələdiyyələr Birliyinin bu sahədə fəaliyyəti təqdirəlayiqdir.

İyirmi səkkiz dövlətin yerləşdiyi geniş coğrafiyanı, bu coğrafiyada yaşayan 100 milyonlarla insanların həyatı və fəaliyyəti ilə əlaqədar sahələri əhatə edən beynəlxalq təşkilat kimi Türk Dünyası Bələdiyyələr Birliyinin yaxın gələcəkdə dünyanın sayılıb seçilən beynəlxalq təşkilatları arasında ön sıralarda yerini alacağı şübhəsizdir .

Bələdiyyələrin beynəlxalq təşkilat yaratması, yerli özünüidarəetmə sahəsində təcrübə mübadilələrinin aparılması və bələdiyyələrlə birgə ortaq layihələrin həyata keçirilməsinin nəzərdə tutulması mühüm hadisədir. Təbii ki, hər bələdiyyənin özünəməxsus təcrübəsi vardır ki, əldə edilmiş bu təcrübələrinin digər bələdiyyələrlə bölüşülməsi idarəçilkdə müsbət nəticələrin əldə edilməsinə və bələdiyyələrin inkişafına səbəb olacaqdır.

Çoxsaylı üzvlərə malik beynəlxalq təşkilat kimi sahib olduğu resurs və imkanlar söyləməyə əsas verir ki, birlik tərəfindən türk dünyasının inteqrasiyası sahəsində böyük işlər görüləcək və layihələr həyata keçiriləcəkdir.

Birlik eyni zamanda bələdiyyələrin beynəlxalq arenaya çıxması və müxtəlif ölkə bələdiyyələrinin bir-biri ilə işgüzar əlaqələrinin qurulması baxımdan önəmli rola malikdir. Çalışılmalıdır ki, bu qədər önəmli təşkilat cəmiyyətmizi narahat edən problemlərin həllində yaxından iştirak etsin və bu fəaliyyətlər əhalinin rifahına müsbət təsir göstərsin. Bələdiyyələr arası münasibətlərin güclənməsi eyni zamanda dövlətlər arası münasibətlərində güclənməsi deməkdir. Yəni birliyin həm də dövlətlər arsında beynəlxalq münasibətlərin qurulması, iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmlənməsi sahəsində strateji əhəmiyyəti vardır.

Bütün bunlarla yanaşı türk dünyasının inteqrasiya sahəsində fəaliyyətlər təkcə birlik səviyyəsində görülən işlərlə məhdudlaşmamalıdır. Hər bir bələdiyyə və yaxud bələdiyyə üzvü türk dünyasının inteqrasiyasına töhfəsini verəcək fəaliyyətlər həyata keçirməli və təkliflərlə çıxış etməlidir.

Bir bələdiyyə nümayəndəsi kimi mən Türk Dünyası Bələdiyyələr Birliyinə aşağıdakı təkliflərimi irəli sürürəm:

1. *Türk Dünyası Bələdiyyələr Birliyi tərəfindən beynəlxalq təşkilat kimi "Xocalı soyqırımına" beynəlxalq hüquqi qiymət verən sənəd qəbul edilsin və üzv bələdiyyələrə yerlərdə "Xocalı soyqırımını" tanıdan tədbirlərin həyata keçirilməsi tövsiyyə edilsin.*
2. *Birlik tərəfindən hər il bir dövlətin bələdiyyəsi türk dünyasının inteqrasiyası istiqamətində göstərdiyi fəaliyyətləri, əldə etdiyi uğurları və nail olduğu inkişafı nəzərə alınaraq "İlin bələdiyyəsi" adıyla təltif edilsin.*
3. *Türk xalqlarının yaşadığı faciələri əbədiləşdirmək və unudulmamaq məqsədiylə üzv bələdiyyələr tərəfindən yerlərdə marifləndirmə işlərinin aparılmasını və müvafiq tədbirlərin həyata keçirməsini təmin edəcək qərarlar qəbul edilsin.*
4. *Türk Dünyası Bələdiyyələr Birliyinin üzvü olan bələdiyyələr arasında türizimin inkişafı istiqamətində tədbirlər həyata keçirilsin.*
5. *Türk toplumlarının arasında inteqrasiyanın güclənməsi məqsədiylə ortaq əlifbanın qəbul edilməsi istiqamətində çalışmalar həyata keçirilsin.*
6. *Birliyin daxilində türk toplumlarının interasiyasını gücləndirmək məqsədiylə layihələrin maliyyələşməsini həyata keçirən qurum təsis edilsin.*
7. *Birlik üzvü olan bələdiyyələr ərazilərində fəaliyyət göstərən iş adamlarını digər üzv bələdiyyələrə kapital qoyuluşuna təşviq etsin.*
8. *Birliyin yaranma tarixi olan 12 noyabr "Beynəlxalq bələdiyyə" günü kimi qəbul edilsin və bütün üzv bələdiyyələr tərəfindən qeyd edilsin.*
9. *Türk dövlət başçıları tərəfindən qəbul edilmiş 3 oktyabr "Türk Dünyası Günü" bayram olaraq təşkilat tərəfindən və üzv bələdiyyələr tərəfindən yerlərdə qeyd edilməsi istiqamətində tədbirlər görülsün.*
10. *Birlik üzvü olan bələdiyyələrin birbirinin iş təcrübəsini və həmçini beynəlxalq təcrübəni öyrənmək məqsədiylə kursların və seminarların təşkil edilməsi.*

Fərman Salmanlı
Hökməli bələdiyyəsinin sədr müavini, hüquqşunas

“Cümhuriyyət hər zaman padşahlıqdan daha doğru bir sistemdir”

Əhməd bəy Ağaoğlunun nəvəsi Tektaş Ağaoğlu: “İsveçrəyə ölümdən qurtulmaq üçün getdik”

Ötən ilin avqustunda Türkiyədə yaşayan həmyerlimiz, Marmara Universitetinin müəllimi, türk ədəbiyyatı üzrə tədqiqatçı Mehdi Gəncəli məni Əhməd bəy Ağaoğlunun nəvəsi Tektaş bəylə görüşdürmüşdü. İlk görüşdən bir il sonra bu dəfə İstanbula təhsil üçün getdiyim zaman artıq planlı şəkildə hərəkət edəcəkdim. Azərbaycan mühacirlərinin İstanbulda yaşayan övladları, nəvələri, nəticələri, yaxın qohumları ilə söhbət edəcək və bunları “Varislər” adlı bir kitabda toplayacaqdım.

İlk getdiyimiz ünvan yenə də Tektaş Ağaoğlu oldu.

Dosye: Tektaş Ağaoğlu 1934-cü ildə İstanbulda doğulub. 1956-cı ildə Oksford Universitetinin hüquq fakültəsini bitirib. 1956-cı ildən Parisdə rəsm işlərini başlayıb, bir il sonra Ankarada ilk fərdi sərgisini açıb. 1984-cü ildə Sürixdə xanımı Ezel Ağaoğlu ilə birlikdə heykəl sərgisi təşkil edib.1993-də də Ankarada heykəl sərgisi keçirib.Atası və babası kimi siyasətlə məşğul olub, Türkiyə Sosialist İşçi Partiyasında təmsil olunub.Atası kimi həbsə düşüb.Sol görüşə sahibdir.

* * *

... Mecidiyeköydə metrobüsdən enib bildiyimiz ünvana doğru yol alırıq. Binaya çatdığımızda “Ezel Ağaoğlu” yazılan düyməni sıxıb qapının açılmasını gözləyirik. İkinci mərtəbəyə qalxdıqca bu dəfə söhbətə haradan başlayacağımı götürqoy edir, bir tərəfdən də, görəsən, bu evdə Əhməd bəy Ağaoğlu ilə bağlı indiyə qədər üzə çıxmamış materiallar varmı deyə düşünürəm.

... Bizi xoş qarşılayır, içəri dəvət edirlər. Dünən gələcəyimizi xəbər verdiyimiz üçün Ezel xanım bizim üçün iki cür şirniyyat hazırlamışdı. Masaya əyləşirik və Ezel xanım Tektaş bəyin əlindən tutaraq digər otaqdan içəri gətirir. Keçən ilə nisbətən Tektaş bəy bir az da yaşlanmış, belindəki ağrıları artmışdı. Tək yeriməkdə çətinlik çəkirdi. Evləndikləri gündən həyat yoldaşına dayaq olan Ezel xanım həm fiziki yardım edir, həm də “sevgilim” deyərək ona yeni ruh bəxş edirdi.

...Yaşından doğan səbəblərə görə Tektaş bəy ani olaraq hansımızın Mehdi olduğumuzu soruşur və söhbətə özü giriş verir: “Bizim Mehdi adında bir qohumumuz vardı. Atamın bibisinin oğlu. Türkiyənin üzgüçülük üzrə çempionu olmuşdu. Feriköydəki məzarının üstündə rəsmi var. Çox dəliqanlı bir adam idi. Heyf ki, gənc yaşda xəstələnib vəfat etdi. Biz o zaman 6-7 yaşda idik”.

... Ezel xanım çay gətirir. Bişirdiyi dadlı şirniyyatlardan önümüzə qoyarkən hələ ötən görüşümüzdə Tektaş bəyə söz verdiyimiz, amma hələ yerinə yetirə bilmədiyimiz bir məsələ yadımıza düşür. Belə ki, ilk görüşümüzdə söhbət əsnasında Tektaş bəy zamanında bibilərinin, yəni Əhməd bəyin qızlarının dovğa bişirməsindən bəhs etmiş, uzun illər keçsə də, dadını unutmadığını qeyd etmişdi. Türkiyədə dovğa olmadığına görə təşkil edəcəyimizi söz vermişdik, lakin hələ də sözümüzü yerinə yetirməmişdik.

Tektaş bəy xatırlayır: “Uşaqlıqdan bəri dovğanı bilirəm. Babamın evi - Sürəyya xanımın da evi sayılırdı ora - Teşvikiyedə Topağacı adlanan yerdə yerləşirdi. O evi 20 il əvvəl yıxdılar, yerinə bina tikdilər. O evdə dovğa tez-tez bişirilərdi və yeyərdik. Bir də noxudlu bozbaş vardı. Qurtuluş savaşı illərində babam Ankarada idi, zəfərdən sonra İstanbula gəlmək istəyir. Burada bir ev kirayə tuturlar. Fəqət ev böyük olsa da, çox köhnə olur. O da Teşvikiyedə idi. Sürəyya bibim deyir ki, “ata, mən sənə bir ev düzəldərəm”. Onun memar dostları vardı. Cümhuriyyətin ilk memarlarını bibim tanıyırdı. Babama bir ev tikir. Çox məşhur olur o ev. Oval formasında salonu vardı, pəncərədən boğaz görünürdü. O salonda sıxlıq

yaratmadan 40-50 adam otura bilərdi. Tez-tez mövlud oxunulurdu. Üç bibim vardı: Sürəyya, Tezer, Gültəkin. Hamısı öldü, Allah rəhmət eləsin. Onların da məzarları Feriköydədir".

Mehdi bəy Tektaş bəyin arxivindən hazırlayacağı kitab ("Əhməd Ağaoğlunun Malta məktubları") üçün götürdüyü məktublar barədə danışır: "O məktubları oxuduqca ailəni yaxından tanımışıq. Sürəyya xanım məktubunda yazır ki, Gültəkinin əlindən tutdum, üç sətir də ona yazdırdım. Əhməd Ağaoğlunun bir məktubunu da tapdım. 1918-də Batumdan yazır. Deyir ki, xəbərini aldım, bir qızımız olub, Allah bəxtini açıq etsin. Demək ki, Gültəkin doğulanda Əhməd bəy İstanbulda deyilmiş".

Tektaş bəy bu faktı bilmədiyini deyir.

Mehdi bəy başqa bir maraqlı hadisədən də bəhs edir: "Əhməd Ağaoğlu Maltadan döndükdən sonra Atatürkün çağırışı ilə Ankaraya gedir. Keçiörendə bir ev tikir. Bu ev Ankara Keçiörendə tikilmiş ilk bağ evidir. Orada bir küçəyə mütləq Ağaoğlunun adı verilməlidir".

"Çox yaxşı olar" – Tektaş bəy razılaşır.

Tektaş bəydən Qarabağı soruşuram:

- Heç Qarabağı maraq etdinizmi?

- Etdim, əlbəttə, gedə bilmədim heç.

- Biz də gedə bilmirik artıq, nə düşünürsünüz bu barədə?

- Düşünürəm ki, artıq həm Qarabağda, həm də Anadoluda türklərlə ermənilər arasında qarşılıqlı nifrət olmamalıdır. Qarabağa gedə bilməsəm də, Bakıya getmişəm. Sovet İttifaqına da getmişəm. Şoloxovun "Durğun don" kitabını tərcümə etmişdim. Şoloxovun bu kitabı Türkiyədə mənim tərcüməmlə tanınır. Bu kitaba görə dəvət edildim. Tək getdim. Yaşar Kamal mənə demişdi ki, belə bir kitab var, mütləq bunu çevir. Mən təcili kitabı ingiliscədən çevirməyə başladım. Şoloxov Nobeli aldıqdan sonra başqaları da heyət halında kitabı çevirməyə başladılar. Bir kitabı 3-4 hissəyə bölüb tərcüməçilərə verir, yekunda da biri birləşdirməklə məşğul olurdu. Mən onlardan öncə başlasam da, sonra bitirdim. Çünki tək idim. Çox vaxt xərcləyirdim və önəm verirdim. Mənim tərcüməm çox uğurlu oldu. "Ağaoğlu" yayın evindən çap etdik, çox yaxşı satıldı. Çox pul qazandıq, tez bir mətbəə aldıq (gülür).

Əhməd Ağaoğlu və xanımı

- Sizin atanızın da təmsil olunduğu hökumət bir çevriliş nəticəsində yıxıldı, hökumət üzvlərinin bəziləri edam, bəziləri həbs edildi. 15 iyulda Türkiyədə çevrilişə cəhd oldu. Nə düşündünüz?

- Fətullahçılar sağlam ayaqqabı deyillər. AKP onlarla müqayisədə yaxşıdır.

- Adətən, atanızın təmsil olunduğu hökumətlə AKP-nin eyni mövqedə olduğunu deyirlər.

- Heç bir əlaqəsi yoxdur. Amerikaya qarşı münasibətdə bəzi məsələlər ola bilər. Amma dərinə gedəndə o da elə deyil.

- Ümumiyyətlə, Sizin fikrinizcə Türkiyədə hansı hökumətin idarəçiliyi xalq üçün ən yaxşı idi?

- Geriyə baxdığımızda xalq üçün ən yaxşı dönəm Cümhuriyyət Xalq Partiyasının ilk illəri idi. Cümhuriyyətin qurulmasının özü xalq üçün çox yaxşı olmuşdu. Laiklik və s. kimi şeylər. Cümhuriyyət hər zaman padşahlıqdan daha doğru bir sistemdir. Cümhuriyyətə fəzilət rejimi deyirlər. İqtisadi mənfəətlər baxımından da ən yaxşı rejim cümhuriyyətdir. Türkiyədə xalq üçün ən yaxşı işləri əski Demokrat Partiya etdi. Onlar da zatən Cümhuriyyətin ilk illərindən bəri iş başında olan adamlar idilər. Cəlal Bayar, Adnan Menderes və s. Fransada 1789 inqilabında kralın başını kəsirlər. Kral XVI Lui çox da qəddar, zalım bir adam deyildi. Ona görə də fransız məclisində böyük müzakirələr oldu ki, belə adamı öldürmək doğrudurmu? Sen Jüst adlı bir gənc qalxıb dedi ki, belə kiçik məsələlərlə vaxt keçirməyək, zamanımızı xərcləməyək. Kral olmaq zatən suçdur. (gülür).

... Siyasətdən aralanıb yenidən Ağaoğlular ailəsinə dönürük. Tektaş bəydən bacısı haqqında məlumat soruşuruq."Sitarə idi adı. Nənəmin adını vermişdilər. 20 il əvvəl vəfat etdi" deyir.

Mehdi Gəncəli: "Əli bəy Hüseynzadə 1927-ci ildə Bakıya getdiyi zaman Əhməd Ağaoğlunun qardaşı Hüseynin evinə yollanır. Hüseynin böyük oğlu Baxış Kiyevdə tibb oxuyub. Hüseynin bir qızı da olub. Əli bəy Əhməd bəyə yazdığı məktubda deyir ki, bu hissəni, xüsusilə, Gültəkinə də oxu. Əli bəy yazır ki, Hüseynin qızı piano çalır, rəqs edir. Gültəkin görsün ki, onun əmisi qızı necə də bacarıqlıdır, Mustafa Kamal paşa marşını çala bilir. Maraqlıdır, 1926-cı ilin Bakısında. Əli bəy yazır ki, Bakıda bolşevik-kommunist arxadaşlarla görüşdük, onlarla oturduq, içdik, səni xatırladıq. Onlar sənin şərəfinə qədəh qaldırdılar".

Tektaş bəy Nəriman Nərimanovun Əhməd bəyə yazdığı məktubdan bəhs edir: "Babam Maltada bir neçə il qaldı. Ondan sonra ingilislər qərar verdilər ki, Maltanı boşaltsınlar. Türk elitasının yarısı, yazarlar, siyasətçilər orada idilər. Babam hələ Maltada olarkən ona Nəriman Nərimanovdan bir məktub gəlir. Yazır ki, biz sizi tanıyırıq, apardığınız mübarizənin heyranıyıq. Çıxacaqsınız, gəlin bizimlə bərabər olun, birlikdə xalqımız üçün çalışaq. Babam da cavab yazır ki, təşəkkür edirəm, fəqət mən ikinci vətənim saydığım Türkiyə Cümhuriyyətinə xidmət etməyi seçirəm".

Daha sonra Əli bəy Hüseynzadədən danışır: "Atam Əli bəyi çox tərifləyərdi, mədh edərdi. "Hamısının, hətta atamın da hocası Hüseynzadə Əli bəydir" deyərdi. Hüseynzadə Əli bəy çox maraqlı adam olub. Məsələn, kaman çalarmış. Mən onun oğlu rəssam Səlim Turan bəy-



Əhməd Ağaoğlu



Səməd Ağaoğlu

Sürəyya Ağaoğlu

lə Parisdə tanış oldum. Çox xoş bir adam idi. Vəfat etdi o da. Qızı Feyzavər xanımı da tanıyıram. Əli bəy İttihad və Tərəqqinin qurucularından olub".

... Masanın üzərində bir rəsm görürəm. Saqqallı orta yaşlı bir adamla, 10-12 yaşlı bir uşaq. Kim olduqlarını soruşuram. Tektaş bəy cavab verir: "Oğlum Əhməd və nəvəm Kai".

Ezel xanımdan Tektaş bəylə necə tanış olduqlarını soruşuram. Həvəslə danışır: "Mən 1968-ci il (Fransada başlanan tələbə üsyanları ilə dünyada geniş yayılan sol hərəkat – D.Ə.)nəslindənəm. Tektaş bizdən öncəki nəsil idi, məndən 12 yaş böyükdür. O da bir ara bizə bir az qarışdı. Sonra mübahisələr yaşadıq. Tektaş dedi ki, filan işləri yanlış görürsünüz. Dediyim kimi etsəniz, mən varam, əks halda yoxam. O zaman Tektaş Türkiyə İşçi Partiyasının üzvü idi. Yollarımız ayrıldı, mən həbsə düşdüm. Tektaş TİP-li olmağa davam elədi. Beləcə, ilk dəfə o zamanlar tanış olduq. Mən qızıma hamilə idim, həbsə girmək üzərəydim. Biz bir-birimizi həm insani, həm də dünyagörüş olaraq bəyəndik. Mənim vəziyyətim elə idi ki, çevrəmdən qopa bilmirdim. Bunun yanlış olduğunu bilsəm də. Bilə-bilə adam gizlədim, bilə-bilə uşaq dünyaya gətirdim. Daha doğrusu, qızımı bilməyə-bilməyə doğdum. Ecevit əfvi oldu, həbsdən çıxdım. Mən 2 il həbs yatdım, Tektaş az yatmışdı, 2-3 ay. Əfv çıxmasaydı, daha da qalacaqdım hər halda. Mən keramikaçıyam. Heykəl və keramika bölümü məzunuyam. İşimi hələ də çox sevirəm. Hüzursuz, narahat olanda aşağıdakı atolyeyəenirəm,xoşbəxt oluram. Və çalışmağa başlayıram. O zaman da elə idim, tələbə, inqilabçı ikən də belə idim. İşimi çox sevirdim. Sürəyya Koral adlı bir xanım vardı. Kılıç Alinin xanımı. Onun ocağı vardı. Yaşadığı mərtəbənin üst qatında Tektaş yaşayırdı. Mənim ocağım yox idi, bahalı idi. Həbsdən çıxdıqdan sonra Cem yayın evinin sahibi məni Sürəyya xanımla tanış elədi. Daha sonra mən də heykəlləri atolyemdən daşıyıb orada bişirdim. Bir gün gördüm ki, Tektaş qapıdadır. Məni axtarırmış. Niyə? Həm keçmiş bir dost, həm də yaxınlıq hiss etdiyi biri olaraq. Beləcə, münasibətimiz başladı. Uşaqları evə aldıq. Uşaqlar həftəsonlarında gəlirdilər. Oğlan Qalatasarayda oxuyurdu, yatılı idi. Qızım anamın yanında idi. Bu evdəydi. Üst mərtəbədə otururdu. Həftəsonları gəzib, görüşüb, yemək bişirirdik. Beləcə, evlənməyə qərar verdik. "Sən məndən nə istəyirsən, Tektaş" dedim. "Sənlə evlənmək istəyirəm" dedi. Evləndik, ondan sonra 1980-ci ilin 12 sentyabr hadisələri başladı. Öncə Tektaş getdi İsveçrəyə, bir-iki ay sonra mən getdim. 9 il orada qaldıq. Vətəndaşlıq zamanımız gəldi, istəmədik, geri döndük. İsveçrə polisi Tektaşa dedi ki, getsən, indən belə başına bir iş gələrsə, artıq biz qarışmayacağıq. Mənə pasport verdi-

lər, mən pasportla döndüm. Tektaşın heç nəyi yoxdu. Təkcə biletlə gəldi. Heç bir sənəd vermədilər. Beləcə, həyat davam elədi. Müxtəlif yerlərdə yaşadıq. Nəhayət, buraya daşındıq, illərdir buradayıq. Bu ev mənə atamdan qalıb".

Tektaş bəy əlavə edir: "İsveçrə demokratik bir ölkədir. Orada 4 dil hakimdi. Mən ingiliscə bilirəm. Dönməkdən heç peşman olmadım. Biz ora ölümdən qurtulmaq, işgəncədən xilas olmaq üçün getmişdik. Yoxsa, mənim nə işim vardı orada".

* * *

... Ailədən Əhməd bəydən qalan arxivlərin başqa kimlərdə ola biləcəyini soruşuram. Tektaş bəy Qalatasaray universitetində çalışan Yasəmən xanımda ola biləcəyini bildirir: "Humay bibinin nəvəsidir o. Onun da arxivində nələrsə qala bilər".

Evdən nadir qəzetlər tapırıq. Əski əlifbanı oxuyan Mehdi bəy qəzetdə Əhməd Ağaoğlunun Nuru paşa haqqında yazılarının yer aldığını bildirir.

Tektaş bəydən ailənin digər fərdləri haqqında danışmasını rica edirik. Qardaşı haqqında danışır: "Kaş qardaşım Mustafa Kamalla tanış olsaydınız. Bir şeir kitabı da var. Anamla atam adını Mustafa Kamal qoymaq istəyiblər, Əhməd bəydən soruşublar. Əhməd bəy də "əlbəttə, mütləq qoyun" deyib. Mustafa Kamalla "Ağaoğlu" yayın evini qurmuşduq, əsas işləri o görürdü. Mustafa Kamalın bir qızı var, görüşürük. Adatəpədə atasından qalan bir evdə yoldaşı ilə bərabər yaşayır".

Ezel xanım əlavə edir: "Mim Kaf Ağayevin, yəni Mustafa Kamalın kitabı çox gözəl, duyğulu idi. Tektaş bir gün ona dedi ki, niyə yenə kitab çap etmirsən. Ürəyim ağrıyır, yazarkən çox üzülürəm, ona görə istəmirəm dedi".

Tektaş bəy Əhməd bəylə Atatürkün münasibətindən danışır: "Əhməd bəy Mustafa Kamal paşanı çox sevərdi. "Sən bir sığıntısan" deməsinə rəğmən çox sevərdi. Atam danışır ki, Mustafa Kamal ölərkən hər kəs yerinə kim keçəcək deyə düşünürmüş. Atam da öz atasından, yəni Əhməd bəydən soruşub. O da "belə sual soruşularmı heç, əlbəttə ki, İsmət paşa" deyə cavab verib. İsmət paşanı Əhməd bəyin uşaqlarına soruşsaydınız, ailənin düşməni bir adam deyərdilər. Rəvayətə görə, atamın da millət vəkilliyinə namizəd olduğu siyahı İsmət paşanın önünə gəldiyində deyib ki, "yahu, atasından azmı çəkdik ki, bir də bundan çəkəcəyik". (gülür)Ona görə də atamın yerinə Tezer bibimi yazırlar".

Ezel xanım qayınatası Səməd Ağaoğlundan danışır: "Qayınatam ədəbiyyat vurğunu bir adam idi. Yatdığı otaq kitablarla dolu idi. Divar başdan-başa kitab idi, bir gün çökəcək deyə qorxurdum. Məni maşınla götürərdi, boğaz gəzintisinə çıxardıq. Bəzən balıqçılarla söhbət edərdi. Məndən soruşardı ki, filan şairi tanıyırsanmı, deyirdim yox. Filankəsi, onu da yox. Heç vaxt tanımazdım. 28 yaşım vardı. Bir gün ondan soruşdum ki, Qarsia Lorkanı tanıyırsınızmı? Dedi, tanımıram (gülür). Bəlkə də, tanıyırdı da, mənimlə zarafat elədi. Çox bilən bir adam idi. Xatırlayıram bir dəfə xəstələnmişdi, bacıları gəldi, dovğa bişirdilər, içdi sağaldı (gülür)".

Türkiyədə YapıKredi yayınları Səməd bəyin bütün kitablarını yenidən çap edib. Kitabların müəllif hüquqları Tektaş bəydədir. Yalnız bir kitab çap olunmayıb: "Sovet Rusiya imperatorluğu". Bu kitab cəmi bir dəfə, 1967-ci ildə yayımlanıb. Üstəlik digər kitablarından fərqli olaraq övladlarının qurduğu "Ağaoğlu" mətbəəsində deyil. Bunun səbəbini soruşuruq.

Tektaş bəy izah edir: "Atam "Sovet Rusiya imperatorluğu" kitabını bizim çap etməyimizi istədi. Biz də solçu olduğumuz üçün "çap etmirik" dedik (gülür). Atam bizə çox hirsləndi. Çünki onun kitablarını həmişə biz çap edirdik. Dedik ki, siz özünüz çıxarın, biz kömək edək. Nə istəyirsən edək, amma bizim nəşriyyatdan olmasın. Bol-bol bilgi var o kitabda. Çapını yenə istəmirik. "İmperatorluq" sözünü düzgün hesab etmirik".

Tektaş bəy bizə qəfil sual ünvanlayır: "Bir dəfə biri mənə dedi ki, bizə azəri yox, azərbaycanlı de. Niyə?".

Səbəbini izah edirəm, Stalinin 1937-ci ildə dilimizi və adımızı dəyişməsi haqqında bilgi verirəm. Sonda Tektaş bəydən xatirələrini yazıb-yazmadığını soruşuram. "Hələ o yaşa gəlmədim" deyə gülərək cavab verir. Amma növbəti görüşümüzdə ailəsi haqqında kitab yazdığını, bizdən də dəstək istədiyini bildirir.

İkinci görüşümüzdə, nəhayət ki, ailəyə verdiyimiz sözü yerinə yetirə bildik. İstanbulda yaşayan dostumuz Şəbnəm xanım (ona hədsiz minnətdarıq) dovğa bişirə biləcəyini söylədi. Oktyabrın 14-də növbəti dəfə dovğa ilə ailənin qapısını çaldıq. Özümüz də bir aydan çox idi ki, bu gözəl nemətdən məhrum olduğumuz üçün həvəslə daddıq. Hər ikisi çox bəyəndiklərini bildirdilər. Bu dəfəki görüşümüzdə ailə Əhməd və Səməd bəylərdən qalan arxivlər üzərində işləməyimiz üçün bizə icazə verdi. Arxivdən Əhməd bəyə aid xeyli fotolar, məktublar və qəzetlər tapdıq. İnşallah, tezliklə Mehdi Gəncəli tərəfindən "Əhməd Ağaoğlunun Malta məktubları" kitabı və Əhməd bəyin külliyyatının çapına başlanılacaq. Biz də əlimizdən gəldiyi qədər bu prosesə dəstək olacağıq...

P.S. *Jurnalda yayımlanan Əhməd, Səməd və Sürəyya Ağaoğlulara məxsus fotolar Tektaş bəyin arxivindəndir və ilk dəfədir yayımlanır.*

Dilqəm ƏHMƏD
İstanbul.

Yusif Vəzir Çəmənzəminli Əhməd bəy Ağaoğluna niyə müraciət etmişdi?



Əhməd Ağaoğlu

Yusif Vəzir Çəmənzəminli

Yusif Vəzir Çəmənzəminlinin 1925-ci ildə Əhməd bəy Ağaoğluna ünvanladığı məktub fikrimizcə, XX əsrin 20-ci illəri ilə bağlı mühacirətşünaslıq problemlərinin araşdırılması, həm də iki böyük tarixi şəxsiyyətin həyatının tədqiq baxımımdan mühüm əhəmiyyət kəsb edir. Bəs Əhməd bəy Ağaoğlu Yusif bəyin bu məktubuna cavab verdimi, yaxud neçə cavab yazdı, bu müraciətin Yusif bəyin sonrakı taleyində rolu oldumu? Bu suallar isə hələlik açıqdır...

Mehdi Gəncəli
Abid Tahirli

Adı türkçülük, Azərbaycan istiqlalı və Türkiyə dövlət quruculuğu tarixinə əbədi həkk olunmuş ictimai-siyasi xadim, partiya qurucusu, yazıçı-publisist, naşir, redaktor Əhməd Ağaoğlunun (1869, Şuşa-1939, İstanbul) həyatında Malta sürgünündən sonra yeni mərhələ başlayır. Bir neçə il Türkiyənin mətbuat naziri olur, beynəlxalq Anadolu Agentliyinin yaradıcısı və ilk baş direktoru, bir sıra nüfuzlu qəzetin baş redaktoru kimi də çağdaş Türkiyə KİV-nin formalaşmasında mühüm rol oynayır. Əhməd bəy XX əsrin 20-illərinin ikinci yarısında Böyük Millət Məclisinə iki dəfə seçilir.

Türkiyə Respublikasının dövlət quruculuğunda yaxından iştirak etməklə yanaşı, ciddi pedaqoji fəaliyyətlə də məşğul olur, Ankara Universitetində, daha sonra İstanbul Universitetində mühazirələr oxuyur. Digər tərəfdənsə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Türkiyədə məskunlaşmağa və bolşevik rejiminə, kommunist ideologiyasına qarşı mücadilə məqsədi ilə təşkilatlanmağa başlayan, eyni zamanda aralarında müəyyən fikir anlaşmamazlıqları və çəkişmələr olan Azərbaycan mühacirləri arasında da Əhməd bəyin böyük nüfuzu var idi. Məhz belə bir şəraitdə o zaman Türkiyədə yaşayan və Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlıdakı ilk səfiri (1919), yazıçı Yusif Vəzir Çəmənzəminlini (1887, Şuşa-1943, Nijni-Novqorod) dərindən narahat edən, ciddi düşündürən problemlə bağlı Ə. Ağaoğluna məktubla müraciət etməsi təbii idi və Əhməd bəyin Türkiyə və Azərbaycan mühacirləri arasında söz sahibi olmasına dəlalət edir.

23 Şubat 1925

Azizim Ahmet Bey!

Bir defa da zatıâlinize mektup göndermiştim. Cevap yazmamanızı, meşgalenizin kesretine atfettim. Bu defaki mektubum ister şahsî, ister umumî Türklük nokta-ı nazarından o kadar mühimdir ki cevab vermeniz ve mesele ile sıkı alakadar olmanız icab eder. Mesele budur: Müsavatçılar Türkiye'ye yerleştikten sonra kendilerini temize çıkarmak için benim aleyhime hep iyice propaganda yaydıklarını işitiyorum. Kim bilir bana neler isnad veriyorlar. Hâlbuki ben bir cumhuriyeti temsil etmiş ve vaktiyle memleketin en kuvvetli fırkası Müsavat'a mensub idim. Demeli benim etrafım-

da olunan dedikodular, muayyen fırkaya ve hükûmete aittir. Yok eğer kabahatler ayrı ayrı şahısların üzerine yüklenmek istenilirse bu doğru değil. Bu hakikatin meydana çıkması için zatıâlinizden âcizane bir ricam var. Siz benim tarafımdan hakem olunuz. Birkaç erbâb-ı namus zat davet ediniz. Benim hakkımda ne gibi kabahat biliyorlarsa söylesinler de bana atfen haber veriniz. Ben onlara birer birer cevap vereyim ki bu mesele muayyen bir şekil alsın.

Ben bir buçuk senedir ki fabrikada amelelik ediyorum. Biraderim maddi sıkıntıdan verem oldu ve hayatının son anlarını vahim bir yoksullukta geçiriyor. Alışmadığım amele hayatı eğer devam ederse benim de kabih bir akıbete uğrayacağım belli. Onun için imkân varken çok sevdiğim Türkiye ile benim aramda olan gölgeli noktaların tenvirini arzu ederim. Bu benim için bir namus meselesidir. Namus ve vicdanlara müracaat ederek hakem olmanızı temenni ediyorum. Hürmetlerimi kabul buyurunuz efendim.

Yusuf Vezirof



ƏMANƏT

Ülvimə bir məktub yazdım...!

Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm; bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm.

Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim.

İmza: B. ÜLVİ. 10.IX-89



Ülvim mənim, "And"ın Azərbaycan xalqının milli azadlıq mübarizəsində əzəmətli himndir. 20 il yaşadın. Kişi kimi yaşadın, kişi kimi getdin. Sən bu xalqın azadlıq mübarizəsi yolunda əyilməz bayrağı oldun. Qəhrəmanlıq tarixi oldun. Bu torpağın çörəyi halalın olsun!

Bu məktubu dostun, sirdaşın, bibin kimi sənin ruhuna ünvanlamışam, əziz Ülvim. Sənin adın dilə gələn kimi "And"ın qulaqlarımda eşidilir.

Ülvi, hansı duyğular ovqatında yaşadığın bu möhtəşəm "And"ından bəllidir. Dediyin mənada yaşamaq hər oğulun işi deyil, axı! İllah da dünyanın bir-birinə çırpılan vədəsində. Düşmən gülləni gözünə sıxdığı məqamda da, lap "ölüm" anında da.

Sənin sevib-sevələdiyin kasıbyana əşyalarını, qələmini, yazı dəftərini, kitablarını, hamıdan gizlətdiyin - "cızma-qara" dediyin şeirlərinin, hekayələrinin, ingiliscədən çevirmələrinin əlyazmalarını, məktublarını - bütün ədəbi irsini göz bəbəyim kimi saxlayıram. Mənim ülvi Ülvim, ötən "qara bayramlarının" aydınlığı yetsin sənə, mənə, cəmi Azərbaycana, bir də

Qarabağdı mənim dinim –imanım,
O torpağın nişanəsi, iziyəm.
Məni belə aciz görmə qəbirdə,
Qəbirdə də Qarabağın özüyəm.

- deyən eşqinə. Onda bir şeirini xatırlamamaq olmur:

Mən qorxmuram uzaq
yola çıxmaqdan,
Bu yolun, şaxtasından,
soyuğundan mən qorxmuram.
Mən qorxmuram uzaq yola
çıxmaqdan,
Bu yolun, acısından, ağrısından,
«Ölüm» adlı yuxusundan
mən qorxmuram.

Bu şeirini 1989-cu ildə hərbi xidmətdə olduğun uzaq, soyuq Sibirdə yazmısan, "Xətai" dərnəyi yaratdığın şəhərdə. Azərbaycan milli-azadlıq mübarizəsi tarixində bu duyğularınla, düşüncələrinlə, qətiyyətinlə, Şəhid adınla öz yerin var, Ülvi! Özü də ən uca yerdə, ən ülvi nöqtədə!

Ülvi, Şövgi və Könül

Ülvi və Rauf

1969-cu ildə göz açdığın dədə-baba ocağın - Göyçə mahalın, Kəsəmən kəndin düşmən tapdağında qalanda dözmədin. Ürəyin qan ağladı. Qarabağda müharibə qığılcımları közərəndə coşdun. Bir vaxtlar sovet ordusunun Əfqanıstan torpağına təcavüzünü, bizim o müharibəyə yollanan oğullarımızın nakam aqibətini gözlərin önünə gətirdin. Topxana meşəsinin ağacları doğrananda Əfqanıstan dağlarının əks-sədası qəlbinə doldu: "Ömür yolu" poemanı yazdın, hər sətir üstə titrədin:

Yox, yox, ulu torpaq,
Sənin uğrunda həmişə,
hər yerdə mərd olacağıq.

Qərib bir ruhun səsi uzaq Sibirdə hoyuna yetdi:

Aman, qardaş, doğrudurmu, deyirlər,
Gecə-gündüz qan tökülür yurdumda.
Qarabağın tarixini danırlar,
Məscid uçur, dam sökülür yurdumda.

Beləcə, Vətən duyğulu, yurd sevgili misraların, şeirlərin çoxdur. Bu şeirlərini, eləcə də "Qansızlar" povestini, bir çox hekayələrini, tərcümələrini oxuyanda gözlərim önündə poladdan tökülmüş sərt baxışlı bir əsgərə dönürsən.Ciddiliyindən, sərtliyindən, qətiyyətindən, cəsarətindən min ilin tökmə kişilərinə bənzəyirsən.

Amma, Ülvim mənim, sənin həm də çiçək qəlbin, şehli sevgi hisslərin varmış. Gözəllərə biganə qalmayan qaynar baxışların varmış. Başına dönüm sənin, demə eşq girdabında çırpınan ürəyin varmış:

Bir qız gördüm - od baxışlı,
Orta boylu, uzun saçlı.
Mənə baxıb güldü, qaçdı –
Belə gülüş görməmişdim.

Baxışı sənin qəlbini titrədən o bəxtəvər qız indi neynir, görəsən? Ömrünün köç karvanını qurmamış sevdiyin o gözələ yoxsa öz əlvidanı da demişdin?

Bu yerlərdən bahar çağı keçərdik,
Çiçəklikdən sənə çiçək seçərdik.
Ovuc-ovuc bir çeşmə su içərdik,
Ağ suyunda üzən buza, əlvida.

Ülvim belə Ülvi idin. Çiçək zərifliyiylə tərpəşən şehli misraların hər kəsin ürəyində yox yerdən sevgi hissləri oyadır. Bax, onda, Ülvim, elə bəxtəvər olursan ki, -

Titrəyən dodağın şeir istəyir,
Baxıb təmənnana, ay həsəd çəkir.
Yanır ürəyində elə bir od ki,
Bu oda, atəşə yay həsəd çəkir.

Səndən ayrılmaq olmur, Ülvi, səndən doymaq olmur. Nə yaxşı sən dünyamızda olmusan, indi də varsan, sabah da varsan. İnan, sən buna, Ülvi. Çünki gələcək nəsil səni oxuyur, Səndən örnək götürür. Kök sənsən, budağın sabahkı nəsil. Sən Azərbaycan Azadlığı uğrunda ömrünü, torpağını qızıl qanına boyadın. Qızıl qanına boyandın ki, gələcək nəsil azadlıq xoşbəxtliyini yaşasın. Bax, heç olmasa o xoşbəxtlikləri üçün səni anacaqlar, Səni sevəcəklər Ülvim.

Ülvinin ata, ana, əmi və dayıları

Ülvi, bibisi Almaz, bibisi oğlu Eldəniz Elgün və bibisi qızı Şəhla

Di, hələlik! Hə, qoy onu da deyim, sözümü bitirim. Bir şeirin heç canımdan gen durmur. Doqquzcu sinifdə oxuyanda yazmısan, ey, - "Bənövşə bayatıları". O şeirin yaman xoşuma gəlir. Sənin də xoşuna gəlirdi –

Bahar nə şirin şeymiş,
Ətri bənövşədəymiş.
Ömrüm sənin eşqindi,
Eşqin də bənövşəymiş.

Yanvarın 19-dan 20-sinə keçən gecə Bakıya girən işğalçı, rus ordusunun yolunu kəsmiş, dinc piketin güllələran edilməsinə dözməyərək, sinəsini xalqına tuşlanmış güllələyə sipər etmişdi. Yanvarın 20-də axşamüstü dostları, tələbə yoldaşları və müəllimləri onun cəsədini Semaşko adına xəstəxanadan tapdılar.

Ülvi Bünyadzadə Bakıda Şəhidlər Xiyabanında (40-cı qəbr) dəfn olunmuşdur. O, həyatını Azərbaycan xalqının, Azərbaycan torpağının azadlığı uğrunda qurban vermişdir.

* * *

Ülvi Bünyadzadənin ilk yaradıcılıq fəaliyyəti poeziya aləmi ilə bağlı olmuşdur. Uşaq yaşlarından bu sənətə öz duyğusu, hissi, duyumu ilə meyl etmiş və getdikcə həyati müşahidələri, düşüncələri ilə buna daha da bağlanmışdır. Ülvinin bütün şeirləri, yazıları onun xarakteri ilə bir vəhdətdə birləşir, bu, vətənə, torpağa, elə məhəbbət hissiylə əlaqədardır. Ülvi ədəbi fəaliyyəti üzərində ciddi işləmişdir. Həmin illərin bəhrəsi olaraq bu gün əlimizdə onun zəngin, rəngarəng və orijinal ədəbi irsi qalmışdır. Ülvinin əsərlərində ana xətt - vətən müqəddəsliyi, azadlıq duyğusu və qeyrətli vətəndaş oğul obrazının tərənnümü əsas yer tutur. Şair qəlbində baş qaldıran Milli Azadlıq eşqinin müqəddəs yolda çarpışmaqla məşələ dönəcəyinə inanır. Bu, 70 il ərzində gəldiyimiz "hamarlanmış yol" yox, milli mənliyini təsdiqləyən, vətən şərəfini ucaldan yol, cığır olmalıdır.

Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik!

- idealı ilə yaşayan şair 15 yaşında ikən Vətənə üz tutub:

Sən mənim yolumda bir məşəl kimi,
Yanırsan, məni də yandırmaq üçün.
Döyünən qəlbimin yatan səsini,
Yuxudan oyatmaq, çaxdırmaq üçün.

- misralarını yazsa da, mübarizə yolunu seçdi. Bu, Ülvinin milli vətəndaşlıq mövqeyini, qətiyyətini sübut edirdi. "Qoşqar" ədəbi birliyinin sədri, şair Namazalı Paşayev 1987-ci ildə Ülvinin ali məktəbə daxil olması münasibətilə "Daşkəsən" qəzetində dərc etdirdiyi "ÜLVİ" məqaləsində yazmışdır: "Ülvini lap çoxdan tanıyıram. Tez-tez rayon qəzetində məqaləsini oxuduqca hiss edirdik ki, o, istedadlı oğlandır. Yaxşı yadımdadır, "Qoşqar" ədəbi birliyinin növbəti məşğələlərinin birində bir məktəbli oğlan çıxış etdi. Həmin ciddi şeirlərin müəllifi məlum oldu ki, imzasına rast gəldiyimiz Ülvi Bünyadzadədir. Dərnəkdə Ülvi özünün təhlil və mühakimə qabiliyyəti ilə fərqləndi. O vaxtdan onunla dostlaşdıq. Redaksiyaya birgə gedib-gəldik, tapşırıqlar aldıq. Qəzetin növbəti nömrələrinin birində onun yazılarını oxuduqca bilirdim ki, bu gün

məktəbli olan Ülvi sabah özünə aydın yol seçməyi bacaracaqdır. O, həmişə arzu edirdi ki, gələcəkdə tərcüməçi olsun. İngilis dilindən tərcümə etdiyi kiçik hekayələr də, yumorlar da həmin arzunun təsirindən idi. Ülvi ingilis dili dərslərindən fərqlənər, əla qiymətlər alardı. Ümumiyyətlə, dil öyrənməyə çox böyük həvəsi vardı".

Ülvi ərəb, fars, latın, özbək dillərində (sərbəst öyrənməklə) yazıb-oxumağı, ingilis, rus dillərini isə mükəmməl bilirdi. Və bunların köməkliyi ilə də tariximizə aid xeyli yazılı mənbələrlə tanış olmuşdu. Xüsusi qeydlər, konspektlər dəftəri tutmuşdu. Bu qeydlər bəlkə də gələcəkdə ən sanballı bir tarixi əsərin bünövrəsi idi.

Ülvi müəllimləri, yoldaşları tərəfindən həmişə böyük hörmətlə, məhəbbətlə sevilmişdir. Məktəb illərində hazırlanan bütün tədbirlər Ülvinin təşkilatçılıq və ssenarisi əsasında aparılırdı. O, yoldaşları arasında, özünü bədii yaradıcılıqla ciddi məşğul olan bir şair-yazıçı kimi qabarıq büruzə verməzdi. Hamının könlünü ürəyindən gələn qaynar hərarətli 3-4 misra şeirlə alardı. Sərbəst mühakiməli, yüksək təfəkküründə görə yoldaşlarından qeyri-adi dərəcədə fərqlənərdi. Bədii sənət haqqında söhbətlərini isə atası yaşda olan kişilərlə, "Qoşqar" ədəbi birliyinə toplanan şair və yaradıcı ziyalılarla edərdi. "Bir tikə məktəb uşağı" olduğu halda, çəkinmədən onlarla ciddi mübahisələr edər, oxuduqları yazılara öz tənqidi münasibətini bildirərdi.

Ülvinin ilk şeiri "Qoşqar"ın təqdimatıyla mətbuatda dərc olunmuşdur. Şeir dodaqdəyməz şəklindədir: lirik, gözəl, bir az kövrək, bir az titrək, bir az həssas və yanıqlı hisslərdən ibarətdir.

Səyyaddan sayalanan,
Ahlı-nalalı ceyran.
Gəldi səyyada sarı,
Qaldı yaralı ceyran.

Onda musiqi duyumu güclü idi. Və təsadüfi deyil, bir çox milli musiqi alətlərimizdə gözəl ifaları ilə məktəbdə keçirilən ayrı-ayrı yığıncaqlarda, görüşlərdə müəllim və şagird kollektivinin dərin rəğbətini qazanmışdı. O, qarmon, tar, saz, piano, kamança və s. musiqi alətlərində çalmağı bacarırdı.

Millətimizin müstəqil Azərbaycan dövləti yaratmaq mübarizəsi yolunda Ülvi bütün fikrini bir səmtə yönəltdi: fəal, sıravi cəbhədaş oldu. Bütün ali məktəb tələbələri arasında böyük nüfuz qazandı. 1989-cu il idi, əsgəri xidmətdən yenicə qayıtmışdı.

* * *

Ülvi əsgərlik illərindəki məktublarının birində yazır: "Daha bir hadisə barədə. Burada xidmət edən azərbaycanlılar (mənim təşəbbüsümlə) "Xətai" adlanan bir dərnək təşkil ediblər. 20 nəfər üzvü var, namizədlər yenə az deyil. Məqsədimiz Azər-

baycanda baş verən hadisələri, ümumiyyətlə, onun dərdlərini, çatışmazlıqlarını müzakirə etmək, qərar çıxarmaq, şuramızın adından müəyyən ölçülər götürməkdir... Özümüzün Proqram və Nizamnaməmiz var. Hamımız təntənəli surətdə and içmişik. Görək bu böyük işimizin axırı nə olacaq. Məni şuramızın sədri seçiblər".

Bunlar Ülvinin uzaq Sibir torpağından Vətənimiz sarıdan keçirdiyi nigarançılıqlarının əks-sədasıdır, vətəndaş qayğısıdır. Respublikada baş verən bütün hadisələrə öz münasibətini məktubları vasitəsilə hökmən bildirərdi. Hər xırda şey haqqında olan narahatçılıqlarını öyrənməyə çalışırdı. Başqa respublikalarda gedən ictimai-siyasi prosesləri izləyir, müqayisə edir, bir vətən fədaisitək soyuq Sibir torpağında çırpınırdı. Vətən ağrılarını daim içində, könlündə gəzdirən Ülvi başqa bir məktubunda qayğılı-qayğılı yazdı: "Xeyli vaxtdır ki, məktub almadığıma məyus olmuşam". Müharibədən sonrakı illəri, xüsusən 70-80-ci illəri "durğunluq" dövrü adlandırdılar. Ancaq əslində bu dövr "Milli oyanış - özünü dərketmə" illəri idi. Milli ideologiyada baş verən bu inqilabi inkişaf ilk dəfə ədəbiyyatda - "altmışıncılar" deyilən nəslin fəaliyyətində də təzahür etdi. Nəsrdə də, poeziyada da "kökə qayıdış" hiss olunmağa başlayırdı. Bu vəziyyət təkcə Azərbaycanda deyil, SSRİ-də yaşayan bütün qeyri-rus millətlərin yaşadığı torpaqlarda yetişmişdi. Ümumittifaq siyasi böhranı, inqilab partlayışı gözlənilirdi, bu da indiki Rumıniya hadisələrinə bənzər bir çevriliş ola bilərdi. Lakin bu vaxt Qorbaçov hakimiyyət başına gəldi. O öz "yenidənqurması", "aşkarlığı" ilə bu partlayışın qarşısını müvəqqəti olaraq aldı, bolşevizmə məlakə donu geyindirməyə çalışdı. Lakin bunun üstü tez açıldı və hamı "durğunluq" dövrünün "Qorbaçov bataqlığı" dövrü ilə əvəz olunduğunu dərk elədi. Ümumxalq hərəkatımızın məqsədi bu "bataqlığı" yox eləməkdən, ən son nəticədə Azad, bütöv Azərbaycan Xalq Cümhuriyyəti qurmaqdan ibarət idi».

Bu mübarizədə gəncləri real, qüvvətli, cəsur və güclü qüvvə təki görürdü, gözünü onların gücünə dikirdi. Hələ "cəbhə", "birliklər" yaranmadığı bir dövrdə də bunlar Ülvinin könlündən keçən planlar idi. "Ancaq bir yerdə birləşib mübarizə aparmaqla qalib gəlmək olar" - deyə məktublarında da, publisistik yazılarında da, şeirlərində də, nəsrində də ancaq bu cür duyğularla yaşayırdı.

1990-cı ilin 10 yanvar tarixində qələmə aldığı bir publisistik məqaləsində yazmışdı: "Azər xalqının milli müstəqilliyi və demokratiya uğrunda apardığı mübarizə bu gün özünün tarixə qanla yazılacaq, əbədi həkk olunacaq günlərini yaşayır. Günü-gündən mövcud hərbi-polis rejiminin iç üzü açılıb tökülür, onun birdəfəlik dağılması üçün zəmin hazırlanır. O da aydın olur ki, azərlərin indi tam çılpaqlığı ilə görünən milli faciəsi on ilin, iyirmi ilin deyil, bir neçə əsrin bəhrəsidir...

Almaz Ülvi

Mənəviyyatımızın QARACAOĞLANı

İnsanın mənəvi ucalığa çatmasına xalq ruhundan doğulmuş sənətkarların böyük təsiri olur. Belə sənətkarlar öz yaradıcılıqları ilə həmişə yaddaşlarda dərin kök salır, xalq isə öz əxlaqi dəyərlərini onların timsalında yaşadır. XVII yüzilin böyük türk ozanı Qaracaoğlanın (təxminən 1606-1679) həyatı və yaradıcılığı da özündən sonrakı ozan-aşıq sənətinə və aşıq şeirinə əhəmiyyətli təsir göstərib. Qaracaoğlanın şeirləri Azırbaycanda da geniş yayılıb, aşıqların və xalq şeiri bilicilərinin diqqətini çəkib.



Qaracaoğlana qədər türk ozan sənəti zəngin yol keçsə də (Yunus İmrə, Qurbani, Pir Sultan Abdal, Öksüz Dədə, Qol Mehmet və b.) aşıq şeir dilini cilalayıb örnək səviyyəsinə qaldırmaq yolunda onun xidməti danılmazdır. O, özündən əvvəlki ustadların yaradıcılığından yararlanmaqla xalq dilindən qaynaqlanan sadə, aydın və dərin mənalı poetik nümunələr yaratdı, həm də öz üslubunu və yolunu formalaşdırdı. Qaracaoğlanın bu uğuru özündən son-

rakı aşıq şeiri ustadlarının yaradıcılığına da təsir göstərdi. Başqa sözlə desək, o, nəsillər arasında varislik körpüsü saldı, xələfləri Dadaloğlu, Bəyoğlu, Aşıq Ələsgər, Dərdli, Seyrani, Aşıq Veysəl və bir çox saz-söz əhli böyük sənət aləminə həmin körpüdən keçməklə qədəm qoydular.

Doğulduğu yer haqqında bir çox rəvayətlər dolaşsa da, daha çox Türkiyənin Osmaniyyə vilayəti Fərsax kəndində dünyaya gəldiyi güman edilən, "Könül, Sənə məkan tapdırmadım", - deyən Qaracaoğlan (müxtəlif fərziyyələrdə əsl adının Mehmet, Həsən, Xəlil, yaxud İsmayıl olduğu qeyd edilir) əksər ozanlar kimi, tərki-vətən olub dərvişsayağı Balkan ölkələrini, şərqi, bütövlükdə türk ellərini gəzib. "Göyçədən Ağrıya uzanan yolları biləyinə dolayan Qaracaoğlan qoşqular qoşdu, ürəkürkək kəlmələr söylədi, südlü-qaymaqlı düzgülər düzdü. Onun sözüsovu kərə yağı oldu, ürəklərə yayıldı, cana sindi, kösöv olub donmuşları yandırdı, yananların oduna od qoydu" (Prof. K.Vəli Nərimanoğlu).

Professor Qara Namazov haqlı olaraq qeyd edir ki, Azərbaycan Qaracaoğlanın ikinci vətənidir. Neçə əsrlərdir ki, bu Haqq aşığının şeirləri Azərbaycanda "xalq mahnıları" adı ilə saz havalarının qanadında ellərimizi oymaq-oymaq gəzib dolaşdı, könülləri fəth etdi. Beləcə, ozan-şairin poetik siqləti ümumtürk mənəvi sərvətimizə çevrildi. Onun haqqında yaranmış neçə-neçə dastan-rəvayətlər məhəbbəti ömürdən uca tutan bu bənzərsiz eşq əhlinə hörmət və diqqətin miqyasını bir daha təsdiq edir.

Qaracaoğlana hüsn-rəğbət təkcə xalq kütlələrinin deyil, ayrı-ayrı dövrlərdə yaşamış ustad Azərbaycan aşıqlarının da diqqətini çəkib. Onun zərif duyğuları incə zövqlə tərənnüm edən poetik tapıntılarına heyrətlərini gizlədə bilməyən onlarla saz-söz əhli Qaracaoğlanın şeirlərinə, rədiflərinə bənzətmə və nəzirələr yazmışlar. Bu baxımdan, Qaracaoğlanın sehirli təsiri XVIII əsrin sonu-XIX əsrin birinci yarısında yaşayıb-yaratmış Yəhya bəy Dilqəmin yaradıcılığında daha aydın duyulur. Oxşar taleli insanların şeirlərində eyni üslub, yaxın bədbin notlar, küskün əhvali-ruhiyyə üstünlük təşkil edir:

Qaracaoğlan:
O görünən dağın başı qarmola?
Ətəyində qönçə gülü varmola?
Həsrətindən yaş axıdan yarmola?
Bülbül güldən, mən yarımdan ayrıldım.

Yəhya bəy Dilqəm:
Ərizə yazaram səba yelinnən,
Ərizəm canana yetişərmola?
Fələk məni tərki-vətən eylədi,
Nazlı yar əhvalım soruşarmola?

Qaracaoğlanın poetik nəfəsi şeirlərində açıq-aydın duyulan el şairlərimizdən biri də Molla Cümədir. Bu məqama xüsusi diqqət göstərən araşdırıcı, professor Sədnik Paşayev haqlı olaraq yazır: "Bir çox sənətkarlar Qaracaoğlan poeziyasının cazibəsindən çıxa bilmədiyi kimi, Molla Cümə də onun "Bənzər" gəraylısının təsirindən kənarda qala bilmə-

Fərhad XUBANLI,
Pedaqoji elmlər üzrə fəlsəfə doktoru

yib". Hər iki söz sərrafının eyni rədiflə eyni obyektlərə müraciət etdikləri gəraylının bəzi məqamlarına diqqət yetirək:

Qaracaoğlan:
Gəlin hurilərdən biri,
Qızsa mələklərdən biri.
Gəlin köksü busə yeri,
Qız tumurcuq gülə bənzər.

Molla Cümə:
Bulaq üstdə bir qız gördüm,
Kəsilməmiş nara bənzər.
Yanında bir gəlin durmuş,
Ağ sinəsi qara bənzər.

Hər iki sənətkarın yaradıcılığından götürdüyümüz cəmi bir bənd də müqayisələr aparmağa imkan verir. Göründüyü kimi, Molla Cümə səsin pərəstiş etdiyi ustadı Qaracaoğlanın səsinə qatmaqla öz şeirinin ahəngini sələfinin əsərinin notlarına kökləyə bilib. Buna görə də sə-



sindən sətrinə, vəznindən rədifinə kimi diqqət çəkən oxşarlıq, ritm və axıcılıq oxucunu heyran edir. Ən önəmlisi budur ki, hər iki söz ustası orijinal bədii təsvir və ifadə vasitələrindən yararlanmaqla heç vaxt təravətini itirməyən, biri digərindən geri qalmayan sənət əsərləri yaratmışlar.

Heç şübhəsiz, Aşıq Alı, Aşıq Ələsgər kimi, söz xiridarları da ünlü bir türk xalq şairi ilə sənət yarışına çıxmağı özlərinə borc biliblər. Xüsusilə Aşıq Ələsgərin şeirlərinin ruhunda Qaracaoğlanın təsiri aydın hiss edilir.

Qaracaoğlan:

Atlılar dağları aşır,
Badələr dolduqca daşır.
Ay gözəl, turuncu düşür,
Qoynundan xəbərin varmı?

Aşıq Ələsgər:

Daha düşübsən hənəkdən,
Suyun qurtarıb sənəkdən.
Məmən çıxıbdı köynəkdən,
Tülündən xəbərin varmı?

Hər iki sənətkar müxtəlif zamanlarda və məkanlarda yaşasalar da, gəraylı və qoşmalarındakı ruhi bağlılıq onları eyni bir poetik orbitdə birləşdirir.

Qaracaoğlan şeirini Azərbaycan aşıq poeziyası ilə bağlayan, doğmalaşdıran oxşarlıqlar bir deyil, beş deyil, onlarladır. Bütün bunlar bir daha onu göstərir ki, Qaracaoğlanın yaradıcılığı zəngin ədəbi hikmət məktəbi olub, orta əsrlər məktəbinin çığırdaş sənət nümunələri ondan sonra gələn saz-söz əhlinə bələdçilik edib:

İnsanın kəmağlı yaxşılıq bilməz,
Qursaqsıza öyüd versən də almaz.
İnsan çiy süd əmmiş, etibar olmaz,
Qapında xidmətkar qulundan çəkin.

Heç şübhəsiz, "Çəkin" rədifli bu klassik nəsihətnamə gələcəkdə yaranacaq ustadnamələrin mövzu dairəsini daha da genişləndirdi, zənginləşdirdi və inkişafına rəvac verdi. Bu xoş sözləri ustad sənətkarın "Nədir?" bağlamasına da şamil etmək olar:

Yıxılmaz Mövlanın yapdığı yapı,
Haqq Məhəmməd dini – tapdığım tapı.
On iki bağçada qırx səkkiz qapı,
Önündə gözləyən iki qul nədir?

Filoloji tədqiqatlar təsdiq edir ki, mühüm dini-elmi səciyyə daşıyan klassik bağlamanın bu sadə nümunəsi saz-söz sənəti tarixində müəyyən mərhələ keçib aşıq şeirinin qanuni növlərindən birinə çevrildi. Məzmun, forma və məndəricə etibarı ilə zənginləşən müasir aşıq sənəti əlbəttə ki, Qaracaoğlan kimi ulu sələflərinə minnətdardır.

Aşıq Ələsgər

* * *

"Eşq yolunda yandıraram özünü", - deyən Qaracaoğlanın həyat və yaradıcılığında məhəbbət insanı mənəvi cəhətdən ucaldan, onun məğrurluğunu təsdiq edən əsas keyfiyyətdir. Onun şeirlərində bu hiss intim-subyektiv münasibətlər çərçivəsindən çıxıb bəşəri məzmun kəsb edir, ağıla, hiss və düşüncəyə qida vermək qüdrətinə malik olan bir vasitəyə çevrilir. Bolqar tədqiqatçısı Rza Mollov haqlı olaraq yazır ki, "Qaracaoğlan ədəbi aləmə təkcə türk gözəlini tərənnüm edən bu cür şeirlərini versəydi belə, yenə ədəbiyyatdakı ölməzlər arasında nəhəng söz adamı kimi öz yerini tutacaqdı".

Ustadın gözəlləmələrində zahirən adi görünən söz və ifadələr fikrin dərin qatlarından xəbər verir. Təbiətin sevdalanan vaxtında qoynuna qışın qəhrindən çıxıb gəlmiş gözəlin tərifini bundan gözəl vermək çətindir:

Şükür olsun ol Xudaya,
Yenicə yazlar gələyir.
Muştuluq sənə, söyüdlər,
Kölgənə qızlar gələyir...

Qaracaoğlan təkcə salxım söyüdə yox, əlvan xəzəllərə, qarlı dağlara, hətta yağıdan qalmış körpülərə belə xəbərdarlıq edir, onları qaragözlü qızların qulluğunda durmağa çağırır. Bu da onun könül açdığı elat gözəllərinə verdiyi ən böyük dəyərdir.

Qaracaoğlan qadına, qız-gəlinə dəfələrlə müraciət etsə də, həmişə eyni obyektə yeni poetik nöqtədən baxmağı bacarır. Bu da onu yersiz təkrarçılıqdan qoruyur, oxucu eyni mövzuda müxtəlif zahiri və mənəvi keyfiyyətlərin ifadəsini görür:

Bədirlənib doğdun uca fələkdən,
Camalın seçilməz huri-mələkdən.
Məxmər köynəyini atdın biləkdən,
Güntəkparlar qolun-əlin, sevdiyim.

"Harda gözəl varsa, orda qalarsan", - etirafı ustad Qaracaoğlanın həyatında əbədi sevərliyin tərcümanıdır. Dəlilik – Məcnunluq mərtəbəsinə yüksəldiyindən onun Eşqdən, Böyük Ağrıdan, Mərhəmətdən danışmağı gerçək görünür. Odur ki, Eşqin yükü bəzən ömrün digər yüklərindən ağır olanda lirik "mən"in içindəki İlahi Eşqin qüvvəsi ona hər bir çətinliyi unutdurur. Beləcə, məhəbbətin hikmətini şeirə hopdurub misra-misra oxucularına ötürür, özünün dərdinə şərik edir, "Pir olmayan eşqə gəlməz" hikmətini anladır:

Qaracaoğlan, o da yanar kül kimi,
Saç üzündə sıralanıb tül kimi.
Bahar çağı bağda açan gül kimi,
Qoxan dilbər məni Məcnun eylədi.

Qaracaoğlanın poetik irsi bizə həm də gözəllə gözəlliyin vəhtətini çatdırır. Bu baxımdan, onun bədii düşüncəsində təbiətin xüsusi yeri var. Göylərin durna qatarı, dağların sis-dumanı, yaylağın sərin mehi, hətta ilk baharın tənha gözəli olan bənövşənin duruşu onun duyğularına təsir edir:

Yaz gələndə həvəslənib bitərsən,
Yay gələndə ləçək salıb gedərsən.
Axı neyçün boynun əyri tutarsan,
Bəyəm, dərdin məndən betər, bənövşə?

Ustad "Dağlar var", "Gümanım dağlar", "Üzü dağların", "Yaylanın"

və b. şeirlərində dağlara sevgisini də, gileyini də misralara hopdurub.

* * *

Bəxtinə qürbət ağrıları düşən Qaracaoğlanın yadına xalqın lətafətli dili, məmləkətinin gözoxşayan çölləri, güllərinə sığal çəkən yelləri düşəndə dil, çöl və yel nisgili çəkir, "Bu dil bizim dillər deyil", "Bu çöl bizim çöllər deyil", "Bu yel bizim yellər deyil" kövrək misraları qərib ruhunun pıçıltısı kimi səslənir. Ustadın Vətən, Torpaq, Yurd sevgisinə həsr olunmuş şeirləri bəşəri sevgisinin tərkib hissəsidir:

Zirvəsində nəmli-nəmli qarım var,
Obasında ala gözlü yarım var.
Neçə ildən bəri intizarım var,
Yol ver, dağlar, vətənimə gedəyim.

Qürbət ağrısı hopmuş misralar uzunmüddətli intizardan, həsrət dolu sevgidən yaranıb, bu səmimi duyğular da onu Vətən məhəbbətinin nəğməkarına çevirib. Dərd əlindən dərbədər düşən ustadın üz tutduğu məkanlar bəlli olsa da, bu səfərlər onun özünüaxtarışı kimi səciyyəvidir. Nəhayət, qürbətin hər üzünü görən ustad məşhur atalar sözünün yeni poetik libasda ifadəsini yaradıb:

Qürbət eldə şahtək ömür sürməkdən,
Vətənində yoxsul olmaq xoş imiş.

Qaracaoğlana ümumxalq sevgisinin bu qədər geniş miqyas almasının bir səbəbi də onun soy-kökünə bağlılığı və gen yaddaşına sədaqəti, vəfanı, duğruluğu, halallığı vəsf etməsi, mənəvi neməti maddi nemətdən uca tutması, yolunu azanları, nadanları, naxələfləri tənqid etməsidir. Bu dəyərlər onun nəsihətnamələrində özünü xüsusilə aydın göstərir:

Yoldaş olma yolun azan yolsuza,
Könül vermə dilbilməzə, karsıza.
Meyil etmə ədəbsizə, arsıza,
Axırda irzinə hiylə gətirər.

Göründüyü kimi, böyük xalq ozanı həm də sonsuz ağıl və idrak sahibidir. Onun poeziyası incə zövqləri oxşayan gözəl sənət əsərləri kimi diqqəti çəkməklə yanaşı, hikmətin dərinliyinə, nəsihətin yükünə görə də təqdirəlayiqdir.

Qaracaoğlanın poeziyasındakı dil gözəlliyi, təşbehlər, mübaliğə, lilotalar (yunan sözü olub "kiçiltmək", əhəmiyyətsizləşdirmək" deməkdir) aşıq şeirinin bugünkü tələbləri baxımından da maraqlıdır. Onun örnək misralarının və bədii ifadələrinin əksəriyyəti (məsələn, "İgid kölgəsində igid gizlənər", "igidin ilqarı, gözəlin sözü, Təzə yağı bala qatmış kimidir", "Od düşdüyü yeri ütər, Zimistanda gülmü bitər?" və s.) xalq arasında zərb-məsəl, öyüd-nəsihət kimi də işlənir.

Qaracaoğlanın həyat və yaradıcılığı türkiyəli tədqiqatçılarla yanaşı, Azərbaycan şifahi xalq yaradıcılığı araşdırıcılarının da diqqətini çəkib. 1920-ci illərdən başlayaraq Salman Mümtaz, Hümmət Əlizadə, Rəfiq Zəka Xəndan, Sədnik Paşayev, Rüstəm Rüstəmzadə, Azad Nəbiyev, Kamil Vəli Nərimanoğlu kimi adlısanlı alimlər ustada elmi məqalələr həsr edib, şeirlərindən nümunələr gətiriblər. Filoloq alim Xalidə Quliyeva-Qafqazlı Qaracaoğlanın həyat və yaradıcılığından aydıca monoqrafiya ("Elm" nəşriyyatı, 1985) yazıb, İsmayıl Ömərоğlu və professor Qara Namazov isə Qaracoğlanın "Aramızda qarlı dağlar dayanıb" adlı kitabını ("Yazıçı", 1991) hazırlayıb nəşr etdiriblər.

Şübhə etmirik ki, böyük türk ozanının həyat və yaradıəcılığı bundan sonra da araşdırıcıların diqqətindən kənarda qalmayacaq.

Erməni komiteti tərəfindən öldürülən Məmmədqulubəy Kəngərli kimdir?

Nuran Gündüzoğlu
tədqiqatçı-yazar

İkinci Dünya müharibəsindən sonra 200.000-dən çox fransız yaddaşını itirmiş vəziyyətdə Parisə geri qayıtmışdı. Əsir düşərgələrində elə işgəncələrə məruz qalmışdılar ki, adlarını belə xatırlaya bilmirdilər. Tibbi qeydlərdən sadəcə 32 nəfərin kimliyi aydınlaşdırılmışdı. Digərlərinin şəkilləri ölkədəki bütün qəzetlərin ilk səhifələrində yayımlanmış, qohumlarının müəyyən bir gündə Parisdə toplanmaları istənmişdi. Həmin gün meydan insanla dolmuşdu. Əsirlərdən biri ağır addımlarla səhnəyə çıxıb yüksək səslə soruşdu: "Burda mənim kim olduğumu bilən varmı?"

Bəs biz kim olduğumuzu, nələrə qadir olduğumuzu, nə üçün yaşadığımızı, harda olub, hara getdiyimizi bilirikmi? "Hə" deyəcək insan sayı azdır. Çoxumuz sadəcə nəfəs alırıq. Həyatımızı ətrafda gördüyümüz həyatlara uyğun formalaşdırırıq: ...universitet, iş, evlilik, törəmə... Çoxumuz bunları nə üçün etdiyimizi düşünmədən sadəcə ətrafdakılar edir deyə təkrarlayırıq. Ali təhsil aldığı sahənin Yer kürəsində nə işə yaradığını, buna nə üçün vaxt sərf etdiyini, çalışdığı işin puldan başqa həyatına nə qatdığını, nə üçün evləndiyini, törədiyini bilməyən, başqaları edir deyə sürüyə qoşulub korkoranə təkrarlayan hədəfsiz minlərlə insanımız var.

İdarə olunmaq üçün yaşayan belə kütlədən əlavə, idarə etmək üçün mövcud olan təbəqə də var. Əgər ətrafda daha çox gördüyümüz həyat tərzini təkrarlamağa meyilliyiksə, deməli, etdiyi faydalı işlərlə ölkəyə yararlı olmuş, olan şəxsiyyətləri xüsusilə gənclərimizə təbliğ etməklə onlarda buna həvəs yarada bilərik. Nəticədə, insanların təkrarlama xüsusiyyətini faydaya çevirmiş olarıq.

Həyat yolu gənclərimizə nümunə ola biləcək şəxsiyyətlərimizdən biri M. S. Ordubadinin barəsində "Milləti uğrunda Fransanın "Folyeşe"ləri qədər xidmət etmişdir desəm, yenə az söyləmişəm. Bunu dəxi etiraf etməlidirlər ki, sair millətlərdə belə aliqədr kimsələrin heykəli-yadigaranəsi tökülüb, zamandan-zamana, əsrdən-əsrə yadigar buraxılır" yazdığı Məmmədqulubəy Kəngərlidir.



1864-cü ildə Naxçıvanda mayor ailəsində doğulmuş Məmmədqulubəy Kəngərli Tiflis Hərbi Məktəbində, daha sonra Peterburqdakı Mixaylovski Ali Topçu Məktəbində təhsil almış, tələbə ikən unter-zabit rütbəsi qazanmışdır. On illik səmərəli hərbçi fəaliyyətinə baxmayaraq, xalqa birbaşa xidmət etmək üçün 1893-cü ildə ştabs-kapitan rütbəsində istefaya çıxmış, imtahan verərək vəkillik hüququ qazanmışdır. Vaxtilə "Həyat" qəzetində onun məhz bu yolu tutması belə izah olunur: "Bildi ki, İrəvan quberniyasının müsəlmanları əməlsizlikdən, dövlətin qanunu, məmurların ixtiyarlarını bilməmələrindən hər an bir müsibətdən digər bir bəlaya düçar olurlar".

M. Kəngərli hərb, hüquq sahələrindən sonra məktəbdarlığa yönəlir. 1901-ci ildə uğurlu nümunə dərsi keçir və ona İrəvan quberniyası Xalq Məktəbləri Direktorluğu tərəfindən müəllimlik vəsiqəsi verilir. Həmin il şəxsi hesabına qızlar gimnaziyası açır, 18 nəfər şagirdlə fəaliyyətə başlayır.

Vəkil kimi Qafqazda, Rusiyada şöhrət qazanmış M.Kəngərlini azərbaycanlıların hüquqlarının erməni və digər xalqlarınkından aşağı olması narahat edirdi. Bu məqsədlə 1904-cü ildə Peterburqa getmiş, Çar Rusiyasının Qafqaza rəhbərlik edən rəsmi nümayəndələri, daxili işlər naziri ilə görüşmüşdür. Millətlərarası münasibətlərin kəskin olduğu həmin dövrdə bu hərəkəti ilə M. Kəngərli erməni millətçilərinin qara siyahısına düşdü. Peterburq səfərindən sonra onu öldürməyə fürsət axtardıqlarını anlayan Kəngərli 1905-ci ilin 1 iyununda qızlar gimnaziyasının fəaliyyətini dayandırdı. Erməni terrorundan xilas olmaq üçün Parisə getməyə hazırlaşır, ancaq orda da sakit oturmaq fikrində deyildi. "O aşiqi-millət istəyirdi ki, tələbələri Parijə təhsilə aparıb, bu barədə qafqazlılara bir qapı açsın. İstəyirdi ki, Qafqazdan tələbə getməyə vasitə olub, bir dairə içində sıxışıb qalan müsəlmanlara o mənbəyi-fənn və hünəri tanıtsın".

1905-ci il avqustun sonu 41 yaşında, bacısıoğlu ilə birlikdə Fransaya gedəcək gəmiyə biletini alıb, dostlarına məktub yazıb: "Batumdayız, bilet aldıq. Bir saatdan sonra firəng gəmisinə minəcəyik. Vətənim, millətim heç vaxt yadımdan çıxmayacaqdır. Xidmət yer ilə deyil, insanın özü ilədir...", ancaq göndərməyə ömrü çatmamış Məmmədqulubəy Kəngərli, erməni komiteti tərəfindən göndərilmiş üç erməni tərəfindən xəncərlə öldürülür.

M. Kəngərli C. Məmmədquluzadənin yaxın dostu, ikinci həyat yoldaşının qardaşı olmuş, "Poçt qutusu" hekayəsini bəyənib Cəlili Tiflisdə "Şərqi-Rus" qəzetinin redaktoruna təqdim etməklə onun mətbuat dünyasına daxil olması ilə bağlı taleyində mühüm rol oynamışdır.

"Həyat" qəzetində "Şüa" imzalı bir müəllif onun ölümünə təəssüfünü belə bildirmişdir: "Məhz millət yolunda qurban olan böylə bir vücudi-müqəddəsin tərcümeyi-halını yazmaq, bilməyənlərə tanıtmaq, onu bilən hər sahibi-qələmimizin əlbəttə, ən birinci borcudur".

Hamı yaşayır, hamı ölür. Kimlərinsə yaşaması, ölməsi hiss olunmur, kimlərinsə yaşaması dəhşət, ölümü sevinc, kimlərinsə də yaşaması sevinc, ölməsi dəhşət olur. Hansını hədəf götürəcəyimiz öz şüurumuza qalır.

Ölümsüzlük axtaran ÇINGIZ XANIN çinli alimə məktubu

Ölümsüzlük axtarışında olan Çingiz xan 1219-cu ildə dövrünün böyük Çin alimi Çanq Çuna məktub yazaraq onu hüzuruna dəvət edir. Çingiz xanın məktubunu oxuyan çinli alim ona cavab yazır. Necdet Bayraktaroğlunun araşdırmalarından əldə etdiyimiz hər iki məktubu təqdim edirik:

Çingiz xanın yaşlı vaxtları idi. Həmin dövrdə də Çində Tao inancına söykənən din vardı. Həyatını həmin dinə həsr edən Çinin böyük alimlərindən olan Çanq Çun əbədi həyatı tapmaq üçün öz dini inancını yaşayırdı. Çingiz xan alimin yaşamını araşdırandan sonra düşünüb ki, o sehribaz ola bilər. Ancaq buna baxmayaraq, alimi həm Çingiz xan, həm də Çin imperatoru öz tərəfinə çəkməyə səy göstərirdilər. Lakin alim də ona edilən təklifləri rədd edərək Çantuq dağlarına xəlvətə çəkilir. Çingiz xan isə alimlə görüşüb onun inanc və fikirləri ilə tanış olmaq istəyində idi. Bu məqsədlə də çinli alimlərin də müşayiəti ilə 1219-cu ildə alimə belə bir məktub göndərir:

"Ulu Tanrı Çindən əlini çəkib, səbəbi isə Çinin lovğalıq etməklə bərabər, israfçılıq edərək dəbdəbəli həyat sürməsidir. Halbuki Şimalın ucsuz-bucaqsız çöllərində mənim zərrə qədər gözüm yoxdur. Dəbdəbəli həyat sürməkdən nifərt edirəm və ölçülü-biçili hərəkət edərəm. Mənim ancaq bir tikə çörəyim və bir çuxam var. Çobanlarım kimi sadə yeyər və sadə geyinərəm. Bütün xalqı övladlarım kimi sevirəm. Məharəti olanlarla da qardaşım kimi davranıram. Əsgərlərlə təlimlərdə hər zaman ön cərgədə oluram və döyüşdə də heç vaxt geridə qalmıram. Yeddi il ərzində böyük bir əsər yaratmağa müvəffəq olub, bütün dünyanı bir imperatorluqda birləşdirdim. Şəxsən özümü də bir o qədər qabiliyyətli hesab etmirəm. Lakin Çin hökuməti xaindir. Buna görə Ulu Tanrı taxtlarını ələ geçirməkdə mənə kömək edir. Cənubda Sunq, Şimalda HuiHuo, Şərqdə Hsia, Qərbdə barbarlar hakimiyyətimi qəbul ediblər. Mənə elə gəlir ki, Hunlardan sonra Asya belə geniş imperatorluq görməyib. Tutduğum

yol uca bir yoldur, ancaq çiynimi verdiyim iş ona nisbətən çox ağırdır. Buna görə də idarəetmədə bir sıra nöqsanların olmasından qorxuram. Bir çayı keçmək üçün qayığa nə qədər ehtiyac varsa, dövləti idarə etmək üçün də təcrübəli, kamal sahibi olan şəxslərə ehtiyac var. Taxta çıxdığım gündən xalqımın idarə edilməsi məsələsində narahatam. Fəqət üç və doqquzların yerlərini tutan adamları tapa bilmirəm. Eşitdiyimə görə, həqiqəti əxz edərək doğru yolda irəliləyirsiniz. Kəramətiniz sayəsində bütün insaların uca xüsusiyyətlərini bilirsiniz.

Əlinizi dünyadan çəkib uzun müddət mağaralarda yaşadınız, fəqət, kəramət sahibi olan insanlar belə, hissə-hissə sizin yanınıza gəlirlər. Çanqutda olduğunuzu bilirəm. Sizi unutmasam da, lakin yüksək dağlar və ovalar bizi bir-birimizdən ayırıb. Sizinlə görüşməyə imkan yoxdur. Gəlsəydiniz taxtımdan enib yanında duraram. Su ilə təmizlənib oruc tutdum. Aramızda olan məsafədən çəkinmə, müqəddəs ayaqlarını tərpətmən üçün sənə yalvarıram. Qum çölləri səni narahat etməsin. Xalqın bügünkü vəziyyətinə baxıb mərhəmət edin. Halıma acıyın, ölümsüzlüyün sirrini mənə deyin, şəxsən xidmətində özüm duracam. Söyləyəcəyin tək bir söz məni xoşbəxt edəcək. Fikirlərimi məktubum vasitəsilə göndərir və məni anlayacağına ümid edirəm."

Yaşlı alim məktubu oxuduqdan sonra Çingiz xana belə bir cavab yazır:

"Uca fərmanınızı aldım. Bəyan edirəm ki, dəniz sahilinin yaxınlığında yaşayan xalq qabiliyyətsiz insanlardır. Mən də etiraf edirəm, dünya işlərindən bir o qədər anlamıram. Lakin Taonun tədqiqatı ilə bağlı imkanım daxilində buna baş vursam da ancaq müvəffəq olmamışam. Qocalmışam, ancaq ölməmişəm. Şöhrətim hər ölkəyə yayılıb, fəqət müqəddəsliyimə gəldikdə isə mənim də adi insanlardan bir fərqim yoxdur.

Daxilimə baxdığım zaman özümdən utanıram. Mənim gizli düşüncələrimi kim bilir? Sizdən əvvəl Kin və Sunq imperatorluqlarından dəvət alsam da getmədim. Fəqət, indi Moğol sarayından gələn ilk dəvəti qəbul etməyə hazıram. Nə üçün deyəcəksiniz? Çünki Tanrı sizə indiyə qədər görülməyən və bundan sonra da görülməyəcək bir mərdlik verib. Çin xalqı və barbarlar sizin hakimiyyətinizi qəbul ediblər. Mən də hüzurunuza çıxmaq üçün qar fırtınalarına sinə gərərək gəlməyə qərar verdim."

Bir il sürən uzun və yorucu səfərdən sonra alim Çanq Çun, Çingiz xanla İndüs sahillərində görüşür. Çingiz xan alimi qarşılayaraq ona: *"Möhtərəm ustad, uzaq yollardan gəlmisən. Ölməmək üçün əlində dərmanın varmı?"* – deyincə, alim:

"Hayatı uzatmaq üçün çarə var, lakin ölümə çarə yoxdur" – deyir.

Söhbətləri zamanı Çanq Çun Çingiz xana həyatın necə yaşanmasını və ömürü uzatmaq üçün nələr edilməsinin vacib olduğunu anlatdı. Alimin sözlərinə görə, insanlar 130 yaşına kimi yaşaya bilirdi.

Rəşad Sahil

I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DÜNYASI (Cənubi Sibir türkləri)

I Ümumittifaq Türkoloji Qurultaya Türk Dünyasının bir çox yerlərindən nümayəndələr dəvət olunmuşdur. Onların arasında Cənubi Sibirin türk boylarını təmsil edən cəmi iki nümayəndə vardı. Onlardan biri xakas Nikolay Qavriloviç Katanov, o biri isə Altaydan gələn Sabaşkin Aleksey Makaroviç idi.

Onu da qeyd edək ki, Nokolay Qavriloviç Qurultaya ən gec qatılan nümayəndə idi. Qurultayın axırıncı günü, yəni martın 6-da 17-ci iclasa özünü çatdıran Katanovu sədr "uzaq Sibirdə yaşayan türk xalqlarının nümayəndəsi" kimi təqdim etsə də, o, çıxışında qurultay iştirakçılarını "uzaq Sibirdə yaşayan xakaslar adından salamlayır"...

Əslində azsaylı da olsa, Cənubi Sibir türk soyları baxımından ən rəngarəng yerdir. Burada çoxlu sayda tayfaların olması onları altaylılar, xakaslar və tıvalar adı altında əsas üç xalq kimi birləşdirməyə səbəb olmuşdur. Elə götürək, Sibir dairəsinə daxil olan Altay Diyarını. Paytaxtı Barnaul şəhəridir. Paytaxtı Qorno-Altaysk olan Altay Respublikası da bu dairəyə aiddir.

Altay deyərkən cənub-qərb hissəsi Qazaxıstana, cənub hissəsi Monqolustan və Qobi Altayına, şimal hissəsi isə Rusiya Federasiyasına daxil olan geniş bir ərazi nəzərdə tutulur. XX əsrin əvvəllərinə qədər Altayda yaşayanlar tayfa və ərazilərə görə etnik və etnoqrafik qruplara bölünürdülər. Sonradan tuba, kumandı, çelkannığ (şalğannar, kuular), tölös, telengit, teleut, Altay-kiji kimi etnoqrafik qruplar "altaylılar" adı altında birləşdirildilər. Onların hamısı türk dillərinin şərq qolunun, qırğız-qıpçaq qrupuna daxil olan Altay türkcəsində danışır və hər birinin dili bu dilin ləhcələri kimi qəbul olunur. Əvvəllər Altay kalmıkları, dağlı, ağ kalmıklar, Altay tatarları adlandırılsalar da, 1922-1948-ci illərdə onlara "oyrat" və ya "oyrot" deyilmişdir. Dağlıq Altay Muxtar Vilayətinin əvvəlki adı da 1 iyun 1922-ci ildən 7 yanvar 1948-ci ilə qədər Oyrot Muxtar Vilayəti olmuşdur... Ona görə də I Ümumittifaq Türkoloji Qurultaya gələn Sabaşkin A.M. "oyrat" kimi qeydiyyata alınmışdır.

Sabaşkinin çıxışı göstərirdi ki, qeyri-müsəlman türklər, yəni ərəb təsirini öz üzərlərində hiss etməyən türk xalqlarının nümayəndələri Qurultayda qızğın müqayisəyə səbəb

olan ərəb-latın əlifba qarşıdurmasına hazır deyildilər. Onlar Qurultaydan sadəcə latın qrafikalı ortaq bir əlifbanın yaradılmasını umurdular. Bunu Sabaşkin də öz çıxışında dilə gətirir və sonda fikrini yekunlaşdıraraq deyir: "tamam neytral şəxs kimi düşünürəm ki, latın şrifti texnikası tətbiq edilsə, daha məqsədyönlü və türk xalqlarının ədəbiyyatı daha zəngin olar". Aleksey Sabaşkin Qurultayda həm də jurnalist kimi qeydə alınmışdır. Ulaludan gəlmişdi. "Kızıl Oyrat" dərgisinin baş redaktoru idi...

Burada bir məsələ diqqət çəkir. Xakas, tıva və saxalardan fərqli olaraq Altay türkləri bu gün latın əlifbası məsələsi ilə bağlı yazılara, tədqiqatlara o qədər də həvəs göstərmir, hətta Sabaşkinin özünü belə bəzi dairələrdə qəbul etməyərək toplulara salmırlar. Bu da rus təsirinin, mərkəzə sadiqliyin bariz nümunəsi kimi qəbul oluna bilər.Lakin bütün bunlara baxmayaraq 1928-ci ildən sonra altaylıların da digər türklər kimi latın qrafikalı əlifbaya keçdikləri tarixi fakt olaraq qalır. 1938-ci ildən onlar da kiril əlifbası əsaslı əlifbaya keçməyə məcbur edildilər. Halbuki, türklərə məxsus ilk yazılı abidələr məhz geniş Altay ərazisindən tapılmışdır. Hun əlifbası adlandırılan türk runi yazıları haqqında ilk məlumatlar XVIII əsrin əvvəllərindən elm aləminə məlum olmuşdur. Abidələrin dili araşdırılarkən alınan nəticə bu olmuşdur ki, qədimdə Mərkəzi və Orta Asiyada, Altay türklərinin də yaşadığı Cənubi Sibirdə vahid əlifba və yazı dili mövcud olmuşdur. Onu da qeyd edək ki, runi yazılar yalnız daş üzərində deyil, kağız üzərində də qalmışdır.Yəni əski türk yazısı və yazılı ədəbiyyatının varlığı haqqında kifayət qədər faktlar göstərməkmək olar. Lakin tarixi hadisələrin sürətlə bir-birini əvəz etdiyi Cənubi Sibir ərazisində yaşayan türklər uzun müddət yazılı ədəbiyyatlarını inkişaf etdirməkdən məhrum olmuşlar. Ruslaşdırma və xristianlaşdırma siyasətini məharətlə həyata keçirən Çar Rusiyası bu xalqların həyatındakı bütün inkişaf prosesini özünün həmin bölgələrdəki siyasəti ilə bağlamağa çalışmışdır.Sovet hakimiyyəti dövründə isə hər bir şey bolşeviklərin xidməti kimi təqdim olunduğundan, heç Çar Rusiyası dövründə görülən işlər belə nəzərə alınmamışdır. Nəticədə Altay türkləri də, bir sıra azsaylı türklər kimi, öz tarixi uğurlarından qoparılaraq yazılı ədəbiyyatı və əlifbası XX əsrdə yaranan xalqlar sırasına daxil edilmişdilər.

I Ümumittifaq Türkoloji Qurultayda Cənubi Sibirdə yaşayan tıva xalqının nümayəndəsi yox idi. Rusiyanın Sibir Federal Dairəsinə daxil edilən, şimaldan Krasnoyarsk, cənubdan Monqolustan, şərqdən İrkutsk və Buryatiya Respublikası, şimal-şərqdən Xakasiya Respublikası ilə əhatə olunan Tıva Respublikasının ərazisində 14 avqust 1921-ci ildə Tannu-Tıva Xalq Respublikası yaranmışdır. 1926-cı ildən Tıva Xalq Respublikası adlandırıldı. Yalnız 13 oktyabr 1944-cü ildə Tıva Xalq Respublikası SSRİ-yə daxil edildi və RSFSR-nın tərkibində Muxtar Vilayət kimi 1961-ci ilə qədər qaldı. Bu ildən Tuva MSSR,1991-ci ildən Tuva Respublikası, 1993-cü ildən isə Tıva Respublikası adlandırıldı.

Bu gün bir çox Rusiya mənbələri yazır ki, tıvaların 1930-cu illərə qədər öz əlifbası olmamışdır. Halbuki runi yazıların müəllifləri tıva türklərinin də ulu babaları idilər. Bundan əlavə, monqollarla sıx əlaqələri sayəsində Tannu-Tıva Xalq Respublikasında ədəbi monqol dilindən istifadə olunduğu da məlumdur. 1925-ci ilin oktyabrında Tıva Xalq İnqilab Partiyasının IV qurultayında əlifba yaradılması ilə bağlı qərar qəbul edilir. Monqol və kiril əlifbaları müzakirə obyektinə çevrilsələr də, Moskvanın təklifi bəlli idi – kiril əlifbası... Baxmayaraq ki, 1926-cı ildə Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultayda latın əlifbası əsaslı yeni türk əlifbası ortaya qoyulmuşdu. Buzıkayev və Bryuxanov 1927-ci ildə tələsik kiril əlifbası ilə Moskvada tıva dilində kitab hazırlayaraq çap etdirdilər. Bu, "Тыва уруглрнын эн өрэныр тептэри баштап ужукэ" kitabı idi. Müəlliflər kiril əsaslı tıva əlifbası yaratmaq istəsələr də, ümidləri baş tutmadı – yazı geniş kütləni əhatə edə bilmədi. Çünki ziyalılar artıq latın qrafikalı əlifbanın sorağını almışdırlar...

Nikolay Nikolayeviç Poppe
(1897-1991)

Onu da qeyd edək ki, N.N.Poppe də sovet dövrü sevilən alimlərdən olmamışdır. Belə ki, almanlar Şimali Qafqaza girəndə, könüllü olaraq onlara qoşulmuş və SSRİ-ni tərk etmişdir. Təbii ki, burada onun alman əsilli olmasını da yada salmaqda fayda var. Bəlkə də o, "gözü çıxan qardaşından dərs götürmüşdü". Çünki artıq 40-cı illərə qədər I Ümumittifaq Türkoloji Qurultay iştirakçılarının yarıdan çoxu məhv edilmişdir. Əsasən türk dilləri ilə məşğul olan, "yanalif"in əsasında yeni latın qrafikalı əlifbaların yaradılmasında bilavasitə xidməti olan Poppe artıq məcburu kiril qrafikası əsasındakı əlifbaların yaradıldığını görür, bütün bu proseslərin onun üçün də yaxşı qurtarmayacağını bir alim kimi görür və dərk edirdi.

Yeni türk əlifbasının qəbulundan sonra tıva türkləri öz dillərində bu əlifba ilə çoxlu sayda dərslik, şeir, hekayə, folklor nümunələri, qəzet və dərgilər çap etdirdilər. Lakin artıq 1930-cu illərin sonlarından bütün İttifaq ərazisində kiril əsaslı əlifbaya keçirilməsi göstərişi verilmişdi. Beləcə, 1 may 1944-cü ildən tıvalar da kiril əlifbasına keçdilər. Buna baxmayaraq 1945-ci ilə qədər hələ də latın qrafikalı yeni türk əlifbasından müəyyən dairələrdə istifadə olunurdu. Beləcə, xalq yenidən əlifba dəyişikliyinə məruz qalmaqla bərabər türk qardaşlarından da uzaqlaşdırıldı...

1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayda qəbul olunmuş yeni türk əlifbası sayəsində SSRİ-də yaşayan xalqlar arasında latın qrafikasına keçid geniş vüsət almışdı. Bu havanın təsiri ilə Tıvada da yeni əlifbaya hazırlıq prosesi gedirdi. Maraqlıdır ki, öncə bu əlifbanın hazırlanmasını lamalar (lamaizmdə din

xadimləri – G.Y.) Seven və Lopsan-Çimitə tapşırdılar. Onlar da 1928-ci ildə ortaya qoyduqları əlifbada alman əlifbasını əsas götürmüşdülər. Əlbəttə ki, bu əlifba da qəbul olunmadı. Bu illər Moskvada N.N.Poppe, A.A.Palmbax və Y.D.Polivanov tıvalar üçün latın qrafikalı əlifba üzərində işləyirdilər. Onlar məhz Bakı Qurultayındakı «yanalif» (yeni əlifba) dedikləri yeni türk əlifbasını əsas götürmüşdülər. Leninqraddan gələn alim Poppenin Qurultaya məxsusi dəvət olunanlar arasında olması, müzakirə və qərarlarda fəal iştirakı tıvalar üçün latın qrafikalı əlifbanın yaradılmasında müstəsna rol oynadı və o öz layihəsini 1929-cu ildə təkmilləşdirilməsi üçün Tıva Xalq Respublikasının Moskvadakı səlahiyyətli nümayəndəsinə təqdim etdi. Şərqin Zəhmətkeşlərinin Kommunist Universitetinin tıva tələbələrinin layihə üzərində işindən sonra 1930-cu il iyunun 28-də əlifba qəbul olundu.

Yuxarıda qeyd etdik ki, Qurultayın Cənubi Sibirdən gələn nümayəndələrindən biri də xakas türkü olan Nikolay Qavriloviç Katanov idi.Cənubi Sibir türklərinin bir qrupu da "xakas" adı altında birləşmişdir. Bu ərazilərdə uzun əsrlər kızıllar, sağaylar, koyballar, xaaslar, beltirlər və şorlar yaşamışlar. Xakas Respublikası bu gün cənubdan Sayan, Kuznetsk Alatau və Altay dağları ilə əhatə olunan Xakas-Minsuğ çökəkliyində yaşayırlar. Paytaxt Abakan (Ağban) şəhəridir. Baxmayaraq ki, qədim runi əlifba xakasların da ulu babalarına aid idi, onları əlifbalarının, yazı mədəniyyətlərinin yoxluğuna ruslar elə inandırmışdılar ki, Yenisey Quberniyasının cənubunda yerləşən 43 minlik Xakas Dairəsindən gələn Nikolay Qavriloviç Katanov Qurultaydakı çıxışında deyir: "Xakasların özünün milli dilində yazısı tamamilə yoxdur.Əvvəllər çarizm dövründə bu məsələ ilə heç kim məşğul olmayıb, sovet hakimiyyəti dövründə də əvvəl-əvvəl bununla məşğul olmayıblar, lakin Xakas Dairəsinin xüsusi muxtar dairə vahidi kimi ayrılmasından sonra bu məsələ ortaya daha aydın çıxdı".

Beləcə, 1923-cü ildən xakas yazısının yaradılması məqsədilə xüsusi Komissiya yaradıldı. Bu Komissiya birinci mərhələ məktəblərinin birinci qrupları üçün materiallar hazırlayır, Moskvaya göndərir. Lakin orda türk şrifti olmadığını bəhanə gətirərərk materialları çap etmirlər. Kata-

Nikolay Fyodoroviç Katanov
(1862-1922)

Burada söhbət Kazan Universitetinin professoru tanınmış alim Nikolay Fyodoroviç Katanovdan gedir. Yuxarıda vurğuladıq ki, onun iki qardaşı da keşişlərin sayəsində Nikolay Fyodoroviç Katanov olublar. Lakin tale elə gətirib ki, professor öz bacısı oğlunu oğulluğa götürüb. Tərslikdən bu uşağın da adı Nikolay olub. Oğulluğa götürdüyünə görə alim ona öz soyadını verib, lakin ata adını saxlayıb. Beləliklə, daha bir Nikolay Katanov meydana gəlib, lakin bu Nikolay Katanov üç dayısı kimi, Fyodoroviç deyil, Qavriloviçdir. Nikolay Fyodoroviç Katanovu azacıq da olsa, tanıtmaq üçün bir-iki məqama toxunaq. Onun Orenburqa, A.Vasilyevə yazdığı məktub Çar Rusiyasının yerlilərə münasibətini gözəl açır: «Deyirsiniz ki, yerlilər arasında ziyalılar yoxdur. Bir halda ki, yerliləri məhv etmək istəyirlər, ziyalı haradan tapılsın? Bəzi idarəçilər hətta bir xalq kimi başkortları, tatarları, qırğızları da yer üzündən silmək istəyirlər. Hansı yerli belə rəhbərliklə işləmək istəyər? Almanlar, fransızlar Şərqi öyrənməyə çalışırlar. Bizdə isə nə rəhbərlərdə, nə də tələbələrdə ona maraq yoxdur...». Yerlərdə xristianlığın zorla yayıldığını görən N.Katanov daha sonra yazırdı: «Kədərləndirici haldır ki, şamanizmin mahiyyəti və şaman dininin bütün sahələrilə yaxından tanış olmaq əvəzinə ...missionerlərimiz açıq-açığına şamanları təqib edərək deyirlər: - Xristin dini yaxşıdır, şaman dini isə pisdir».

nov xalqının Qurultaya olan ümidini belə ifadə edir: "Ona görə də məni qurultaya göndərərkən bizim xakaslar xüsusi olaraq xahiş etdilər ki, bu qurultay vahid şrift hazırlasın ki, ondan sonra bizim materiallar çap oluna bilsin". Sürəkli alqışlarla müşaiyət olunan sonluq bir daha göstərirdi ki, Bakı Qurultayı bir çox türk boylarının ümid yeri idi.

Yəqin oxucular xakas nümayəndə haqqında yazarkən onun ata adını xüsusi vurğuladığımı hiss etdilər. Bunun da çox mühüm bir səbəbi var.Əvvəllər dini şamanizm olan xakasları rus keşişlər silahlı kazak dəstələrinin vasitəsilə 1876-cı ilin iyul ayının 15-də Asxıs çayının kənarına gətirir, başlarını su ilə islatdıqdan sonra bütün qadın və qızlara Mariya, kişilərə isə Vladimir adı verirlər. Çar Rusiyasının xristianlığı yeritdiyi bütün ərazilərdə olduğu kimi, burada da uşaqlar (ilk vaxtlarda böyüklər də) xaç suyuna salınır, onlara xristian adları verilirdi. Məsələn, müqəddəs Nikolay günündə vatiz olunan, yəni xaç suyuna salınan bütün uşaqlar kimi, keşiş gələcəkdə tanınmış alim olan Poraya da «Nikolay» adını vermişdi. Poranın böyük və kiçik qardaşlarının da adları Nikolay olduğundan məktəb dəftərləri dəyişik düşməsin deyə, o, sonralar dəftərlərinin üstündə yazardı: «Nikolay Katanov 2». Ailədə doğulan üç oğlan uşağının üçünə də keşiş tərəfindən Nikolay adının verilməsi və ailələrin belə hallara boyun əymələri xristianlığın zor gücünə, məcburən yeridilməsinə bir daha sübutdur.

Nikolay Qavriloviç Katanov
(1894-1938)

Təbii ki, N.F.Katanov oğulluğa götürdüyü bacısı oğlunu özünə layiq böyütmək istəyirdi. Nikolay Qavriloviç Katanovun öz soyadı Tünisteyev idi. O, Katanovun böyük bacısı Mariya Fyodorovnanın ortancıl oğlu idi.Nikolay Fyodoroviç oğulluğuna yaxşı təhsil verir. Kolya Asxısda 2 sinifli kənd məktəbini bitirir və Krasnoyarsk Ruhani Seminariyasına daxil olur. Daha sonra dayısının məsləhəti ilə 1916-cı ildə təhsilini Xarkovdakı Novo-Aleksandrov Kənd Təsərrüfatı İnstitutunda davam etdirir. Lakin onu bitirə bilmir. 1918-ci ilin aprelində general Denikin dəstəsi ilə Xarkovu tutanda, bütün tələbələri ordusuna cəlb edir. Beləcə, üçüncü kurs tələbəsi Denikinin ordusunda xidmət etməli olur. Bir aydan sonra ordunu tərk edərək qırmızılara qoşulur. 1921-ci ildə ordudan tərxis olunan Kolya Xakasiyaya gəlir. 1925-ci ilin sonundan 1926-cı ilin avqustuna qədər tərcümə komissiyasında işləyir. Onun türkoloji fəaliyyəti də elə buradan başlayır. Xakasiya ziyalıları onu 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultaya nümayəndə seçirlər. 1928-ci ildə o, latın qrafikalı türk əlifbasının qəbulu ilə bağlı konfransda iştirak edir. 1929-cu ildə Moskvada keçirilən Milli Azlıqların Ümumittifaq konfransına nümayəndə olaraq gedir. 1930-cu ildə yenə Moskvada SSRİ xalqları mərkəzi nəşriyyatında milli məktəblərin dərsliklərinin redaktorlarının hazırlanması üçün konfrans kurslarında iştirak edir. Moskvadan qayıtdıqdan sonra xüsusi orqanlar onunla tez-tez maraqlanır. Lakin o, nə ictimai, nə də elmi fəaliyyətinə ara vermir. Xalqın savadsızlığının aradan qaldırılması üçün "likbez"lər yaradır, "Xızıl aal" qəzetinin yaranmasında iştirak edir. "Xakas dilinin qrammatikası" adlı ilk dərsliyi buraxılışa hazırlayır. "Xakasca-rusca lüğət" üzərində çalışır. Minusinsk Qəza İcra Komitəsində Xalqların İşləri üzrə şöbədə işləyir.

1932-ci ildə birdən-birə Asxıza gedir, daha sonra Üst-Sös ulusunda ibtidai məktəbdə müdir işləyir. Asxıs rayonunda rus dili və ədəbiyyatı

Prof.dr. Güllü Yoloğlu
türkoloq

fənnindən dərs deyir. Onu "Sibir Türklərini Birliyi" əksinqilabçı milli təşkilatın üzvü kimi 1934-cü ilin yazında tutulsa da, beş ay sonra, avqustun 31-də işində cinayət tərkibinin olmadığına görə azad edilir.

1937-ci ildə Tomsk Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsinə daxil olur. Lakin bu artıq elə bir dövr idi ki, hər yerdə olduğu kimi, Xakasiyada da ziyalıları həbs edirdilər. Beləcə, 1937-ci ildə Nikolay Qavriloviç də daxil olmaqla, 40 nəfərdən çox xakas ziyalısını Krasnoyarska apararaq ölümə məhkum etdilər. Onun ölümü ilə də bağlı qeyri-dəqiq məlumatlar tədqiqatlarda öz əksini tapır. Bəzi mənbələr 1939-cu ildə dustaqlıqda öldüyünü, bəziləri isə birbaşa güllələndiyini yazırlar. Bu mənbələrə görə, Nikolay Qavriloviç Katanovu 13 iyul 1938-ci ildə güllələyir, 1959-cu ildə isə ona bəraət verirlər...

Onu da xüsusi qeyd edək ki, 43 minlik xakas xalqı üçün 40-dan çox ziyalının güllələnməsi çox ağır itki idi. Xatırladaq ki, hələ Nikolay Fyodoroviç bir az əvvəl rusların yerlilər arasında ziyalıların olmadığını söyləmələrinə kəskin münasibət bildirmişdi. Belə bir vəziyyətdə bu qədər ziyalının məhv edilməsi bütöv bir nəslin başsız qalmasına gətirib çıxarırdı. Təbii ki, ziyalılar olmayan yerdə çox rahatlıqla kiril əlifbası əsasındakı xakas əlifbası da tətbiq edildi və qaymağı alınmış xalq savadsızlıqla da qarşı-qarşıya qaldı...

Başlıq adəti və ya Nikah müqaviləsi

Son illər cəmiyyəti, xüsusilə də gənc nəsli qayğılandıran bəzi məqamlar geniş müzakirələrə səbəb olur. Bunlara ailə qurarkən nikah müqaviləsinin bağlanmasını, gənclərin həkim müayinəsindən keçməsini misal göstərmək olar. Mövzunun araşdırılması və günümüzün reallığı bu gün Azərbaycanda nikah müqaviləsinin vacibliyindən xəbər verir.

Nigah müqaviləsi ailə hüququna aid hüquqi termin olub nikaha daxil olakən, ya da nikahdan sonra bağlanılan xüsusi anlaşma aktıdır. Burada iki tərəfin – həm oğlanın, həm qızın, ya da onların yaxınlarının razılığı əsas götürülür.

Məlumdur ki, nikah müqaviləsi qədim zamanlardan mövcuddur. Hələ Musa peyğəmbərin zamanında şahidlərin iştirakı ilə sözlü müqavilələr bağlanılırdı. Sonralar yəhudilər həmin müqavilələri yazılı edərək "ketuba" ("kethuba" - yazı, "kathab" - yazmaq) adını verdilər. Musa-ravvin hüququna görə, nikah müqaviləsi nikahın vacib şərti idi. Bu müqaviləyə görə, ər arvadını yaxşı saxlamalı, yedirtməli, onun əmlakını, yəni cehizini qorumalı, ona bakirəliyini itirdiyinə görə nikah hədiyyəsi verməli idi. Oğlan tərəfdən gəlinə verilən daşınmaz, daşınan əmlak qızın hüquqi malı hesab edilərək nikah müqaviləsində öz əksini tapır.

Rusiyada da əvvəllər nikah müqaviləsi mövcud olmuşdur. Bu gün Rusiya İmperiyasının Dövlət Arxivində qədim aktlar arasında knyajna Mariya Pavlovnanın şahzadə Saksen-Veymarski Karl-Fridrixlə toyu ilə əlaqədar Veymara göndərilən cehizinin 28 səhifəlik siyahısı saxlanılır. Tarixi qaynaqlarda bəzən nikah müqaviləsinin bağlanmasının ciddi problem yaratdığını da görürük. Məsələn, Qustavın nikah müqaviləsini imzalamaqdan imtina etməsindən sonra knyajna Yekaterina iflic olur...

Lakin 1702-ci ildə I Pyotr nikah müqaviləsini ləğv etdi. Bununla belə, bəzi əyalətlərdə bu müqavilə yaşamaqda davam edirdi. Hazırda Rusiyada da nikah müqaviləsi qanunvericiliklə qüvvəyə minib, əhali arasında da, əsasən rəğbətlə qarşılanır.

Nikahın qanunvericiliklə möhkəmləndirilmiş şərtləri sırasında boşanma zamanı əmlakın bölünməsi məsələsi də var. Avstraliya, Avstriya, Bolqarıstan, Türkiyə, Yunanıstan, Sinqapur, Yaponiya… digər ölkələrdə hər iki tərəf öz əmlakına sahib çıxır. Albaniya, Belçika, İtaliya, Çin, Çexiya, eləcə də keçmiş SSRİ-dən çıxmış respublikalarda birgə nikah zamanı əldə olunan, tərəflərdən hər hansı birinə verilən hədiyyənin, əmlakın da ümumiləşdirilərək bölünməsini görürük. Vyetnam, İndoneziya, Niderland, Ruanda kimi ölkələrdə bütün əmlak ümumi sayılır. Bütün bu proseslər boşanma zamanı bir sıra problemlərin yaşanmasına səbəb olur. Boşanan zaman stres keçirən tərəflərin psixi durumunun əmlak bölgüsü üstündə meydana gələn qarşıdurma ilə daha da kəskinləşməməsi üçün nikah müqaviləsi vacibdir.

Boşanma və onun dünya dinlərindəki yeri

Bu gün bir-birini sevən gənclər xoşbəxt olacaqlarına əmin olduqları üçün nikah müqaviləsinə sanki boşanmaya hazırlıq kimi baxaraq onu məqbul saymırlar. Lakin evlənmə olan yerdə boşanma da var. Bəzi dinlər, məsələn, xristianlığın katolik qolu boşanmanı qadağan edir. Belə ki, 1970-ci ilə qədər İtaliyada boşan-

ma qadağan olsa da, həmin ildən ona icazə verildi. Maraqlıdır ki, icazədən keçən cəmi beş ay ərzində İtaliyanın 57 milyonluq əhalisindən 5 milyon cüt məhkəməyə boşanmaq üçün ərizə verdi. Məhz buna görədir ki, "Qurani Kərim"də boşanmaya, nikah müqaviləsinə ("mehr") bu qədər geniş yer ayrılır. İslamda boşanma haram və günah deyil, halal buyurulur. Lakin o, halallar içərisində Allahın ən ikrahlısıdır. İslamda bəzi istisnalar olmaqla, boşanma haqqı kişiyə aiddir. Bu hal, yəni talaq qadın üçün gözlənilməz ola bilər. Ona görə də talağı verilmiş qadının yaşaya bilməsi üçün kəbin zamanı ər tərəfindən mehr verilir. Bu da kəbin kağızında öz əksini tapır. Onu da qeyd edək ki, 1926-cı ilə qədər Türkiyədə talaq mövcud idi.

Əgər əvvəllər mehrin dəyəri o qədər də baha olmazdısa, sonralar məbləğ, alınacaq şeylər o həddə çatırdı ki, hər ailənin onu verməyə gücü yetmirdi. Türk xalqlarının başlıq adətinə istehza ilə yanaşanların, bunu qızın satılması kimi qələmə verənlərin nəzərlərinə Bakıdakı sövdələşmə adətini çatdırmaq istərdik. H.Sarabski "Köhnə Bakı" kitabında bu barədə belə yazır: "Kəbin hallıhalına görə idi: 51, 101, 201, 301, 501, 1001, 2001 qızıla qədər olardı… Bir dəst al məxmər, bir dəst zərri, 2 dəst ipək, 4 dəst şal, rəngbərəng bir yekşəvə, bir ədyal, bir də naz-naz örpək. Bir dəst alın qızılı, bir üstü minalı çütqüqabağı, bir mina gül, silsilə, cərgəgül, boğazaltı, belbağı, iki dəst qızıl qolbaq, on dəst üzük, bir dəst həmayıl imperial, 10 dana qızıl qoza". Bundan başqa, kəbin kəsilərkən qadının talaq tələb etmək haqqı da kəbin kağızında şərt kimi göstərilə bilər. Qanunla bütün əşyalar qızın əmlakı hesab olunurdu. Boşanma zamanı və ya qadının əri öldükdə onlar qadında qalırdı. Mehr növbəti evliliyə qədər qadının həyatda yoxsulluq içərisində yaşamasının müəyyən qədər qarşısını alırdı.

İslamda mehr vacib sayılır. Təsadüfi deyil ki, "Qurani Kərim"də deyilir ki, "Qadınlarınızın mehrlərini könül xoşluğu ilə verin!" (ən-Nisa, 4). Hətta Məhəmməd Peyğəmbər də öz qızı Fatimeyi-Zəhranı həzrət Əliyə ərə verəndə, ondan mehr istəyərək sormuşdur: "Ya Əbəl Həsən, mən Fatimənin nigahını sənə oxumaqdan ötrü mehriyyən varmı?" Əli (ə) cavabında deyir ki, onun bir qılıncı, bir zirehli paltarı və bir də su daşımaq üçün dəvəsi var. Bunu eşidən Peyğəmbər (s) buyurur: "Ya Əli, qılınca ehtiyacın vardır, çünki Allah yolunda cihad edib onun düşmənləri ilə döyüşməlisən. Dəvə isə su gətirmək, xurma ağaclarını suvarmaq, ona yük yükləmək üçün lazımdır, mən sənin zirehli paltarını mehriyyə əvəzində sənin Fatiməni (ə) evləndirirəm"" (Rüstəmov İ. İslamda evlənməyin əhəmiyyəti. – Bakı, "Vedibasar, oktyabr 2010, s.8). Bu yerdə Fatimənin cehizi də maraq doğurur: bir ədəd yeddi dirhəmlik köynək; bir ədəd dörd dirhəmlik niqab; bir ədəd qara xeybəri rəngində dəsmal; bir ədəd ortası xurma ağacı qabığından düzəldilmiş taxta çarpayı; birinin içi yun, digərininki xurma yarpağından olan iki döşək; ikisinin içi yun, ikisininki xurma yarpağından olan dörd ədəd üzü Taif dərisindən olan balış; bir ədəd yun pərdə; bir ədəd otaq həsiri; bir əl dəyirmanı; bir ədəd böyük mis kasa; bir ədəd su içmək üçün dəri qab; bir ədəd su içmək üçün taxta kasa; bir ədəd su tuluğu; bir ədəd üstü qırlanmış aftava; bir neçə ədəd saxsı kuzə (yenə orada). Gördüyümüz kimi, dövrü, məkanı, şəraiti nəzərə alanda Peyğəmbərimiz qızına kifayət qədər cehiz vermişdir…

Məlumdur ki, başlıq, kalım mövcud olduğu yerdə bu haqq müxtəlif cür ödənilir. Xakas taxpaxlarından (mahnılarından) birində oğlan evi "təzə qohumları" razı salmaq üçün onlara "qızıl yüyənli", "gümüş yüyənli" atlar təklif edir. Bu, elçiliyin "pas attığ arağa" ("gəlinin əvəzinə at almanın şərəfinə şənlik") adəti ilə bağlıdır. Adətə görə, bəy ("ool", "kizə" yəhərsiz, gümüş yüyənli at gətirib qızın atasına verir. Qayınata isə əvəzində ona ipək qurşaq bağışlayır).

"Pas attığ arağa" adəti göbəkkəsmə ("çaxsıda alısxanı", "sablığ toy") ilə sıx bağlıdır (arağa – içki növü – G.Y.). Həmin vaxtdan toya qədər oğlan evinin qız evinə hədiyyələr gətirməsi ilə bağlı bir sıra mürəkkəb adətlər mövcuddur. Buna görə də, "göbəkkəsdi" olunan gənclərin evlənməsi üçün qız evi oğlan evindən heç nə almır. Çünki qız böyüyənəcən oğlan evi kifayət qədər hədiyyə verməli olur.

Bəzən qızın qaçırılması halları da olurdu. Buna da, qaçırılmanın formasından asılı olaraq, "gelini kapmak", "kavramak" və "kaçkın" deyirdilər. Çox vaxt qızın qaçırılmasına başlığın ağır olması da səbəb olurdu. Bu adət son vaxtlara qədər

Azərbaycanın şimal-qərb bölgələrində (Qazax, Tovuz, Ağstafa və.s.) qalmaqda idi.

Əvvəllər qız qaçırmaq xakaslar arasında qəhrəmanlıq sayılırdı. İndi də yaşlı xakas qadınları əsl kişidən danışanda, həsrətlə deyirlər: "ehhh, hanı o at belindən əyilib yerdən qızı qucaqlayaraq yəhərin qaşına basıb qaçırdan oğlanlar?!"

Xakaslarda qızın qaçırılmasına "tuxtam" və ya "tutxun" deyilir. Adətən, qız qaçırılan günün səhəri atası evinə adam göndərirlər ki, "itiyin" yerini ona desinlər. Qız evi də bir dəstə adamla oğlan evinə gedib qızı tələb edir. Oğlanın ata-anası əllərində arağa onların qabağına çıxıb deyirlər: "Oğurluq elədiyimiz üçün günahkarıq. İndi uşaq bizim, baş sizindir". Qız razı olarsa, oğlan evi başlıq verib razılığa gəlirlər…

Dastanlarımızda başlıq adəti

"Kitabi Dədə Qorqud"un "Qam börənin oğlı Bamsı Beyrək boyını bəyan edər, xanım hey!" boyunda Beyrək təsvir etdiyi qızın adını deməsə də, atası artıq söylənilən əlamətlərdən həmin qızın məhz Banıçiçək olduğunu duyur: "…Oğıl, məgər sən istədigin qız Baybican bək qızı Banıçiçək ola!" Buradan aydın olur ki, Oğuz bəylərinin bir-birinin ailəsi, övladları haqqında lazımi təsəvvürləri vardı. Əgər Baybörə oğuz bəyləri ilə məsləhətləşib Dədə Qorqudu elçi göndərməyi lazım bilirsə, Qanlı qoca oğluna "…qız görmək səndən, mal-rizaq vermək bəndən!" deyə təklif edir. Əslində burada elə də ciddi bir fərq yoxdur. Sözü gedən boyların birincisində artıq oğlan qızı bəyənmişdir. Sonrasını valideynlər, böyüklər həll etməli idilər. İkinci boyda isə Qanturalı öz zövqünə uyğun qız tapmamışdır. Qız bəyənildikdən sonra ata öz üzərinə düşən vəzifəni adət-ənənəyə uyğun olaraq yerinə yetirəcəyini, yəni başlıq verəcəyini bildirir. Adətən, elçiliyə samballı, el-oba arasında sözü ötən adamları, ağsaqqalların göndərildiyi üçün Dəli Qarçarın bacısı Banıçiçəyi Bamsı Beyrəyə diləmək üçün Qalın Oğuz bəyləri Dədə Qorqudun elçi getməsini məsləhət görmüşdülər. "Qam börənin oğlu Bamsı Beyrək boyını bəyan edər, xanım, hey!.." boyunda Banıçiçəyi Beyrək üçün almağa gedən Dədə Qorqudla qızın qardaşı Dəli Qarçarın sövdələşməsi maraq doğurur. Dəli Qaçar başlıq olaraq "bin buğra götürün kim, heç qısrağa aşmamış ola. Bin dəxi qoyun görməmiş qoç gətürün. Bin də quyruqsuz-qulaqsız köpək götürün. Bin dəxi bürə götürün, mana… Əgər bu dedigim nəsnələri götürərsinüz, xoş, verdim" deyir. Elçilikdən geri dönən Dədə Qorquddan qızın razılığının alındığını öyrənər-öyrənməz Baybörə bəy "Dəli nə istədi?" deyə soruşur. Bu da o deməkdir ki, Baybörə bəy də elin başlıq adətini gözəl bilirdi…

Qaqauzlarda nişan ağız arandıqdan, yəni qızın "hə"si verildikdən sonra keçirilən adətdir. Buna bəzən "annaşmak", "yavuklu etmək", "yavuklu olmak", "söz vermək", "laf", "laf brakmak" da deyirlər. Qaqauzlarda nişana bəylə dostu da gəlir, lakin onlar danışıqlarda iştirak etmirlər. Danışığın əsas məğzi oğlan evinin qızın valideynlərinə verəcəyi pulun məbləğindən ibarət olur. Bu pul "boba xakı", Çişmikiöy və Satılık-Hacı kəndlərində "aarlık" adlanır. Azərbaycan türkləri buna "başlıq", "süd haqqı", "süd pulu", "qız pulu", tatarlar, ləzgilər, dağ yəhudiləri "bahaşir", xınalıqlar "dədvi-alçaq", Orta Asiya türkləri "kalım" deyirlər. Tək-tək hallarda "süd haqqı" pulla ödənilirdi. Əksər hallarda parça bağışlanılırdı.

Başlıq adəti digər türk xalqlarında da "süd haqqı" kimi geniş yayılmışdır. Məsələn, xakaslarda qızın anasına "imdjek ağı" ("əmcək ağı", süd haqqı) olaraq paltar, yaylıq, pul və ya sağmal inək verərdilər. Başqırdlarda kumıs qabı olan saba ilə bağlı sabantuy zamanı iki qohum olan ailə bir-birini yemək-içməyə dəvət edirdi. Gəlini ata evindən çıxararkən qız evlərindəki sabanı qucaqlayır, indiyədək ondan süd içdiyinə, böyüdüyünə görə təşəkkür edir və üstünə kiçicik bir hədiyyə taxırdı. Burada biz sabanı qızı böyüdən, ona süd verən, həyat verən yaşlı qohum, ana rolunda görürük.

Əlbəttə ki, zaman dəyişdikcə, insanlar oturaq həyat tərzinə keçdikcə, vaxtilə insanla-

rın həyatında çox böyük rolu olan kumıs yerini başqa nəsnələrə verdikcə, sabanın yerini ana tutmağa başlayır. Ona süd verib boya-başa çatdırdığı üçün oğlan evi anaya minnətdarlıq əlaməti olaraq hədiyyə verir. Qaqauzlarda da qızın anasına hədiyyə verilir və buna, qeyd etdiyimiz kimi, "ana topu" deyilir. Yalnız "aarlık" və "ana topu" ödənildikdən sonra qız evi toya razılıq verirdi.

Tıvalarda "düqdeer"dən sonra

oğlan qız evində qalır və qızla ər-arvad kimi yaşayır. Adətə görə, o, qızı öz evinə yalnız başlıq ödəyəndən sonra apara bilər. Bu müddət ərzində hər iki tərəf toya hazırlaşır. Bəyin valideynləri öz aallarında gənclər üçün öq qurur, qızın valideynləri isə cehiz ("xereejen kijinin xerekselderi") hazırlayır. Toya on gün qalmış bəy öz atası evinə gəlir…

Bütün bunlar göstərir ki, "Aşıq Qərib" dastanında da Şahsənəmin atasının Aşıq Qəribdən qızı üçün pul istəməsi təsadüf deyildi…

Başlıq hazırda Türkiyədə də qadının satın alınması kimi qəbul olunur. Lakin söhbət mehrdən düşəndə, bunun tamamilə başqa şey olduğunu söyləyirlər. Əslində bunlar bir şeyin iki tərəfidir. Əslində bu, tərəflərin öz aralarında haqların tanınması ilə bağlı bir anlaşmadır. İslamdakı mehr məsələsinə uyğun olaraq əgər oğlan boşanırdısa, başlıq batırdı. Qız tərəf ayrılmağa qərar verirdisə, başlığı qaytarmalı idi… Müsəlman ailələrində talaq kişiyə məxsus idi. Lakin bəzi qadınlar da talaq hüququnu mehr zamanı özlərində saxlayırdılar…

Təsərrüfatın əkinçilik və heyvandarlıq sahələri ilə məşğul olan xalqın əsas hissəsi bu işlərə cəlb olunurdu. Evlənəcək yetişmiş, ərgən qız öz ailəsinin təsərrüfat həyatından qoparaq ər evinin işçi qüvvəsini artırır. Başlıq bu işçi gücünün az da olsa, əvəzini əldə etməyə yönəlir. Oğlan tərəfin verdiyi pul, daşınan və daşınmaz mallar itkinin yerini doldurmağa xidmət edir. Məsələn, bu gün işləyərək yaxşı maaş alan qızlar ata evinə maddi yöndən yardım edirlər. Onlar ailə qurduqdan sonar ata-ana bu maddi dəstəkdən məhrum olur və onların əziyyətlə oxutduqları, böyütdükləri qızlar artıq aylıq gəlirlərini də ər evinə aparırlar. Ağır cehiz verən qız tərəfi üçün bu hal ədalətsiz kimi görünə bilər. Bəzən elə bu səbəbdən də söz-söhbət yaranır, qız evi yükün əsas hissəsinin onun üzərinə düşməsi hissi ilə barışmaq istəmir və ya işləyərək ər evinə xeyli maddi yardım edən qızdan ev işləri ilə bağlı tələblər işləməyən qızlarla eyni səviyyəyə çatdırılırsa, müəyyən narazılıqlar qaçılmazdır.

Başlıq vermə çox vaxt iqtisadi olduğu qədər toplum arasında bir əlaqə formasıdır. Əgər qohum deyillərsə, bir-birilərindən qız alıb verən iki ailənin qarşılıqlı əlaqələrinin bir parçası olaraq aralarındakı dostluğu möhkəmlədir. Başlıq həm gəlinə yaxşı münasibətin olacağına güvəni artır, həm də onun yoxlu ilə bağlı ailəsinə ödənən bir təzminatdır. Kəbin zamanı mehrdə olduğu kimi, başlığın növü və miqdarı qızın özəlliklərinə, ailəvi durumuna və oğlan tərəfının maddi gücünə görə dəyişir. Ödəmə mal ya da pul şəklində olduğu kimi, vaxt baxımından da fərqli ola bilər. Verilən mallar müəyyən miqdarda heyvandan silaha, qumaş, içki, yiyəcək, pul və hətta qadına qədər çeşidli ola bilər.

Dünyanın ənənələrə dayanan həyat tərzi keçirən xalqlarının bir çoxunda, özəlliklə də Asiya və Afrika xalqlarında başlıq və mehr adətinin müxtəlif formaları mövcuddur.

Bu gün ailələrin dağılmasının səbəbləri kimi qızların ailə həyatına hazır olmamasını, onların müstəqilliyi ilə bağlayanlar bir az da evlənmənin çox asan olduğuna, ucuz başa gəldiyinə diqqət yetirməlidirlər. "Yoldan keçən birinin qolundan tutub evə gətirmək" qurulacaq ailəyə, gəlinə münasibətin ciddiliyini azaldır. Halbuki əvvəllər evlənmə və ağır, xərc tələb edən proses idi. Və böyük miqdarda mehr və başlıq verərək "əməlli-başlı tərləyən" oğlan evi də boşanmada maraqlı olmurdular. Başlıq və ya nikah müqaviləsi olan yerdə hər iki tərəf bu evliliyə məsuliyyətlə yanaşır, məsuliyyət daşıyır. Qız tərəf aldığını qaytarmaqdan, oğlan evi isə verdiyini itirməkdən qorxur. Məcburiyyət qarşısında boşanmış qadın tərəf ona görə alınan başlığın əvəzində qıza baxmalıdır. Həm nigah müqaviləsində, həm də başlıq adətində boşanma hallarının qarşısı müəyyən qədər alınır, boşanmış qadının sonrakı həyatına müəyyən qədər təminat verilir. Çox vaxt bu müqavilə üçün verilən mal-pul oğlan evinə böyük əziyyət bahasına başa gəlirdi. Ona görə də onlar qıza dəyər verirdilər. "Gəlinimə bir ətək pul tökmüşəm" deyənlər ikinci dəfə eyni xərcə düşməmişdən əvvəl bir az düşünəcəklər. Bəzən pulun əvəzini gəlindən çıxmaq cəhdləri də olur. Bu da qarşı tərəfin mədəni, insani keyfiyyətlərinə bağlıdır…

GÜLLÜ YOLOĞLU
tarix elmləri doktoru

Oxucuların nəzərinə!

Aylıq yayımlanan
“Birlik” *jurnalını mətbuat yayım köşklərindən və abunə yazılışı ilə əldə edə bilərsiniz.*

Tarixinə və gələcəyinə biganə qalma!

TƏSİSÇİ:

ATXƏM İctimai Birliyi
Sədr: İlham Surxay oğlu İsmayılov

Baş redaktor:
İlqar İlkin

Bədii redaktor:
Səadet Ramazanlı

Redaktor:
Telman Əlirzayev

Texniki redaktor:
Vəfadar Farizoğlu

Ünvan: AZ1065, Bakı şəhəri,
Həsən Əliyev küç. 10/61
Tel: (99 412) 594 21 48
Mob: (99 450) 623 26 88
e-mail: athem2007@gmail.com
web: www.atxem.az

Bank rekvizitləri:
Azərbaycan Beynəlxalq
Bankın Abşeron filialı
Kod: 805539
VÖEN: 9900001881
Müxbir hesabı:
AZ03NABZ01350100000000002944
SWIFT: İBAZAZ2X
Hesabın adı:
ATXAM İCHTİMAİ BİRLİYİ
IBAN:
AZ83IBAZ38090019441512339201
VÖEN: 1700815321

Jurnal Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində dövlət
qeydiyyatından keçmişdir.
Reyestr №: 2557

Çapa imzalanmışdır: 30.01.2017
Tiraj: 500

Jurnalın materiallarından istifadə zamanı istinad zəruridir. Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır. Reklam məlumatlarının məzmununa görə redaksiya məsuliyyət daşımır.
"TİME-Print" Mətbəəsində çap olunub.

Jurnal 2008-ci ilin
may ayından çıxır

ALMAS İLDIRIM

(1907–1952)
Azərbaycanın mühacir şairi

Kimsə bilməz Tanrıdağın yaşını,
Duman almış Altayların başını,
Uçurmuşdur başdan dövlət quşunu,
Sərvətinə yüz çevirmiş zaman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Dörd bir yana dağılmış Türk soyları,
Sönmüş ocaq, köçüb getmiş boyları,
Dərdli-dərdli axar bozqır çayları,
Saxlar içdən gizli ümid, güman hey…
Qoca Türkün düşdüyü gün yaman hey…

Ağ alnına qara yazı yazılmış,
Yaylalarda düyün-dərnək pozulmuş,
Gəlinlərin gur saçları çözülmüş,
Yada qalmış, dilər eldən aman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Dağdan-dağa çarpıb getmiş doğanlar,
Qayalarda iz buraxmış al qanlar,
Ordulara buyruq verməz elxanlar
Nərdə qalmış Sədlər yıxan fərman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Xarab olmuş Buxarası, Başkəndi,
Matəm tutmuş Səmərqəndi, Daşkəndi,
Kəndi söylər, tökər gözdən yaş kəndi
Nə ozan var, nə yazan, nə şaman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Qazan, Başqurd batmış, Qırım sürülmüş,
Mənim çəkik gözlü yarım süzülmüş,
Qonum-qonşum, bütün varım sürülmüş,
Bulunurmu Sibiryada iman hey?
Qoca Türkün düşdüyü dərd yaman hey…

Türk elləri bir-birinə yadlanır,
Qazax, qırğız, türkmən, özbək adlanır,
Azəri Türk yanar, içdən odlanır,
Ana yurdun içdən halı duman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Orqun çağlar, yatmış ellər ayılmaz,
Tarım çayı doğru yola qoyulmaz,
Hey səslənir Amu-Dərya, duyulmaz,
Sır-Dəryada qalmamışdır dərman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Xəzər coşar, xəbər salar Kürünə,
Axıb gedər Kür sürünə-sürünə,
İdil ağlar, Altın Ordu yədinə,
Aral kəndi varlığında peşman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Azərbaycan dərd içində doğulmuş,
Sevənləri diyar-diyar qovulmuş,
Ağla, şair, ağla, yurdun dağılmış,
Nərdə qopuz, nərdə qırıq kaman hey?..
Nərdə böyük Vətən – nərdə Turan hey!..

QİYMƏTİ: 2 AZN